Bu bir xalq qəzetidi
ƏDALƏT

## Azərbaycan XİN-ə yeni sözçü təyin olundu



**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin (XİN) əmri ilə Ayxan Elxan oğlu Hacızadə XİN-in Mətbuat Xidmətinin rəhbəri vəzifəsinə təyin edilib.**

Bu barədə Adalet.az-a XİN-in Mətbuat xidməti idarəsindən bildirilib. Ayxan Hacızadə 1981-ci ildə anadan olub. Bakı Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Beynəlxalq Hüquq fakültəsinin bakalavr və magistr pillələrini bitirib. ABŞ-ın Milli Müdafiə Universitetinin Strateji Təhlükəsizlik Elmləri üzrə magistr dərəcəsinə malikdir. Xarici ölkələrdə bir sıra tədris proqramı və təlimlərdə iştirak edib, Corc Marşal adına Avropa Təhlükəsizlik Elmləri Mərkəzində Ali Təhlükəsizlik Proqramının və BMT-nin Tərksilah məsələləri üzrə Təqaüd Proqramının məzunudur. 2007-ci ildən etibarən Xarici İşlər Nazirliyində müxtəlif diplomatik vəzifələr tutub. 2010-2014-cü illərdə Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyində, ATƏT və BMT-nin Vyana şəhərində yerləşən təşkilat və qurumları yanında daimi nümayəndəliyində üçüncü və ikinci katib, 2017-2022-ci illərdə Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı Səfirliyində birinci katib və müşavir vəzifələrində çalışıb. 2022-ci ilin iyul ayından etibarən Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəis müavini vəzifəsində işləyib. Ailəlidir, üç övladı var.

## MEDİA, Audiovizual Şura və BDU arasında memorandum imzalandı



**Oktyabrın 19-da Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Bakı Dövlət Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.**

Adalet.az xəbər verir ki, memorandumun imzalanmasında məqsəd qarşılıqlı fəaliyyət istiqamətləri üzrə əməkdaşlığın gücləndirilməsi və inkişaf etdirilməsi, universitet tələbələri üçün praktiki və nəzəri təlimlərin təşkilinin reallaşdırılması, media sahəsində müasir çağırışlara cavab verən kadrların hazırlanmasına dəstək göstərilməsidir. Sənədi Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Audiovizual Şuranın sədri İsmət Səttarov və Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev imzalayıblar.

Memoranduma əsasən, universitetin professor-müəllim heyəti və təhsilalanları üçün elmi-praktik bilik və bacarıqların inkişafı, medianın funksiyaları və müasir inkişaf meyilləri sahələrində birgə layihələrin təşkili, yüksək ixtisaslı jurnalist kadrların hazırlığı istiqamətində əməkdaşlıq edilməsi razılaşdırılıb.

**Memorandum çərçivəsində MEDİA Agentliyi və Audiovizual Şura tərəfindən BDU-nun müxtəlif səviyyələrdə jurnalistika ixtisası üzrə təhsilalanlarına təcrübi tələblərə uyğun buraxılış işi və dissertasiya mövzularının müəyyənləşdirilməsinə dəstəyin verilməsi, universitet məzunlarının və xüsusi istedadlı təhsilalanların müxtəlif media subyektlərində işə cəlb edilməsinə köməklik göstərilməsi, media sahəsində müasir texnologiyaların və elmi inkişafın istifadəsində qarşılıqlı əlaqələndirmənin həyata keçirilməsi nəzərdə tutulub.**

## Ərdoğan:"Azərbaycanlıların azad edilən torpaqlara geri dönüşü bizləri sevindirir"



**"Azərbaycanlıların azad edilən torpaqlara geri dönüşü bizləri sevindirir".**

Adalet.az-ın xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Cəbrayıl şəhərində Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata birgə bəyanatlarla çıxışı zamanı deyib.

Dövlət başçısı bildirib ki, Zəngilan Hava Limanı Qarabağın dirçəliş dastanının yazıldığının bariz nümunəsidir: "Belə önəmli layihədə Türkiyə şirkətlərinin də rol alması bizim üçün ayrı şərəfdir.

Azərbaycanlı qardaşlarımızın azad edilən torpaqlara geri qayıtmağa başlaması bizləri artıq dərəcədə sevindirir".

## Aqil Abbasdan təklif: Ağdamda Milli Məclisin komitə iclası keçirilsin

**"Parlamentin bir neçə iclası Şuşada keçirilib. Ağdam şəhəri də yenidən qurulur. İstəyim odur ki, Ağdamda da komitə iclası keçirək".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin bu gün keçirilən iclasında Aqil Abbas deyib. Deputat Milli Məclis sədrindən xahiş edib ki, parlamentin komitə iclaslarından bəzilərinin Ağdamda keçirilməsi təşkil edilsin. Spiker Sahibə Qafarova deputatın bu təklifinə müsbət yanaşıb: "İnşallah, nəinki Ağdamda, eləcə də Qarabağın digər guşələrində də iclaslarımızı keçirərik".

*İRADƏ TUNCAY*

## KƏSMƏ ŞİKƏSTƏ

*Müasir tariximizin, yaxın tariximizin sənətçisi idi Şövkət xanım. Çox görmüşdüm onu səhnədə, TV-də, konsertlərdə, hətta Kəlbəcərdə açıq havada oxumağını da... Zaman amansızdı... Gördüklərimizi alır aparır, sonra ancaq xatirələr qalır... Biz qalana qədər....*

*Bizə qalmayacaq nə bizə qalsa...*

*Dəvətnaməni neçə gün idi göndərmişdi gözəl Aybəniz. Diqqət göstərmişdi əzizim...*

*Dram teatrında idi yubiley tədbiri. İçəri girəndə hüznlü, məhzun bir dalğa gəldi üstümə elə bil. Qaraya bürünmüş ağ saçlı cavan qadınlar çox idi... Oğullarını itirmiş analar... Deməli, belə qərar verib Aybəniz xanım... Onların haqqıdı...*

*Tanıdıqlarım dəyir gözümə... Gülər Mikayılqızı yanında ağ saçlı qadınla yaxınlaşır - Tural Abbaslının anasıdı deyir... Bir azdan Xanım İsmayılqızını görürəm... Qalxırıq yuxarı. Zalda Kamil Həmidovla rastlaşırıq. Kamil bu iki ildə çox zəhmət çəkdi şəhidlər adına... Aqil arxaya dönür və şəhid yaxını olduğu hər halından bəlli olan bir qadına deyir:*

*- Sizin yanınızda biz utanırıq...*

*Qadının dili açıldı elə bil...:*

*- Mən Birinci Qarabağ savaşında itirmişəm yoldaşımı. O vaxt sizin yanınıza çox gəlmişəm. Yazılarımı çap eləmisiz...*

*Konsert başlayır, Aybənizin ay görkəmli tələbələri həzin, şirin səsləri ilə zalı doldururlar... Bildiyimiz, eşitdiyimiz mahnılar... Şövkət xanım nəsillərdən nəsillərə zəngin miras qoyub gedib. Və biz də bu gün həmin irsdən bəhrələnirik...*

*Mehriban Əhmədova çıxır səhnəyə, Şövkət xanımı xatırlayır söhbətləriylə. Mehriban Əhmədova da şəhid bacısıdı...Yaralıyıq neçə illərdi... Sağalmır bu yara...*

*Əzizinəm, a balam, uludu...*
*Axan çaylar qurudu...*

*Kəsmə şikəstəni dinləyirəm və gözlərimdəm sel kimi yaş axır... Ürəyim tel-tel olur... Var ol Aybəniz xanım...*

*Duyğularımızı tərpətdin...*

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 46 (5983) 22 oktyabr 2022-ci il
Qiyməti 30 qəpik

## BİZ QOL BURAXANDA NABAROT, QIZIŞIYORUZ



*Gəncəli balasının məşhur deyimi bizim "Qarabağ" komandasına da aiddi: "Qol buraxanda nabarot, qızışıyorlar". "Sumqayıt"la oyunda da bir qol buraxandan sonra "Qarabağ" necə qızışdısa 3 topla cavab verdi.*

*Sən Allah, bizi belə həyəcanlandırma.*

# "Türkiyə-Azərbaycan birliyi qardaşlığımızın təntənəsidir"



Bax:səh-2

## DİN-dən piket keçirmək istəyənlərə xəbərdarlıq



**Bakı Şəhər İcra Hakimiyyəti Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) icra hakimiyyətinin önündə piket keçirilməsini məqsədəuyğun hesab etməyib. Buna baxmayaraq, həmin partiyanın bir qrup üzvü piketin keçiriləcəyi haqda sosial şəbəkələrdə məlumatlar paylaşırlar.**

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin bölmə rəisi Zeyni Hüseynov məlumat yayıb.

O bildirilib ki, piket üçün nəzərdə tutulan yer təhsil müəssisələrinin yerləşdiyi, nəqliyyatın intensiv hərəkət etdiyi və insan sıxlığının yüksək olduğu ərazi olduğundan orada aksiya keçirilə bilməz:

"Ona görə də 2019-cu ildə qeydə alınmış analoji neqativ halın təkrarlanmasına imkan verilməyəcək, cəhd ediləcəyi təqdirdə isə qarşısı alınacaqdır.

Xatırladırıq ki, qanunvericiliklə icazə verilməyən yerlərdə kütləvi tədbirlərin keçirilməsinə görə təşkilatçılar məsuliyyət daşıyırlar".

## CAMAAT BİR BELƏ PULU HARDAN ALIR?



Eminquey Rüstəm Hacıyevdən soruşur:

**- Rüstəm müəllim, sən böyük vəzifələrdə işləmisən, bilərsən, adamlar bir belə pulu hardan alır? Demə ki işdən. Mən bütün günü işdəyəm axtarıram, amma tapa bilmirəm.**

Görək Rustəm Hacıyev nə cavab verdi, o da qalsın gələn dəfəyə.

## TIXACLAR İNSANLARA XOŞBƏXTLİK GƏTİRİR



**Gənclər bu tıxaclarda gözəl qızları görürlər, tanış olurlar, sevişirlər, elə tıxacda nişanlanırlar. Belə getsə, elə toylarını da tıxaclarda edəcəklər.**

Amma bir məsələ var. Hamilə qadınlar bəzən tıxaclarda doğmalı olurlar. Qanuna görə, insan hansı ölkədə doğulursa, oranın vətəndaşı olur. Və yaxud hansı rayonda, hansı kənddə doğulursa yaş kağızına həmin rayon, həmin kənd yazılır.

**İndi bu tıxacda doğulan uşaqların yaş kağızına hansı ölkənin vətəndaşı olduğu və ya hansı rayonda, hansı kənddə doğulduğu əvəzinə, yəqin yazacaqlar ki: Doğulduğu yer: Tıxac, Bakı şəhəri.**

*Aqil ABBAS*



## YENƏ İTLİ-PİŞİKLİ TÖKÜLÜB GƏLİBLƏR ERMƏNİSTANA

*30 il Qarabağda şəhərlərimiz, kəndlərimiz, abidələrimiz, məscidlərimiz, məbədlərimiz darmadağın edildi, yerlə-yeksan oldu. Bir milyon adam Ermənistan Silahlı Qüvvələrinin işğalı nəticəsində yurd-yuvalarından oldular, qaçqın düşdülər, Xocalıda, Ağdabanda, Qaradağlıda, Kuropatkində və sair və ilaxır soyqırıma məruz qaldılar. Avropada bir it oğlu, bir it küçüyü də səsini çıxarmadı. Əksinə, işğalçılara dayaq oldular.*

*İndi itli-pişikli bir sürü Avropadan müşahidəçi adı ilə tökülüb gəliblər Ermənistana və Azərbaycanla sərhəd bölgələrini gəzirlər. Avropadan gələnlər də elə ah-ufla danışırlar ki, öəlkə heç dədələri öləndə belə qəmgin görünməyib.*

*Ermənilər onlara nə göstərir?Cermux şəhərində pəncərələri, şüşələri qırılmış evləri, bölgədə son 30 ildə yapdıqları və dünyaya tarixi abidə kimi sırıdıqları xaçları. O xaçları ki, bəlkə də çoxlarını özləri qırıb və sair və ilaxır. İndi bu gələnlər gedib Avropada bir ağlaşma quracaqlar ki.*

Bax: səh.3

## İRAN ƏN VACİB MƏSƏLƏNİ UNUDUR

**Ermənistanın bajılarından biri olan İran çox atılıb düşür. İstəyir onu da regionda söz sahibi kimi tanısınlar, amma alınmır.**

İndi də Araz çayı boyunca hərbi təlimlər keçirir. Çayın üzərində üzən körpü salır, bu körpüdən tanklar keçirir, silah-sursat baxımından bütün var-yoxunu yığıb sərhədimizə. Təbii ki, bu da ölkəmizin əhalisində narahatçılıq yaradır.

Amma İran ən vacib bir məsələni unudur. Unudur ki, İran ordusunun 60 faizindən çoxu türkdür, azərbaycanlıdır. Və bir gün həmin o 60 faizdən çox silahı molla rejiminə çevirə bilər, onda İranın dalı açıq qalar.

*İradə TUNCAY*
*iradetuncay@rambler.ru*

## SUS elində kimin günü xoş keçir...



*Kimin günü... Çətin sualdı. Nekrasova cavab tapmaq mümkün olmadı. Xalqın sevgisini qazana bildi, amma. Amma sevgi kimin qarnını doyura bilib ki?*

*İstədim o poemanın qəhrəmanları kimi düşüm yollara və xoşbəxt insanları aşkar edim... Bizim eldə xoşbəxtlər kimlərdi?*

*Əvvəlcə kütləvi sahələri müəyyən edək də. İctimai varlıqdı insan... Belə deyirlər də. Yəni nə iləsə məşğul olan, ya da çörəyinin hardan gəldiyi bəlli olan. Kütləvi? Kimdir bu kütləvilər?*

*Fikirləşdim... Əsgərlər ola bilər - çoxluq onlardı. Hər halda bizdə belədi. Od-alov altında, təpik altında, bəlli bir yerdə evi-eşiyi olmayan... Hər gün ölümlə üz-üzə... Əsgərin günü hardan xoş keçəcək ki?.. Uzaqlaşaq əsgər adından. Baxaq görək kimi tapırıq... Əsgərlər çoxluqda indi torpağın altında yatır. Yəni yatmaq vaxtı deyilsə də göndəriblər də ora. Yatmağa yəni... Məzarlığa... Məzarlıq deyəndə mollalar yada düşür...*

Bax: səh.3

## Türkiyə ordusu 4 terrorçunu məhv etdi



**Türkiyə ordusu Suriyanın şimalında 4 PKK terrorçusunu zərərsizləşdirib. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.**

Məlumata görə, terrorçular "Fərat qalxanı" əməliyyat bölgəsinə hücum edərkən məhv edilib.

## Ukrayna İran PUA-sının 85%-ni vurub



**Son iki həftə ərzində Rusiyadan Ukraynaya atılan İranın "Şahid-136" PUA-larının 85%-i məhv edilib.**

Bunu Ukrayna ordusunun Hərbi Hava Qüvvələri komandanlığının mətbuat katibi Yuri İqnat deyib. "Dronlara qarşı döyüş qüvvələrimiz və vasitələrimiz effektlə işləyir.

Son iki həftədə "Şahid-136" PUA-larının 85%-ni məhv etmişik", - o bildirib.

## QƏTTƏZƏ BİR PLANET TAPILIB

***Özü də Yerdən təxminən 150 dəfə böyükdü. Həm də qulağımızın dibindədi, cəmi 8 min işıq ili məsafəsində.***

***Yadımdan çıxmışdı, amerikalılar Marsda kartof becərəcəklər. Quba-Xaçmaz bölgəsində dadı başqalarından fərqlənən qırmızı kartof olur. Barı ondan becərsəydilər!***

## GÜNÜN LƏTİFƏSİ



Aqil Abbas Milli Məclisin foyesində Razi Nurullayevlə görüşür:

**- Salam Razi bəy, belə tələsik hara gedirsən?**

Razi Nurullayev:

**- Gedirəm iynə vurdurmağa.**

Aqil müəllim:

**- Poliklinkaya?**

Razi bəy:

**- Yox ey, özümə...**

## İlham Əliyev və Ərdoğan Zəngilan aeroportunun açılışında



**Oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər. Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsdilər. Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildi. Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış oldular. "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov Azərbaycan və Türkiyə prezidentlərinə hava limanı barədə məlumat verdi. Bildirildi ki, Zəngilan Beynəlxalq Hava Limanının asfalt-beton örtüklü uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr təşkil edir. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən genişgövdəli ağır yük təyyarələrini qəbul edəcək. Perronun sahəsi 60 min kvadratmetrdir. Hava limanı ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək. Müasir dünya tələblərinə cavab verən beynəlxalq aeroportun terminalı saatda 200 sərnişinə xidmət göstərmək imkanına malik olacaq. Terminal daxilində VIP-zal, kafe, tibb məntəqəsi və ofis otaqları mövcuddur.

Aeroportda tam avtomatlaşdırılmış hava hərəkətinə nəzarət və aviasiya rabitəsi sistemləri ilə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə Qülləsi tikilib. Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün ICAO-nun beynəlxalq tələblərinə uyğun olaraq İtaliyanın və Almaniyanın aparıcı istehsalçılarının müasir aeronaviqasiya dəstək sistemləri tətbiq edilib. Qısa müddətdə ILS/DME instrumental eniş sistemləri, VOR/DME marşrutu üzrə hava gəmisi naviqasiya vasitələri, avtomatlaşdırılmış aviasiya və meteoroloji müşahidə sistemləri, ilkin və ikinci dərəcəli radar sistemləri quraşdırılaraq istifadəyə verilib. Bütün sistemlər ICAO və Eurocontrol-un beynəlxalq aviasiya kataloqlarında qeydiyyatdan keçib. Zəngilan Beynəlxalq Hava Limanının ərazisində yardımçı binalar, transformator binası, qazanxana və su çənləri inşa edilib. Uzunluğu təxminən 10 kilometr olan 35 kilovoltluq ikidövrəli elektrik kabel xətti çəkilib. 230 metr dərinlikdə artezian quyusu qazılaraq su çıxarılıb.

Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcəyi günü yaxınlaşdırmaqdadır. Onu da deyək ki, Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində inşa olunur.

## "Türkiyə-Azərbaycan birliyi qardaşlığımızın təntənəsidir"

**"Bu gün Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir. Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır. Bu, bizim üçün böyük xoşbəxtlikdir və İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi".**

Adalet.az xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində mətbuata bəyanatında söyləyib.

"Keçən il Şuşa Bəyannaməsinin imzalandığını xatırladan dövlətimizin başçısı deyib ki, bununla da Türkiyə və Azərbaycan rəsmən bütün sahələrdə müttəfiq oldu: "Bu, həm xalqlarımıza ciddi gözaydınlığıdır, eyni zamanda, bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir faktordur. Bu, sülh, sabitlik faktorudur, ancaq, eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu faktoru ciddi nəzərə almalıdır" - dövlət başçısı əlavə edib.

## Azərbaycan Prezidenti: "Əziz qardaşımın liderliyi sayəsində Türkiyə dünya miqyasında güc mərkəzinə çevrilib"

**"Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə son illər böyük, uğurlu yol keçib, dünya miqyasında güc mərkəzinə çevrilib. Türkiyədəki sabitlik, inkişaf göz qabağındadır".**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində mətbuata bəyanatında bildirib.

"Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, nəhəng layihələr gerçəkləşdirir, bölgədə söz sahibidir, dünyada önəmli güc mərkəzidir və hər kəs bununla hesablaşmalıdır. Hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır. Azərbaycanda Tayyib bəyə çox böyük hörmət, məhəbbət var və bunu Azərbaycana gələn hər bir insan görür", - deyə dövlət başçısı vurğulayıb.

## "İkinci Qarabağ müharibəsindən sonra Türkiyə-Azərbaycan birliyi daha yüksək pilləyə qalxıb"

**İkinci Qarabağ müharibəsindən sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin ki, siz də görürsünüz, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır. Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyəti və zəmanəmizin tələbidir.**

Adalet.az xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Cəbrayıl şəhərində mətbuata bəyanatında söyləyib.

"Bu gün əziz qardaşımızın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi bir yerdəyik və bir yerdə olacağıq. Bundan sonra bölgədə gedən işlər əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı ilə və icazəsi ilə aparılacaq. Siyasi təşəbbüslər, iqtisadi, enerji, nəqliyyat - bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıb", - deyə dövlət başçısı qeyd edib.

Bu əziz gündə bizimlə bərabər olduqları üçün Türkiyə Prezidentinə və nümayəndə heyətinə bir daha təşəkkürünü bildirən Prezident İlham Əliyev qardaş Türkiyə xalqına xoşbəxtlik və sülh arzulayıb.

# Mətbuat Şurasında Vətən müharibəsində iştirak etmiş jurnalistlərlə görüş keçirildi

**Azərbaycan Mətbuat Şurasında Vətən Müharibəsinin iştirakçısı olmuş jurnalistlərlə görüş keçirilib.**

Bu barədə Mətbuat Şurası məlumat yayıb.

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canından keçmiş övladlarımızın, şəhid media təmsilçilərinin xatirələri bir dəqiqəlik sükutla anılıb.

Tədbiri giriş sözü ilə açan MŞ sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid iştirakçıları Müstəqilliyimizin Bərpası Günü münasibətilə təbrik edib.

O, Mətbuat Şurasının indiyədək cəbhədə döyüşmüş media təmsilçiləri ilə əlaqələrindən söz açaraq bildirib ki, Əflatun Amaşov MŞ-yə rəhbərlik etdiyi dövrdə bu kateqoriyadan olan şəxslərə həssas münasibət göstərib. Onların cəbhə xatirələrini yazı şəklinə salmalarını tövsiyə edib. R.Məcid məsələyə daha sistemli yanaşılacağını, planlaşdırılmış işin - cəbhə jurnalistlərinin xatirələrindən ibarət kitabın nəşrinin həyata keçiriləcəyini vurğulayıb.

Toplantıya gəlincə, MŞ sədri tədbirin fikir mübadiləsi, təkliflərin verilməsi, problemlərin dilə gətirilməsi baxımından açıqlığını bildirib. R.Məcid çıxışında, həmçinin, rəhbərlik etdiyi qurumun müharibə vaxtı qələmini süngüyə çevirmiş jurnalistlərə bundan sonra da həssas münasibət göstərəcəyini dilə gətirib. Mətbuat Şurasının Nəzarət-Təftiş Komissiyasının sədri, müharibə veteranı Rey Kərimoğlu bildirib ki, jurnalistlər hər zaman cəmiyyətin öndə gedən təbəqələrindən olublar. Vətən Müharibəsi dönəmində də bunu sübuta yetirdilər. Həm informasiya cəbhəsində döyüşdülər, həm cəbhə bölgəsinə yollanaraq reportajlar hazırladılar, həm də əllərində silah torpaqlarımızın azadlığı naminə mübarizə apardılar.

MŞ İdarə Heyətinin üzvü, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli Şuranın Vətən Müharibəsi günlərində cəbhədə döyüşmüş jurnalistlərə dəstək məqsədilə həyata keçirdiyi



tədbirlərdən söz açıb. Məlumat verib ki, həmin müddətdə MŞ İdarə Heyətinin üzvləri onların ailələrinə baş çəkdilər, müəyyən miqdarda maddi yardım göstərdilər, bu şəxslər sonra da diqqətdə saxlanıldılar. M.Ələsgərli onu da bildirib ki, müharibəyə hərbçi kimi yollanmış media təmsilçiləri son dərəcə nümunəvi mövqe ortaya qoydular, jurnalist marağının onlara güc gəlməsinə imkan verməyərək soyuq davrandılar, sırf döyüşçüyə çevrildilər. İH üzvü çıxışında, həmçinin, vaxtilə torpaqlarımızn işğalı nəticəsində məcburi köçkün durumuna düşmüş kütləvi informasiya vasitəsi redaksiyalarının təsnifatının aparıldığını, 22 media orqanından 128 əməkdaşın müəyyənləşdirildiyini diqqətə çatdırıb.

"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli Vətən Müharibəsində cəbhədə döyüşmüş, səfərbərliyə cəlb olunmuş jurnalistlərlə yanaşı, qaynar nöqtələrdə peşə borcunu yerinə yetirmiş media təmsilçilərinin də əməyinin yüksək qiymətləndirilməli olduğunu vurğulayıb. O, rəhbərlik etdiyi təşkilatın mövcud istiqamətdə gördüyü işlərdən söz açıb, birgə fəaliyyətin, qarşılıqlı əməkdaşlığın daha faydalı nəticələr doğuracağına inamını ifadə edib.

MŞ İdarə Heyətinin üzvü, "Modern" Media Qrupun rəhbəri Elşad Eyvazlı çıxışında cəbhədə döyüşmüş jurnalistlərin xatirələrinin yer alacağı kitabın hazırlanması üzərində dayanıb. Bu istiqamətdə görüləcək işlərdən söz açan İH üzvü ideyanın daha da genişləndiriləcəyini, video müsahibələrin də təşkili imkanlarının dəyərləndiriləcəyini vurğulayıb.

Vətən Müharibəsi iştirakçıları olan jurnalistlərdən "Təbib" qəzetinin baş redaktoru Məğrur Əliyev, İTV-nin əməkdaşı Şöhrət Eyvazov, "Ədalət" qəzetinin əməkdaşı Emin Piri, Futzal Federasiyasının mətbuat katibi Mahal Məmmədov, "Bakı xəbər" qəzetinin baş redaktoru Nahid Salayev, İTV telekanalının əməkdaşı Xanlar Mehdiyev, ATV telekanalının əməkdaşı Rza Bəbirov, "Cumhuriyyet.az" saytının baş redaktoru Nəsimi Şərəfxanlı və başqaları çıxışlarında Mətbuat Şurasının cəbhədə döyüşmüş jurnalistləri bundan sonra da diqqətdə saxlayacağına inandıqlarını bildiriblər.

Onlar Vətən Müharibəsi iştirakçıları olmuş media təmsilçilərinin vahid reyestrinin hazırlanmasını, Şuranın saytında onlarla bağlı ayrıca guşənin yaradılmasını, həmçinin, qurumun tərkibində müharibə iştirakçısı olmuş jurnalistlərin məclisinin formalaşdırılmasını təklif ediblər. MŞ sədri R.Məcid səslənmiş təkliflərin qeydə alındığını və Şuranın İdarə Heyətində müzakirəyə çıxarılacağını bildirib.

İclasda müharibə iştirakçısı olmuş media təmsilçilərinin sosial vəziyyətləri istiqamətində də geniş fikir mübadiləsi aparılıb.

Xüsusən onların mənzil-məişət şəraiti müzakirəyə çıxarılıb. Bildirilib ki, cəbhədə döyüşmüş jurnalistlər müharibə veteranı kimi müəyyən imtiyazlara malikdirlər. Bu imtiyazlar sırasında mənzil məsələsi üzərində xüsusu dayanılıb. Mövcud kontekstdə jurnalistlərin mənzillə təminatı məsələsinə toxunulub. Tədbirdə həmçinin cəbhədə döyüşmüş media təmsilçilərinin özlərinin təşkilatlanmalarının, biri-biriləri ilə müntəzəm əlaqə saxlamalarının vacibliyindən söz açılaraq onların Mətbuat Şurası ilə əlaqələrinin tənzimlənməsi üçün koordinator müəyyənləşdirmələri məqsədəuyğun sayılıb. Bu baxımdan "Təbib" qəzetinin baş redaktoru Məğrur Əliyevin namizədliyi üzərində dayanılıb və təsdiqlənib.

**Görüşdə maraq doğuran digər məsələlərə də toxunulub, belə toplantıların müntəzəm şəkildə təşkili qərara alınıb.**

# AXCP sədri niyə Makronun müdafiəsinə qalxıb?



*Elxan Şükürlü*

**Erməni işğalçılarına qarşı 2020-ci ilin 27 sentyabrında başlayıb 10 noyabrında qələbəylə bitirdiyimiz Vətən savaşı bizə təkcə itirdiyimiz və 30 il boyunca həsrət qaldığımız torpaqlarımızı geri qaytarmadı, həm də gələcəyimizi düzgün qura bilməmizə fürsət açan boşluqları, qüsur və çatışmazlıqları aşkarlayıb gözlərimiz önünə sərdi.**

Ağıllı dövlətlər və hakimiyyətlər təbii ekstremal şəraitin - müharibənin aşkarladığı bu boşluqları, qüsur və çatışmazlıqları dərhal qeydə alar, onu siyasi uçurumlardan qoruyacaq "yol xəritəsi"ndə düzəlişlər aparar, beləcə, səhvlərini, yanlışlıqlarını aradan qaldırmaqla özünütəkmilləşdirmənin və güclü olmanın ən optimal yolunu tapıb özünü də, ölkəsini də qalıcı uğurlara götürər.

Mən əminəm ki, hərb meydanında məğlub etdiyimiz Ermənistanı diplomatik masa arxasında da tam yendikdən, ona sülh müqaviləsini imzalatdırdıqdan sonra Azərbaycan hakimiyyəti, qələbəmizin memarı Prezident İlham Əliyev də 44 gün ərzində aşkarlanan və hər birimizin gördüyü qüsurlarımızın qeydə alındığı yeni "yol xəritəsi"ylə addımlayacaq, sürətli inkişafımıza buxov olan 30 illik bir müharibənin vurduğu yaraların tam sağalması üçün ölkənin daxilində inqilabi addımlar ataraq, xalqımızı həqiqi rifaha qovuşduracaq!

Bax, yalnız onda biz hamılıqla həqiqi müstəqilliyin dadını biləcək, tamam fərqli - azad, zəngin, qalib və qüdrətli, regionun lokomotivinə çevriləcək bir Azərbaycanın vətəndaşları olmaqdan, gerçəkdən də, qürur duyacaq, öyünəcəyik!

Şübhəsiz ki, bu gedişatı biz gördüyümüz kimi, Azərbaycanın uğurunu istəməyən xarici düşmənləri və illərdir Əliyevin yerinə göz dikmiş, həsrətlə o posta əyləşəcəyi günü gözləyən içdəki siyasi rəqibləri də yaxşı görür, anlayırlar.

Başa düşürlər ki, Qarabağ probleminin mövcud olduğu illərdə Əliyevi yıxmaq mümkün olmadısa, bu problemin həllindən sonra yıxmaq heç mümkün olmayacaq və Azərbaycan xalqı da müstəqillik dönəmində 3 mərhum prezidentinin - Ayaz Mütəllibov, Əbülfəz Elçibəy və Heydər Əliyevin çox istəyib də həll edə bilmədikləri problemi həll etməyi bacarmış, tarixi düşməninin kürəyini yerə vurmuş qalib və məğrur bir komandanı - İlham Əliyevi ömürlük özünün lideri seçəcək! Elə bu səbəbdən, son iki ildə Azərbaycanın düşmənləri Ermənistanın arxasında durub, onu sülh müqaviləsinin imzalanmasından çəkindirdikləri kimi, paralel şəkildə də Əliyevin uğurunu istəməyənlər də ölkənin içərisindən bu prosesə fəal şəkildə dəstək verməyə can atır, sülhün baş tutmamasını arzulayır, ictimai rəydə qəsdən Azərbaycanın qalib gəlmədiyi təəssüratını yaradır, qələbəmizin miqyasını kiçiltməyə, prezident Əliyevin əhali arasında xeyli artan populyarlığını və nüfuzunu dezinformasiyalarla, söyüş və təhqirlərlə aşağı salmağa çalışır, hətta bu məqsədlə açıq-aşkar erməni təbliğat maşınına dəstək verməkdən belə, çəkinmirlər.

Apardığımız müşahidələr onu deməyə əsas verir ki, son iki il ərzində Azərbaycan dövlətinin düşmənlə müharibə siyasətinin və təbliğat strategiyasının əleyhinə ölkənin içrisindən yalnız bir siyasi qüvvə - AXCP və onun ehtiyat limanı kimi fəaliyyət göstərən Milli Şura rəhbərliyi çıxış edir, bütün istiqamətlər üzrə pozucu, destruktiv mövqe tutur!

İlham Əliyevə rüsvayçı məğlubiyyətin və 20 illik davamlı uğursuzluğun yaratdığı kin, nifrət, paxıllıq və həsəd hissi vaxtilə Azərbaycan gəncliyinin siyasət meydanında öndə olan ən parlaq simalarından birinin - AXCP sədri Əli Kərimlinin o qonur gözlərini elə tutub, qəlbini elə möhürləyib ki, indi - 57 yaşında müxalif partiya liderliyindən ölkəsinin düşmənlərinin təbliğat maşınının adi sıravi əsgəri, kiberəməliyyatlarının trolu səviyyəsinədək düşdüyünün heç fərqində belə, deyil!

Bəli, qisas güclü hissdir, insanı hər yola əl atmağa vadar edər. Ancaq bu, heç bir halda siyasi iddiası olan kəsi uğuru, karyerası naminə öz dövlətinin, millətinin məğlubiyyətini istəyəcək qədər alçaltmamalı, düşmənlə əməkdaşlıq kimi qiymətləndirilə biləcək hərəkətlərə sövq etməməlidir!

Axı bir insanın daxili gücü və gerçək ləyaqəti həm də öz düşməni və ya rəqibiylə davranışında üzə çıxar! Ləyaqətli rəqib özünü hər yola qoymaz, hər halında ləyaqətlə davranar!

Bəs, bu nə edir? Müharibə başlayanda 50-yə yaxın partiya rəhbəri ilk gündən bəyanat verib İlham Əliyevlə eyni səngərdə durduqlarını elan etdikləri, xarici güclərə Qarabağ məsələsində Azərbaycanın içərisində hamının yekdil siyasi mövqe tutduğunu göstərmək məqsədiylə eyni sənədə imza atdıqları bir vaxtda AXCP sədri yaxasını kənara çəkdi, marığa yatıb gözlədi ki, görək, əməliyyatlar nə ilə bitir. Yalnız Şuşa alındıqdan 1 gün sonra - 9 noyabrda ictimai qınaq və qəzəbdən qorxaraq, udquna-udquna bir cümləylə Ali Baş komandanı təbrik etsə də, ertəsi gün dərhal da 10 noyabr atəşkəs razılaşmasını əsas götürüb, yenidən hakimiyyəti sərt ittihamlara başladı, psixoloji baxımdan sınmış və çökmüş düşmənə nəfəs verənlərin sırasında yer aldı...

Necə də VII əsrdə Şam valisi olmuş Müaviyə ibn Əbu Sufyanın davranışlarını xatırladır, deyilmi? Vaxtilə Müaviyə də xəlifə Əliyə beyət etməmək və ona qarşı çıxışını əsaslandırmaq üçün mahiyyətini və nəticəsini öncədən bildiyi bir məsələni - Osmanın qatillərinin tapılıb ona verilməsini bəhanə kimi irəli sürmüş, qiyama qalxmışdı.

Eynilə AXCP və Milli Şura rəhbərliyi də 10 noyabr 2020-ci ildən üzübəri Müaviyə kimi davranaraq, rus sülhməramlılarının Qarabağa yerləşməsi faktını İlham Əliyevə qarşı çıxışlarını əsaslandıracaq yeni bəhanəyə çeviriblər və düz 2 ildir də bu mövzuda cəmiyyəti çaşdırmağa, gərginləşdirib ayaqlandırmağa çalışırlar...

Baxın, AXCP sədri indi də ağlını verib dünənədək yorulmadan Əliyevlərin məddahlığını aparmış, hakimiyyət dəhlizlərindən rüsvayçılıqla qovulduqdan sonra müxalif düşərgədə lövbər salmış iki qadına - dövrümüzün Kəsrifləri sayılan Sevinc Osmanqızına və Gültəkin Hacıbəyliyə, üçlükdə erməni təbliğat maşınının tezisləri əsasında, 1 aydır sübut etməyə girişiblər ki, Azərbaycan Ordusu Rusiyanın təhrikiylə sentyabrın 13-də Ermənistan ərazisinə təcavüz edib, onların torpaqlarına girib, işğalçıdır və biz boşuna şəhidlər vermişik.

Halbuki bütün Azərbaycan bilir ki, erməni təxribatlarına cavab olaraq keçirilən bu əməliyyatlar zamanı Azərbaycan Ordusu Ermənistanla sərhəd boyu öz torpaqlarımızda 70-dən çox strateji yüksəkliyi nəzarətə götürüb və bu da 44 günlük savaşdan sonra düşmənə vurulan ikinci ən ağır hərbi zərbə sayılır: tutulan döyüş mövqeləri həm ərazilərimizin təhlükəsizliyinin təmini, həm gələcək hərbi əməliyyatlar, həm də üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən və sülh sazişi imzalamaqdan yayınan Paşinyan hakimiyyətinə gərəkli qulaqburma vermək üçün əlimizi xeyli gücləndirib!

Yaxşı, adamdan soruşarlar: düşmənə endirilən bu zərbədən, Paşinyan hakimiyyətinin laxlamasından və sülhə məcbur edilməsindən siz niyə bu qədər narahatsınız, siz niyə sevinmək yerinə, təşvişə düşmüsünüz?!

Məgər, siz deyildinizmi, 2 il əvvəl "Azərbaycan hərbi əməliyyatları niyə dayandırdı?" bağırtısıyla efirlərdə hay-həşir salan, Ordumuzun irəliləməsini tələb edən?! Onda "beynəlxalq təzyiq" yadınıza düşmürdümü?!

Lap tutaq ki, danışıqlarda əlimizi gücləndirmək, düşməni öhdəliklərini yerinə yetirməyə vadar etmək üçün biz hücuma keçmişik, əməliyyatı biz başladıb, düşmən ərazisinə keçirmişik!

Nəyi pisdir ki?! Müharibədir, əcəb də etmişik!

Məgər, bu, əsas verir ki, siz gedib erməni lobbisinin təbliğat maşınıyla birləşib, ölkəmizin, Ordumuzun əleyhinə kampaniya aparasınız, onların beynəlxalq təşkilatlara təqdim etdiyi tezisləri ölkənin içərisindən təsdiqləyəsiniz, təkrarlayıb təzyiqlər üçün zəmin hazırlaysanız?!

Hara yoxa çıxdı sizin hər gün pafosla danışdığınız vətən, millət, dövlət təəssübünüz, sevginiz, milli qeyrətiniz?!

Bəs hal-hazırda açıq-aşkar ermənipərəst mövqeyi ilə tanınan və bir ovuc erməni terrorçu-separatçısına Qarabağda status tələb edərək sülhün əldə edilməsinə mane olan Fransa prezidenti Makronu sudan quru çıxarmaq, Azərbaycan ictimaiyyətinin qəzəbindən yayındırıb qorumaq təşəbbüs və cəhdlərinizi nə ilə izah edəcəksiniz?!

Lap Makronun müsahibəsindəki hansısa iki cümləsi düzgün tərcümə edilməyib. Onun Ermənistanı açıq-aşkar himayə edən mövqeyi və Azərbaycandan tələbləridəmi təhrif olunub, saxtalaşdırılıb, ay Əli Kərimli, Gültəkin Hacıbəyli, Tofiq Yaqublu, Sevinc Osmanqızı...?!

Siz axı kimin yanındasınız: Ermənistanın, yoxsa Azərbaycanın?!

Sevimli və çox inandığınız Makronunuzun Rusiyanın Türkiyə və Azərbaycana kömək etdiyi, Fransanınsa Ermənistanın əlini buraxmayacağı haqda fikirləri ki təhrif olunmayıb!

Yaxşı, dünənədək torpaqlarımızın işğal edilməsində rolu olan Rusiya Türkiyənin də təsiriylə bu gün Azərbaycanın haqq işinə dəstək veribsə, Ermənistana qarşı bu gün Azərbaycanın yanında yer alıbsa, bu, axı sizi niyə bu qədər narahat edir?!

Deməli, sizin üçün Qərb təbliğatına qoşularaq Rusiyanın işğalçı imicinin yaradılması öz torpaqlarınızın azad edilməsindən daha önəmlidir, eləmi?!

Ay sizi, intellektual satqınlar! Çoxbilmiş quş dimdiyindən tələyə düşdüyü kimi, siz də o iti dilinizdən özünüzü tələyə salmısınız artıq...

Əliyevə kininiz və nifrətiniz sizi düşmənin xəyanət qapısı ağzında yatıb gecələməyə, onun təbliğat muzdurları kimi çıxış etməyə qədər aparıb çıxarıbsa, vay halınıza!

**İnanmıram ki, bu dəfə Sem dayınız sizi Əliyevin dəmir yumruqları altında əzilməkdən xilas edə bilsin! Sizin döneminiz bitib, qapınızsa qapanıb artıq!**

*AQİL ABBAS*

# ŞÜMÜRÜN TƏRƏFİNİ SAXLAYANLAR

***70 il Allahsız, dinsiz, imansız Sovet imperiyası yaşadı. 70 ildən sonra bir qoz, məhv oldu getdi.***

***İndi 43 ildi Allahsız, dinsiz, imansız İran fars imperiyası yaşayırdı. Əlbəttə, İran xalqına Allahsız, dinsiz, imansız demək olmaz. Xalqın Allahı da var, dini də, imanı da. Amma İranda hakimiyyəti ələ keçirənlərin nə Allahı var, nə dini, nə imanı.***

***Əgər Allahları, dinləri, imanları olsaydı özlərinin allahları, dini və imanı bir olan Azərbaycanı dəstəkləyərdilər, Allahsız, dinsiz, imansız erməniləri yox.***

***Deyəsən, İran fars rejiminin Allahsızlıqları da Allahı təngə gətirdi. 43 ildən sonra İran çat verib.***



***Düzdür, nə ABŞ, nə də Avropa dövlətləri İranın parçalanmasını istəməz. Çünki İran parçalansa daha bir 35-40 milyonluq hər cür sərvətə malik Türk dövləti yaranar ki, bu da nə ABŞ-a, nə də Avropa dövlətlərinə sərf edir. Sadəcə olaraq, İranı cəzalandırmaq istəyirlər.***

***Yəni mən İran fars rejiminin Sovet rus rejimi kimi 70 il yaşayacağına inanmıram. Yəqin sizlər də inanmırsınız. Sovet rejiminin nə qədər şərəfsizlikləri olsa da müəyyən müsbət cəhətləri də vardı ki, o, İranda yoxdur.***

***Məhəmməd peyğəmbər buyurur ki, ya Əli, Cənnət anaların ayaqları altındadı. İran rejimi də elə bilir ki, qadınları ayaq altına atmaqla Cənnət yaradacaqlar, amma cəhənnəm yaradıblar.***

***Səməd Vurğun yazır ki, qullar dünyasının üsyanı yaman olur. İndi İranda bu üsyanı qadınlar başladıb, qadınların üsyanı qulların üsyanından da yaman olur.***

***ABŞ-ın və Avropa dövlətlərinin köməyi ilə İran üsyanı yatırdacaq, müvəqqəti. Amma sonu İran üçün faciəyə çevriləcək.***

***Özlərini şiə adlandıran İran şiə Azərbaycanı verdilər Ermənistanın ayağına, yəni Yezidin ayağına. Sən necə şiəsən ki, şiələri Yezidin ayağına verdin və verirsən?***

***Şəhadəti İmam Hüseyndən öyrənib Allah yolunda, Vətən yolunda, Din yolunda şəhadətə ucalanları verirsən Yezidin, Şümürün ayağına.***

***Öz işindi istəyirsən Qafanda konsulluq aç, istəyirsən Gorusda, istəyirsən lap Mehridə, uduzmusan. Ermənilər kimi! Batırsan, tutmağa saman çöpun də yoxdur.***

***Sabir necə deyir:***

***Ağladıqca kişi qeyrətsiz olur,***
***Necə ki ağladı İran oldu!***

## *Elməddin Behbud: Ermənilərlə sülh şəraitində yaşamaq üçün güclü olmalıyıq*



**Bu gün tvitterdə orta əsr Azərbaycan dövlətlərinin (Səfəvi, Əfşar, Qacar) əhatə etdiyi ərazilərin bir qisminin əksini tapdığı və kvazi-dövlət Ermənistan istisna olmaqla hazırda da üzərində yaşayan əhalinin əksəriyyətinin azərbaycanlı olduğu hamıya bəlli bir coğrafiyaya aid tarixi xəritə paylaşdığıma görə ermənilərin necə həyasızlıqlar etdiyini, hansı iftiraları atdığını görənlər, xüsusi ilə gənc nəsil bu toplumun genetik kodlarının nə qədər anti-türk və anti-Azərbaycan informasiyalarla yükləndiyinə, onların çox aqressiv, sülhdən uzaq, reallıqdan kənar və xəstə təxəyyüldən qaynaqlanan düşüncə ilə yaşadığına bir daha şahid oldu. Musa peyğəmbərə öz ümmətinin düşüncəsində dəyişiklik etmək üçün 40 il lazım oldu, biz isə bunları islah etmək üçün görünür, azı 40 min əli silahlılarını "Erablur"a yola salmaq zərurəti ilə üz-üzəyik.**

Ermənilərlə sülh şəraitində yaşamaq üçün yalnız güclü olmalı və dəmir yumruğumuzu başlarının üzərində saxlamalıyıq. Əks halda acı tarix yenidən təkrarlanacaq!

***P.S.*** ***Bu gün tvitterdə dəstək verən bütün dostlara təşəkkür edirəm!***

## *ABŞ geri addım ata bilərmi?*

**"Axios" yazır ki, Respublikaçılar bildirir ki, ABŞ-ın nümayəndələr Palatasına seçkilərdə qalib gələrlərsə, Ukraynanın maliyyələşdirilməsini dayandıra bilərlər.**

Palatanın Şimali Dakotadan olan üzvü Kelli Armstronq hesab edir ki, amerikan seçicilərinin fikirlərini dəyişməsi ilə əlaqədar Vaşinqton Kiyevi dəstəkləməkdən çəkilə bilər. Digər respublikaçı Kevin Makkarti Punchbowl News-ə müsahibəsində bildirib ki, "çətinliklərlə üzləşən amerikanlar Ukraynaya kart-blanş verilməsilə razılaşmaya bilər". Nümayəndələr Palatasının Texasdan olan üzvü Maykl Makkol, Ukraynanın maliyyələşdirilməsi məsələsi ilə bağlı bildirib ki, "respublikaçılar bu məsələnin hesabatına nəzarət edilməlidir". Mətbu orqan xarırlama verir ki, hələ may ayında Nümayəndələr Palatasının 57 pespublikaçı üzvü, Ukraynaya ediləcək 40 dollarlıq maliyyə paketinin əleyhinə səs vermişdi. Qeyd olunur ki, Pespublikaçılar Partiyasının növbəti seçkilərdə qalib gələcəyi təqdirdə, əleyhdarların sayı arta bilər. Amerikapərəst politoloq Malek Dudakov da hesab edir ki, bu yaxınlarda ABŞ konqressinə keçiriləcək seçkilərdə demokratlar seçici sələsinin əksəriyyətini itirəcək və bu da Ukraynaya göstərilən köməyin kifayət qədər azaldılmasına gətirib çıxaracaq. Politoloqon fikirincə, Bayden administrasiyasının başı Ukraynaya qarışdığı üçün, öz əhalisinə diqqət ayırmağa vaxtı qalmır.

## *Berbok: "Avropa Rusiya təhlükəsindən qorunmalıdır"*

**Almaniyanın xarici işlər naziri Annalena Berbok bildirib ki, Avropa Rusiya ilə münasibət formulunu dəyişməlidir. RND -nin yaydığı bu məlumatda bildirilir ki, Berbok Moskvanın Kiyevlə danışıqların bərpa edilməsi ilə bağlı bəyənatını şəhr edəkən bildirib ki, "təklif olunan sülh, təkcə Ukraynanın şərqində yaşayan insanlar üçün olmamalıdır". "Ona görə də söhbət Rusiyanın təhlükəsizliyindən deyil, Rusiyadan gələn təhlükədən qorunmaqdan gedir."**

Bir neçə ay bundan əvvəl, Almaniyanın xarici işlər nazirliyinin rəhbəri Avropa İttifaqlnın Rusiya ilə münasibətlərinin qurulması istiqaməti ilə bağlı inkişaf planını təqdim etmişdi. Diplomatın təklif etdiyi layihə dörd maddədən ibarətdir. Bunlar, "öznü müdafiənin gücləndirilməsi, Rusiyanın əleyhinə olan dövlətlərin dəstəklənməsi, Ukraynanı müdafiə etmək və beynəlxalq hüququn qorunması sahəsində qlobal tərəfdaşlarla iş planlarından" ibarətdir. Barbekin sözlərinə görə, planda Avropanın Kiyevə göstərdiyi dəstək nəzərə alınmaqla, gələcəkdə bu dəstəyin artırılması da nəzərdə tutulub. Qeyd olunur ki, ölkələr arasında strateji kommunikasiya əlaqələri, Ukraynaya köməklik və Moskvaya sanksiyalar təyziqinin davam etdirilməsi, Avropanın gələcək perspektivlərdə təhlükəsizliyini artırmalıdıdır. Rusiya prezidenti Vladimir Putin Qərb dövlətlərini tamahkarlıqda günahlandıraraq, onları məhdudlaşdırılmayan hakimiyyətlərini qorumaqda ittiham edib. Rusiya prezidenti Qərbin bu hərəkətlərini "kollektiv şəkildə Rusiyaya qarşı, alçaqcasına aparılan hibrid müharibə" kimi qymətləndirib. Rusiya lideri, Qərbin Avropanın təhlükəsizliyi ilə bağlı verdiyi vədləri ikiüllülük adlandırıb. Putin qeyd edib ki, Qərb yeni alyanslar yaratmaqla Avropanın təhlükəsizliyini dağıdır və təhlükə altına salır.

**Rüstəm Hacıyev**

*AQİL ABBAS*

# YENƏ İTLİ-PİŞİKLİ TÖKÜLÜB GƏLİBLƏR ERMƏNİSTANA

*30 il Qarabağda şəhərlərimiz, kəndlərimiz, abidələrimiz, məscidlərimiz, məbədlərimiz darmadağın edildi, yerlə-yeksan oldu. Bir milyon adam Ermənistan Silahlı Qüvvələrinin işğalı nəticəsində yurd-yuvalarından oldular, qaçqın düşdülər, Xocalıda, Ağdabanda, Qaradağlıda, Kuropatkində və sair və ilaxır soyqırıma məruz qaldılar. Avropada bir it oğlu, bir it küçüyü də səsini çıxarmadı. Əksinə, işğalçılara dayaq oldular.*

*İndi itli-pişikli bir sürü Avropadan müşahidəçi adı ilə tökülüb gəliblər Ermənistana və Azərbaycanla sərhəd bölgələrini gəzirlər. Avropadan gələnlər də elə ah-ufla danışırlar ki, öəlkə heç dədələri öləndə belə qəmgin görünməyib.*

*Ermənilər onlara nə göstərir?Cermux şəhərində pəncərələri, şüşələri qırılmış evləri, bölgədə son 30 ildə yapdıqları və dünyaya tarixi abidə kimi sırıdıqları xaçları. O xaçları ki, bəlkə də çoxlarını özləri qırıb və sair və ilaxır. İndi bu gələnlər gedib Avropada bir ağlaşma quracaqlar ki.*

*İstəyirəm yazam ki, it itin ayağını basdamadığı kimi, avropalılar da heç vaxt Ermənistanın ayağını tapdamaz. Amma qorxuram yazmağa, qorxuram ki, saytımızı bloklayarlar, ona görə də yazmıram. Qoy cəhənnəm olsunlar.*

*Məsələ odur ki, bu gələnlərin içində keçmiş hərbçilər də var. İndi onlar vaxtilə Ağdamda, Füzulidə, Ağdərədə tikdikləri istehkamı yəqin indi sərhəd bölgəsində tikəcəklər. Amma xeyiri yoxdu.*

*Ermənistan sülh danışıqlarından qaçıb ona zəhər daşıyan kərtənkələlərə güvənib yenidən müharibəyə başlasa, bu dəfə öz dövlətçiliyini itirə bilər. Özü də olmayan dövlətçiliyini. Bir dövlət ki öz sərhədlərini özü qoruya bilmir, o dövlət deyil, Rusiyanın dediyi kimi, forpostdu, Makronun da dediyi kimi, ayıbı çöldə qalmış bayıssıdı.*

*Bu yerdə yadıma Əziz Nesinin "Apona sərgisi" adlı məşhur hekayəsi düşdü. Bir qəzetdə səhvən Avropadan gələn nümayəndə heyətinin şəklinin altında belə yazılıbmış: "Sərgiyə göndərdiyimiz cins inəklər".*

*Ona görə də mən Avropadan gələnlərin şəklini çap eləmədim ki, birdən çaşıb yazaram ki: "Avropadan Ermənistana gəlmiş cins buğalar".*

# STADİONU NECƏ DOLDURMAQ OLAR?

*Azərbaycan çempionatında stadionlar boş qalır. Təbii ki, boş stadionda futbol oynamaq futbolçular üçün də maraqsızdı. Bu, boş zalda teatr göstərmək kimi bir şeydi. Azarkeş dəstəyi görməyəndə futbolçu da həvəsdən düşür.*

*Siftə Tovuzda və Şamaxıda az-çox azarkeş gəlirdisə, indi onların da sayı azalıb. Sumqayıt da onun kimi. Bunu həmin komandaların zəif oyun nümayiş etdirməsi ilə bağlamaq düzgün deyil. Ona qalsa "Qarabağ"la "Neftçi"nin, "Sabah"n, ya "Sabah"la "Neftçi"nin, "Zirə"nin oyunlarında da elə güclü bir azarkeş dəstəyi görmürük, stadionun yarıdan çoxu boş qalır.*



*Amma stadionu doldurmaq olar, bunun çox asan bir yolu var. Bizim millət ümidini mədəni adı lotereya olan, mədəniyyətsiz adı qumar olan oyunlara çox bağlıyır. Adamlar hətta ev-eşiyini satıb Topaza, Misliyə qoyurlar. Son qəpiklərini küçədə növbələrə durub "Poz-qazan"a verib, sonra da suyu süzülə-süzülə əliboş gedirlər uşaqlarının yanına. Düzdür, son zamanlar çox yaxşı reklam təşkil ediblər, ay biri əlli min uddu, biri iyirmi beş min, biri on min, biri ferma açdı, biri ev tikdi və sair və ilaxır.*

*Yaxşı olar ki, belə oyunları stadionda keçirələr. Bunu Misli də keçirə bilər, Topaz da. Və yaxud hansısa bir təşkilat da, elə AFFA özü də.*

*Necə? SSRİ vaxtı "Neftçi"nin oyunlarında bəzən belə lotereya oynanılırdı. Hər kəsin aldığı bilet özü lotereya idi. Stadionda üç baraban qurulurdu, birinin içinə sektor nömrələri, birinin içinə sıra nömrələri , birinin içinə içə oturacaq nömrələri qeyd edilirdi. Oyundan sonra komissiya bu barabanların hərəsindən nömrələrin birini çıxarırdı. Məsələn, 8-ci sektor, 10-cu sıra, 25-ci yer. Həmin biletin sahibi qalib elan olunurdu. Adətən maşın qoyurdular.*

*Əslində onda buna ehtiyac yox idi. "Neftçi" Azərbaycanın yeganə komandası idi və stadiona 35-40 min adam gəlirdi. Buna indi ehtiyac var. İnandırıram sizi bilet üstündə qırğın düşəcək, "Qarabağ"la "Nant"ın oyunundan da betər olacaq. Bundan başqa elə adamlar olacaq ki, 15-20, hətta 30, 50 bilet alacaq. Özü də heç bahalı maşın da qoymaq lazım deyil, elə ucuz maşın qoymaq kifayətdir.*

*Yuxarıda dedim axı, millətimiz belə şeylərə meyllidi.*

***P.S.** Amma onu da qeyd edim ki, mən bütün lotereyaların əleyhinəyəm, amma stadionu doldurmaq üçün bunun başqa çarəsi yoxdu.*

## *ABŞ İranı cəzalandıracaq: Ukraynanı dağıdan "Şahed"lər...*

**ABŞ Ukraynadakı müharibədə Rusiyaya yardım etdiyinə görə İrana qarşı əlavə addımlar atmaq niyyətindədir.**

Adalet.az BBS.com-a istinadən xəbər verir ki, ABŞ Rusiyaya kamikadze dronların tədarükü ilə əlaqədar İrana sanksiyalar tətbiq etməyə hazırdır.

Bu barədə ABŞ Dövlət Departamenti məlumat yayıb.

ABŞ Dövlət Departamenti bildirib ki, ABŞ Fransa və Böyük Britaniya ilə razılaşır ki, bu dronların tədarükü BMT Təhlükəsizlik Şurasının 2231 saylı qətnaməsini pozur. İranın nüvə sazişi ilə əlaqəli olan bu qətnamə İran tərəfindən müəyyən hərbi texnologiyaların ötürülməsini qadağan edir.

Məlumata görə, indi Vaşinqtonda PUA-ların Ukrayna vətəndaşlarına və mühüm mülki infrastruktura zərbələr endirmək üçün istifadə edildiyinə dair çoxlu sübutlar var.

Qeyd edək ki, son günlər İran PUA-ları ilə Ukrayna ərazisinə hücumlar daha da intensivləşib. Ukrayna Hərbi Hava Qüvvələri komandanlığının sözçüsü Yuri İqnat deyib ki, Rusiya ordusu raket əvəzinə Ukraynanı İranın kamikadze dronları ilə daha tez-tez vurmağa başlayıb:

"Amma biz onlarla mübarizə aparmaq üçün yeni taktikalar hazırlayırıq".

Məlumata görə, PUA-larla hücumlar xüsusilə Xarkov, Odessa və Nikolayev vilayətlərində qeydə alınıb: "Ukraynalı müdafiəçilər effektiv müdafiəni öyrənirlər.

Ukrayna Silahlı Qüvvələri atıcı silahlardan, pulemyotlardan, zenit qurğularından, həmçinin elektron döyüş texnikasından istifadə edir".

**Ukrayna İran istehsalı olan dronlarla mübarizə aparmaq üçün İsraildən kömək istəyib. Hələlik Ukrayna İsraildən müsbət cavab almadığı da məlumdur.**

**Əntiqə Rəşid**

*İRADƏ TUNCAY*

# SUS elində kimin günü xoş keçir...

**Kimin günü... Çətin sualdı. Nekrasova cavab tapmaq mümkün olmadı. Xalqın sevgisini qazana bildi, amma. Amma sevgi kimin qarnını doyura bilib ki?**

İstədim o poemanın qəhrəmanları kimi düşüm yollara və xoşbəxt insanları aşkar edim... Bizim eldə xoşbəxtlər kimlərdi?

Əvvəlcə kütləvi sahələri müəyyən edək də. İctimai varlıqdı insan... Belə deyirlər də. Yəni nə iləsə məşğul olan, ya da çörəyinin hardan gəldiyi bəlli olan. Kütləvi? Kimdir bu kütləvilər?

Fikirləşdim... Əsgərlər ola bilər - çoxluq onlardı. Hər halda bizdə belədi. Od-alov altında, təpik altında, bəlli bir yerdə evi-eşiyi olmayan... Hər gün ölümlə üz-üzə... Əsgərin günü hardan xoş keçəcək ki?.. Uzaqlaşaq əsgər adından. Baxaq görək kimi tapırıq... Əsgərlər çoxluqda indi torpağın altında yatır. Yəni yatmaq vaxtı deyilsə də göndəriblər də ora. Yatmağa yəni... Məzarlığa... Məzarlıq deyəndə mollalar yada düşür... Ruhani yoxa ha, onların ruha nə dəxli? Bizim məmləkətdə adı ruhani olanlar zaman-zaman müxtəlif yerləri zəbt edib oturublar və sürgünlərdən tutmuş edama qədər yol gediblər. İndi də kef elədikləri söylənilməz - ya qəbir üstündə müştəriyə görə dava edirlər, ya ağlaşan adamlara tamaşa edirlər, ya da can verən insanlara dini ritualları icra edirlər. Onlara xoşgünlü demək olarmı? Qəpik-quruş uğrunda savaşırlar...

Həəə. Deməli, mollalarımız da xoşbəxt deyil. Bəlkə müəllimlərə deyək???

Müəllim... Böyük səslənir - öyrətmək. Kimi öyrədir? Hansı dildə öyrədir? Dilimizin adı hələ də bəlli olmayıb, bu uğurda da mübarizə gedir. Neçə əsrdi dəyişə-dəyişə gedir. Neçə əsrdi nə qədər imperiyaların tapdağı altında qalıb məmləkət... Onun müəllimi kimə lazımdı??? Oxumayan şagirdləri oxutmağa çalışır nə müqalibində? Yenə qəpik-quruş... Xəstələnir əldən düşür. Bu zaman yeni kütlə gəlir göz önünə. Yeni gəlir deyəndə çoxdan gəlib eee. Sadəcə mən indi dedim. Həkim!!!

Həkim də mürəkkəb məsələdi. Ömrü boyu oxuyur, ömrü boyu öyrənir və nəticədə nə olur? Xəstələrlə üzbəüz qalır. Qarğış, söyüş alır. Xoşbəxtdirmi??? Hələ əvvəllər dədələri kisəylə pul verib oxutdururdular ki, həkim olsun övladları... Günləri xoş oldu??? Qətiyyən - hamı öz peşəsinin gətirdiyi ağrı-əzabı yaxşı bilir. Qazancı nə olur??? Qazanc xoş gün verirmi? Deyəcəksiniz ki, əlbəttə!!! O qədər zəngin və qaragün adam var ki... VAR!!!

Müşahidələrim deyir ki, xoşbəxt adamları ancaq reklamda görmək olur. Fərqi yoxdu nə reklamıdı - dərmanmı, bankmı, mebelmi... Ancaq reklamda imitasiya olunur... Və zatən yaşadığımız pandemiya da reklam üçün yaradılıb...

Reklama çox baxın. Reklamlar da başqa kütlənin əlində - KİV-lərin. KİV-lər kimin əlində? Məlum məsələ - zaman-zaman xozeyinlər fərqli olub. Əli Həsənov idi bir vaxtlar - xoş günlü idi? Tam dəqiq cavabım olmayacaq. Özündən də soruşa bilmərəm, həm də səmimi cavab alacağıma güman yoxdu. İndi də Hikmətli bəydi... Ona da əlim çatmır soruşam. Onun da səmimi olduğuna inanmıram. Moşu Göyəzənlinin gününə düşdüm vallah. Kimdi xoşgünlü? Danışa bilənlər? Susmayanlar? Ya Sus elində yaşamayanlar?

Gün ərzində iki tərəfin TV-nə baxıram. Yəni onların dilini bilirəm də. Türkiyədə seriallar gözəl çəkilir. Hərdən yaxşı filmlər də olur. Rusiyada da eynən...

Amma Rusiya müxtəlif güc strukturlarının sifarişi ilə də çox film çəkir. Məsələn, eyni gündə həm FSB, həm Müdafiə Nazirliyi, həm Daxili İşlər orqanları haqqında filmlər verilir. Hamısında da bir-birinə ilişirlər. Yəni rəqabət məsələsi olduğundan hər tərəf öz xeyrinə çalışır... Əslində bu, çoxdan var - xatırlayın. Mesto vstreçi izmenitğ nelğzə ... Və ya Semnadüatğ mqnoveniy vesnı... Bu iki təşkilatın davası idi. Şelokovun və Andropovun... Amma nəticədə tamaşaçı qazanmışdı, rejissor-aktyor heyəti qazanmışdı. Dövlət qazanmışdı...

Təbii ki, imperiyalarla müqayisə etmək fikrindən çox uzağam... Amma müharibə haqqında olar da... Yoxsa o da siyasi məsələdir??? Yəni mədəniyyət işlərinə baxan nazirlik nə fikirləşir???

Yenə gəldim susmaq məsələsinə. Hamının ağzını yummaq üçün təşkilatlar var da. Polis və ya lap böyüyü... Qara maskalılar. Deməli, onlardı xoşbəxt??? Polisin biri bizim evdə var. Desəm ki, xoşgünlüdü yalan olacaq. İçindən xəbərim olmamış deyil. Qara maskalılar necə? Onlar xoşgünlüdü? İnanım ki belədi? Deməli, maskaların sayı artsa millət yaxşı yaşayacaq? Pandemiya sayılmayacaq maska sayının artması? Həmin say da nəzarətə başlayacaq da.

Bu yaşa çatmışam - hələ görməmişəm yaxşı nəyisə düzgün ünvanına çatdırsınlar. Amma ola bilər də nəyəsə "pis" deyərsən - üstünə beşini də qoyub yollayacaqlar sahibinə. Ya da birbaşa özləri deyəcək... Kiməsə yaxşı deyib ona niyə dividend gətirsinlər ki? Hazır öz işini həll edər də ....

Çatdı yəqin nə deyirəm. Açıq deyə bilmirəm də. Xoş şey deyil axı... SUS!!!

İnsan cəmiyyəti heç vaxt (ən ağır repressiya dövründə də) bir fikirli, bir düşüncəli olmayıb. Hətta dəmirqapı SSRİ-də də anekdot, ya samizdat şəklində də öz fikrini bildirib... Siyasət lazımdı... Diplomatiya... Görən səfirlər xoşbəxtdi??? Onların da başı Qarabağ söhbətinə qarışıb...

Siyasət... Saç sancağı üstə qırğın düşüb bacıların arasına. Fərəh Saranın sancağını taxıb başına, Sara ağlayır. Mən də sakitləşdirirəm guya - Sara, sən gözəlsən, neynirsən sancağı? Bax Fərəh necə kifirdi, ona lazımdı sancaq. Fərəh bir-iki dəfə dedi - yox mən də qəşəngəm. Gördü mən fikir vermirəm. Çıxartdı sancağı başından taxdı kuklasına. Dedi - gör necə yaraşır kuklaya?

Bu, siyasətdi!!! Heyif, heyif belə balaca ölkədə doğuldu bu uşaqlar... Sus elində!!!

Baxıram xəbərlərdə... Məmləkətdə belədi - sata bilirsənsə alacaqsan. Fərqi yoxdu - 18 yaşlı əsgəri, dövlətin maraqlarını, öz ləyaqətini... Vəzifəni, iş yerini, qəzet səhifələrini. Prinsip budur - sat... al...

Bu dövlət, bu dövlətin bayrağı uğrunda döyüşən bir ailədə böyümüşük. Kimsəyə təzim etmədən - amma bu gün dövlətin parası ilə "Qapalı Səhmdar Cəmiyyət"i quranlar xalqa və dövlətin başında duranlara hücum edir!!! Dövləti qorumalıyıq , bu da bizim borcumuzdur!!! Bu borc ancaq bizimdi??? Neçə ildi qalıb boynumuzda? Genetik borclar!!! Oğurluq, quldurluq, riyakarlıq da genetik borcdu. Görürsüz necə uğurla yiyə dura bilirlər, susa bilirlər və xoşgünlü olurlar.

Amma ...

İnsan nə zombi deyil, nə də cəza dəstəsi deyil. Və əlini başına aparıb "sluşi" dayanmır. İnsanı tərbiyə eləməyin yolları var. Və bu da döyülməklə olmur. Bunu bəşəriyyət neçə min ildi düşünür.

Təbii, düşüncə varsa... O da kimə lazımdı??? Yazdıqlarımı oxuyan yoxdu zatən. Ancaq özlərinə lazım olanları oxuyurlar. Elə ediblər ki, online da oxuyan olmur. Zövq xətrinə yəni... Bir qrup xoşbəxt edib...

Kütləvi olan kim qaldı??? Pensiyaçılar... Yazıqlar... Gördüm necə qocalır insanlar bizim məmləkətdə... Gənclər... Çoxlu idarələr açıblar... İntihar da kütləvi olub gənclər arasında... Qaçqınlar... Futbol komandası deyil ki, onların hamısı...

Mühacirlər... Əlbəttə yox... Müxalifət.... Yox vallah... hamıya partiya yaratmayıblar...

**Ha istədim susam... alınmadı...Sus elində vətəndaşlıq ala bilmirəm... Ha Sus elində, ha Rus elində.**

# MƏN ELƏ BİLİRDİM ELŞAD PAŞASOY AĞILLI ADAMDI

**"Yeni Müsavat" qəzetinin, eləcə də Azərbaycan jurnalistikasının bugünki simalarından biri olan Elşad Paşasoyun sosial şəbəkədə bir açıqlamasını oxudum. Respublikanın adını daşıyan xəstəxanadakı bərbad vəziyyətdən danışıb giley edir.**



Dostum, ölkədə 10-15 nazirliyi bir təşkilatda birləşdiriblər. Heç kim bilmir ki, kim kimə qulluq edir və nəyə qulluq edir. Amma Səhiyyə Nazirliyini üç yerə parçalayıblar: Səhiyyə Nazirliyi, TƏBİB və İcbari Sığorta. Ona görə də bu gün Azərbaycan səhiyyəsi yazdığın həddə düşüb. Və səhiyyəmiz millətin səhiyyəsinin dərdini çəkmək əvəzinə, vurhavur xəstəxanaların və apteklərin sayını artırmaqla məşğuldur. Az-çox özəl xəstəxanalarda xidmət varsa, ona da nə sənin, nə mənim, nə də heç kimin pulu çatmaz. Dərmanlar da ceyran belində.

Ölmək də ucuz deyil, qəbiristanlıqda yer, başdaşı, sinə daşı, yas yola salmaq. Çalışırıq ölməyək, onu da dərman alverçiləri qoymur.

Vaxtilə millət vəkili Siyavuş Novruzov parlamentdə bir məsələ qaldırmışdı ki, niyə Azərbaycanda dərman hazırlayan zavod və fabriklər yoxdur? Halbuki bütün dünyadan tökülüb gəlib Naxçıvandan dərman bitkiləri yığıb aparırlar. İndi Qarabağ da azad olunub, görün o torpaqda nə qədər dərman bitkiləri bitir. Siyavuş Novruzovun sözünü eşidən olmadı. Dərman alverçiləri qoyarmı ki Azərbaycanda belə bir fabrik, ya zavod yaradılsın və onların alveri ölsün? Bir manatlıq dərmanı 10-15 manata satırlar. Bu rəqəm sözgəlişidi, yüz minə, iki yüz minə, hətta milyona satılan dərmanlar var. Gəl ay, kasıb. Bu qiyməti bu dərmanlara hansı ölçü vahidi ilə qoyurlar, heç onu adi Pensileni (Pensilenlə Azərbaycanda az qala xərçəngi də sağaldırlar), 20-30 qəpiklik Pensileni icad edən də bilməz.

Keçmişdə apteklərdə laboratoriyalar vardı, həkimin yazdığı dərman tapılmayanda həmin laboratoriyalar o dərmanları hazırlayardı. İndi deyəsən, belə laboratoriyalar yoxdu.

**Dostum, sən nə qədər desən də, biz nə qədər yazsaq da, Siyavuş Novruzov Parlamentdə boğazını cırsa da xeyri yoxdu, dərman alverçiləri öz işindədi, sənin, mənim, bizim kimi çax-çuxlar da baş ağrıdır.**

# İran bu gün...

**Son 20 ildə İranın Ali dini rəhbərliyinin vətəndaşların şəxsi həyatına müdaxiləsi əhalinin ciddi etirazlarına səbəb olduğu müşahidə olunmaqdaydı. Yaxın zamanlara qədər elementar sərbəst yaşamaq hüquqlarını tələb edən vətəndaşlarla dini rejimin rəhbərliyi dil tapmağa çalışırdı. Nisbətən reformator kimi tanınan eks prezident Həsən Ruhani, müəyyən güzəştlərə gedərək, sərt dini qadağaların yumşaldılmasına çalışırdı. Lakin ölkədə tam rəhbərliyə nəzarət edən İranın Ali dini rəhbəri Ayətulla Əli Xomenei prezidentin aparmaq istədiyi reformaların qarşısını alırdığı üçün həmişə buna nail ola bilmirdi.**

Lakin proqresiv prezidentin xalqın tərəfində olmasını göstərməsi, dini rəhbərliklərlə mübahisələr girməsi faktı insanlarda müəyyən inam yaradırdı. Bundan başqa Ruhani ölkədə yaşayan azsaylı xalqların hüquqlarının genişləndirilməsunə çalışırdı. Onun prezidentliyi dövründə ölkənin şimalında yaşayan 30 milyondan çox azərbaycanlı, ibtidai siniflərdə öz dillərində təhsil almaq hüququ qazanmışdı.

İran məktəblərində yalnız fars dilində təhsil almağa icazə verilir. İran hakimiyyəti uzun illərdi bu ölkədə yaşayan azərbaycanlıları, kürdləri, ərəbləri farslaşdırmaq siyasəti aparır və müəyyən mənada buna nail olduğu da göz qabağındadır.

Ruhaninin apardığı reformalar təbii ki, fundamental İran dövlətçiliyinin prinsiplərini pozmurdu. Mövcud əxlaq polisi insanların şəxsi həyatını tam nəzarətdə saxlayır, etnik xalqların siyasi institutlarda, biznes və mədəniyyət sahələrində fəaliyyəti məhdudlaşdırılır. Ali dini rəhbərin varisi sayılan İbrahim Rəisinin prezident seçilməsindən sonra, dini konservatizm, əvvəlki prezidentin təşəbbüslərini dayandırdı. Rəisi ölkədə şəriət rejimini daha da sərtləşdirərək cəmiyyətdə, əsasən də şəhərlərdə ciddi etirazların yaranmasına səbəb oldu.

Son aylarda baş verən hadisələr - 22 yaşlı Məhsi Əminənin əxlaq polisi tərəfindən qətlə yetirilməsi, ilk növbədə iranlı qadınlar başda olmaqla əhalini ayağa qaldırdı. Çoxsaylı etiraz mitinqlərində və küçə yürüşlərində qadınlar çadralarını çıxarmağa, nümayişkəranə şəkildə saçlarını kəsməklə xalqın bu rejimdə yaşamaq istəmədiklərinə etirazlarını nümayiş etdirir.

Ciddi etirazlardan təlaşa düşən hakimiyyət, xüsusilə də regionların ayağa qalxmasında qorxuya düşərək polisə nümayişçilərə atəş açmaq əmri verdi. Çoxsaylı insan təlafatları barədə xəbərlər kivlərin manşetlərində nümayiş etdirilir.

İranda baş verən etirazlar, ölkə xaricində alqışlarla qarşılanır və dəslənir. İran dini rejiminin əzəli və əbədi "düşməni" ABŞ artıq ənənəvi olaraq, iranın əxlaq polisinə, mətbuat nazirliyinə və təhlükəsizlik xidmətlərinə qarşı sanksiyalar tədbiq edib.

İran İslam Respublikasının tarixində milli azadlıq hərəkatı geniş vüsət almaqdadır. Bir sıra politoloqlar hesab edirlər ki, kütləvi etirazlar mövcud rejimi dəyişmək gücündədir, digərləri isə düşünürlər ki, İranda milli məsələ KİV-ləri təqdim etdiyi kimi kifayət qədər aktual deyil və ona görə də rejimin dəyişdirilməsindən söhbət gedə bilməz.

Rusiyalı şərqşünas Kiril Semyonov hesab edir ki, İranda yaşayan digər xalqlar kifayət qədər iran cəmiyyətinə inteqrasiya olunub. Separatizm ideyası əsasən kürdlər arasında daha çox müşayyət olunur. Kürd problemi təkcə İranla məhdudlaşmır. Əsasən İran, Türkiyə, İraq və Suriya ərazilərində yaşanan kürdlər illərdi bu ərazilərdə Kürdistan dövləti yaratmağa çalışırlar, lakin onların bütün cəhdləri boşa çıxır. İranın Hüzestan və Axvaz əyalətlərində yaşayan ərəblərdə də separatizm cücərtiləri görünür. Onlar da, iranlılar kimi şiyədirlər. Ərəblər irandan ayrılaraq İraqla birləşmək istəyirlər. "Lakin ərəb separatizmi əyatulla rejimi ilə mübarizə aparmaq gücündə deyil"- deyə Semyonov bildirir.

Daha sonra, rusitalı şərqşünas diqqətə çatdırır ki, İran ərazisində ən çox sayda- 30 milyondan çox əhalisi olan azərbaycanlılar yaşayır. İran azərbaycanlıları əsrlərlə bu ölkəyə rəhbərlik ediblər. "Türkdilli Səfəvilər dinastiyası hazırki İran da daxil olmaqla əsrlər boyu qərbi Əfqanıstana və Pakistana nəzarət ediblər. Bunlar fars mənşəli deyil, məhz azərbaycanlılar olub.

Hazırda da, azərbaycanlılar müəyyən qədər hakimiyyətdə təmsil olunurlar. Ona görə də, bu xalqın içərisində separatizm dalğası nəzərə çarpacaq dərəcədə deyil".

Siyasi analitiklər bu qənaətə gəlirlər ki, ərəblərə və kürdlərə nisbətən daha yaxşı mövqedə olan azərbaycanlılardan İran üçün separatçı hərəkətlər gözlənilmir. Çünki azərbaycanlılar bu gün ölkənin siyasi həyatında, parlamentdə, biznes sahələrində təmsil olunurlar. Bir sözlə siyasi mütəxəsislərin əksəriyyətinin fikirincə, İran rejiminin qürub edəcəyi proqnozları özünü doğrulmayacaq.

**Lakin hazırda dünyada baş verən hadisələr o qədər sürətlə dəyişir ki, İran İslam Respublikasının da gələcək taleyinin necə olacağını proqnozlaşdırmaq o qədər də asan deyil. Hər şey bir andaca dəyişə bilər...**

**Rüstəm Hacıyev**
**"Lenta.ru" saytının materialları əsasında**

*AQİL ABBAS*

# VAQİFİN HEYKƏLİ ŞOUSU

***Sosial şəbəkədə bir feyk xəbər paylaşıblar ki, Şuşada Vaqifə heykəl qoyulur. Hətta heykəlin şəklini də paylaşıblar. Millət də bölünüb iki yerə, qırırlar bir-birini ki, Vaqifə Şuşada heykəl qoyulmalıdır, yoxsa yox.***

***Əvvəla, Vaqif öz heykəlini özü qoyub bu xalqın ürəyində. Vaqifə ikinci heykəli də 40 il bundan qabaq Ulu Öndər onun Şuşada məqbərəsini ucaltmaqla qoyub. Şuşa azad olunandan sonra cənab Prezidentin tövsiyəsi ilə Heydər Əliyev Fondu, daha dəqiq desək, Mehriban xanım Əliyeva o məqbərəni yüksək səviyyədə bərpa elətdirdi.***

***Kimsə qəsdən bu məlumatı atıb ortalığa və millət də müzakirə edir. Və məlum olub ki, şəkil də Lerikdə Nəsimiyə ucaldılan heykəldir.***

***Xüsusi xidmət orqanları maraqlanmalıdırlar ki, belə feyk məlumatları kimlər ötürür və millətin başını boş-boş işlərlə qarışdırır, həm də parçalayır.***

***İndi oxuyuram ki, ziyalılar hərəsi bir fikir irəli sürür ki, Şuşada kimlərin heykəlləri ucaldılmalıdır. O qədər şəxsiyyətlərin adını çəkirlər ki. Yadıma bir hadisə düşdü.***

***Gürcüstanın Rusiya ilə münasibətləri kəskinləşəndə hansısa bir rus siyasətçi demişdi ki, elə etməyin ki, Tseretelinin Moskvada ucaltdığı heykəlləri söküb göndərək Gürcüstana, Gürcüstanda yer tapmayasınız qoymağa, yəni o qədər çoxdur ki.***

***İndi Şuşadan çıxmış tarixi şəxsiyyətlər o qədər çoxdur ki, əgər onların hər birinə bir heykəl ucaltsaq Şuşa şəhərində yer çatmaz. Elə təkcə Mehmandarovlar sülaləsindən 10-15, bəlkə də çox şəxsiyyətə heykəl qoymaq lazımdı. Olsun Bədəlbəylilər nəsli, bu nəsildən də 10-15 şəxsiyyət yetişib. Hələ ki sonuncu da Fərhad Bədəlbəylidir. Mən hələ Xan nəslini demirəm. Mirzə Camal Cavanşirin nəslini demirəm. Mehralı xanın nəsli Məhəmməd bəyi, Əhməd bəy Cavanşiri, Həmidə xanımı demirəm. Süleyman Ələsgərovun nəslindən danışmıram, Hacıbəyovlar, Adıgözəlovları demirəm. Bir dəfə yazmışdıq, Şuşa Azərbaycan tarixinə, mədəniyyətinə, incəsənətinə 100-dən çox şəxsiyyət verib. hətta bildiklərimizin adını da yazmışdıq.***

***Və onu da oxudum ki, Vaqifin şuşalı olmadığını deyənlər onu da yazırlar ki, Xosrov bəy Sultanovun heykəli də ucaldılsın. Ona qalsa Xosrov bəy də şuşalı deyil, laçınlıdı.***

***Dostlar, indi heykəl ucaltmaq vaxtı deyil, indi Şuşanın bərpa vaxtıdı.***

***Yazmışam, yenə də yazıram, Şuşada heykəl ucaldılarsa birinci bu şəhərin binəsini qoyan Pənah xana ucaldılmalıdır, ikinci də elə sağlığında bu şəhəri düşmən işğalından azad edən İlham Əliyevə.***

# ŞAMAXIYA LAYİQ HEYKƏL VƏ YA MƏMMƏD KİŞİ CABBAROVDAN NƏ İSTƏDİ?

***Heykəl şousu deyəsən bitdi, Allaha şükür. Və məlum oldu ki, haqqında söhbət gedən heykəl Vaqifin deyil, Nəsiminindi. Və həmin heykəl Şuşada deyil, Şamaxıda qoyulacaq. Amma bir məsələ qaranlıq qalır.***

***Mən dünyada çox möhtəşəm heykəllər görmüşəm, heç uzağa getməyək, elə qonşu Gürcüstanda, amma mənim üçün iki heykəl çox möcüzəlidi. Biri İzmirdə dağın döşündə, qayalarda həkk olunmuş Atatürkün əzəmətli heykəlidi, biri də Braziliyada Rio-de-Janeyroda dağın başında ucaldılmış İsa peyğəmbərin heykəlidi.***

***Qayıdaq Nəsiminin heykəlinə və qaranlıq məsələyə.***

***Mətbuatda yazılmışdı ki, həmin heykəl Lerik rayonunda hazırlanıb, amma son məlumatda heykəlin Lənkəranda hazırlandığı qeyd olunub.***



***Məsələ nədir? Bu əzəmətli heykəl Lənkəranda hazırlanandan sonra Şamaxıya gətiriləcək və tarixi şəxsiyyətlərin, mütəfəkkirlərin, filosof və şairlərin doğulduğu bu şəhərdə ucaldılacaq, Şamaxının da hər daşı, torpağı Şuşa kimi bir tarixdi. Təkcə bu torpaqdan çıxan şəxsiyyətlərin sayı bir çox ölkələrin və xalqların bəşəriyyətə verdiyi şəxsiyyətlərdən çoxdur.***

***Şamaxı son illər çox gözəl inkişaf edib. Şəhərdə böyük yenidənqurma və bərpa işləri gedir. Bircə dəfə bu şəhərə getmək kifayət edər ki, hasarlardakı barelyeflərdən bu qədim şəhərin Azərbaycanın fikir tarixində necə böyük rol oynadığını görəsən.***

***Məsələ nədir? Nəsiminin heykəli niyə Şamaxıda hazırlanmır, Lənkəranda hazırlanır? Azı 25-30 metr hündürlüyündə olan bu heykəli sonra Şamaxıya necə daşıyacaqlar? Bəs, bunu fikirləşməyiblər? Gərək yenidən hissə-hissə sökələr və heykələ sərf olunan vəsait qədər daşımalara vəsait sərf edələr və köçürələr Şamaxıya. Nə vaxtadək sağ qulağımızı sol əlimizlə qaşıyacağıq?***

***Heykəl tam hazır olmasa da, şəkillərdən göründüyü kimi çox möhtəşəmdi. Yaxşı olar ki, bu heykəli Şamaxıdakı dağın zirvəsində ucaltsınlar. İsa peyğəmbərin Rio-de-Janeyrodakı heykəli kimi. Bu, heykəlin möhtəşəmliyini daha da artırar. Və həm də şəhərə bir yaraşıq verər.***

***Və sonda. Mərkəzi Komitədən Laçına bir məsul şəxs gəlir. Rəhmətlik Cabbarov onu götürüb gedir ucqar kəndlərin birinə. Camaata deyir ki, yoldaş Mərkəzi Komitədən gəlib nə dərdiniz, nə probleminiz var deyin, həll edəcək.***

***Camaat hərəsi bir problem deyir. Mərkəzi Komitədən gələnlər də deyilənləri bir-bir qeyd edir. Hamı dərd-sərini söyləyəndən sonra Cabbarov soruşur ki, daha kimin sözü var?***

***Kəndin ağsaqqalı Məmməd kişi əlini qaldırır:***

***- Yoldaş Cabbarov, bir təklif də mənim var. Bizim kənddə məktəb yoxdu, uşaqlar iki kilometr aralıqdakı məktəbə gedirlər. Qışda yağış olur, qar olur, palçıq olur, uşaqlar gedib-gəlməkdə əziyyət çəkir. Mümkünsə xahiş edirəm, bu yoldaş tapşırsın bizim kənddən o kəndə qədər olan yolun üstündə naves tiksinlər. Uşaqlar qışda yağışa, qara düşməsin, palçığa batmasın.***

***Cabbarov:***

***- Ağsaqqal, elə təklif ver ki, eləmək mümkün olsun da. İki kilometr naves olar?***

***Məmməd kişi gülüb deyir:***

***- Dedim bekarçılıqdı, bir təklif də mən verim dana. Guya o biri yazdıqlarını eləyəcək ki?***

***İndi dedim Məmməd kişi kimi, bir təklifi də mən verim də, bəlkə eşidən oldu.***



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Makron qudurub

## Allah sənə rəhmət eləsin, Şamil Qurbanov!

**Çox böyük ziyalı, Bakı Dövlət Universitetinin kafedra müdiri, bizim müəllimimiz, professor, sabiq millət vəkili və Allahın dərgahına qovuşmuş Şamil Qurbanov bu sözləri Milli Məclisin iclasında Fransanın keçmiş prezidenti Jak Şirak haqqında demişdi. Onda da indiki kimi Fransa ermənilərə arxa durur, onların cinayətlərinə göz yumur və hətta bu vəhşi, simasız millətə dayılıq eləyirdi. Bir dəfə ağzını açıb ədalətli bir söz deməmişdi. Bax, onda da millət vəkili Şamil Qurbanov o qədər deputatların arasında Jak Şirakı ittiham eləmişdi və demişdi ki, Fransanın prezidenti Jak Şirak qudurub.**

**Bu sözdən sonra qara qüvvələr hərəkətə gəldi və onun seçildiyi dairənin adamları Milli Məclisə axın elədilər. Kimlərsə bizdə də Jak Şirakı müdafiə edirdi. Şamil müəllimi, Azərbaycan xalqını yox, ermənilərə və Jak Şirakı görünməyən qüvvələr arxa dururdular. Hətta iş ora gəlib çatdı ki, bu sözə görə Şamil müəllimi çək-çevirə saldılar. Amma bunların hamısına Şamil Qurbanov dözdü və heç nədən çəkinmədən dedi ki, demişəm, lap əcəb eləmişəm! Həmin vaxtı Şamil Qurbanovu onun tələbələrindən biri "Ədalət" qəzetinin baş redaktoru, indiki millət vəkili Aqil Abbas müdafiə elədi. Dedi ki, balam, məmləkətimizdə fransızların gündöyməz yerindən öpən nə qədər adam varmış ki. Hamısı düşüb Şamil müəllimin üstünə. Şamil müəllimin üstünə düşmək lazım deyil ey, aparıb Fransa səfirliyinə bir xoruz atmaq lazımdı. Yəni, siz busunuz.**

**Eyni zamanda Şamil Qurbanovu xalq şairi Bəxtiyar Vahabzadə, xalq şairi Zəlimxan Yaqub, millət vəkili İskəndər Quliyev, professor Pənah Xəlilov, professor Xeyrulla Məmmədov, yazıçı-publisist, o vaxtlar Sabunçu rayonundakı 271 nömrəli tam orta məktəbin direktoru Səməndər Məmmədov (indi təqaüddədi) və digərləri müdafiə elədilər. Onu da dedilər ki, Şamil müəllim kimi ziyalılar tək-tək olur və onlar bu millətin yolunda həmişə şəhid olublar. Elə Şamil Qurbanov da haqq-ədalət uğrunda və xalqın yolunda şəhid oldu. Çünki o, həmişə düz söz deyirdi, xalqını və millətini hər şeydən üstün tuturdu.**

**İndi də Jak Şirakın yolunu Makron davam elətdirir. Bilmirik o, Makrondu, verməşildi, qarabaşaqdı, nədi, amma bildiyimiz odur ki, bu adamda Viktor Hüqonun sözü ilə demiş olsaq, bir damcı da vicdan yoxdur. Hər cür cinayətlər eləyən, bir xalqa qarşı soyqırım həyata keçirən, əli körpələrin, qocaların, qadınların qanına batan cinayətkarları belə müdafiə edərlərmi?! Hər halda, Fransa üçün heç bir haqq-ədalət, heç bir vicdan və heç bir insani hisslər və duyğular qalmayıb. Ermənistan Dağlıq Qarabağı tanımır, amma Fransa tanıyır... Ermənistan Dağlıq Qarabağ haqqında canfəşanlıq eləmir, amma fransızlar eləyir... Ermənilər sülhə doğru addım atmaq istəyirlər, amma fransızlar bu addımı ya atmağa qoymurlar, ya da ləngidirlər...**

**Fransızların ağzında şirə qalıb. Və elə təsəvvür edirlər ki, Azərbaycan ötən əsrin 90-cı illərinin ölkəsidir. Axı onlar kor deyillər, həm kar deyillər, həm də lal deyillər. Yəni, gördülər ki, 44 günlük İkinci Qarabağ savaşında onların da təmsil olduğu ATƏT-in və BMT-nin həll etmədiyi məsələni Azərbaycan Prezidenti və Azərbaycan Ordusu həll elədi! Fransızlar və onun Prezidenti kar, kor və laldılar. Ona görə kardılar ki, həqiqəti eşitmirlər... Ona görə kordular ki, həqiqəti görmürlər... Ona görə laldılar ki, həqiqəti demirlər... Bilirlər ki, qatıq ağdır... Amma qatığın ağ olması onlara sərf eləmir...**

**İndi də Makron düşüb ortalığa canfəşanlıq edir ki, Ermənistan və Azərbaycan arasında hansısa bir sülh sazişi imzalanmasın, əksinə, Ermənistanı ruhlandırırlar ki, qorxmayın, arxanızda biz varıq! Amma ermənilər də elə onlara bənzəyir. Çünki ermənilərin arxasında zaman-zaman çox qüvvələr olub və hamısı da ağır gündə aradan çıxıblar. Bu dəfə də görəcəksiniz, fransızlar və eləcə də onun prezidenti Makron da aradan çıxacaq. Yenə zəlil günə, bədbəxt günə qalan ermənilər olacaq.**

**Makronun öz ölkəsi itin günündədir. Fransada it yiyəsini tanımır, yiyəsi də itini. Yəni aləm bir-birinə qarışıb. Deyirlər ki, bu fransızlar ağıllı xalqdı. Amma ağıllı xalqın belə dəmşəlaq prezidenti var. Onların hamısı qədim sənəti yaşadırlar. Kişiləri də, qadınları da! Diqqətlə fikir verin Makronun bir sifətinə, ağzına, danışığına baxın. O dəqiqə hiss edəcəksiniz ki, qədim sənəti yaşadanlardandı. Siyasətçidən çox kişi fahişəsidi. Kişinin fahişəsi isə heç ələ düşmür. İki-üç gün əvvəl Praqada sülhdən, əmin-amanlıqdan danışır, iki gündən sonra isə Dağlıq Qarabağın müstəqilliyindən dəm vurur. Buna kişi demək olar, ya yox?!**

**Çox təəssüf ki, sabiq millət vəkili, rəhmətlik Şamil Qurbanov kimi bu gün Milli Məclisdə təmsil olunanlar Makronun qiymətini verə bilmədi. Çox mədəni və normal ifadələrlə onu bəziləri tənqid atəşinə tutdular. Amma Makron daha sərt ifadələrə layiqdi. Çünki böyük bir ölkənin prezidenti özünü ona layiq aparmır, bambılı kimi hərəkət eləyir. Və bu bambılılıq da axırda gəlib çıxıb qudurğanlığa.**

**Mənim dostum, böyük ziyalı, yazıçı-publisist Səməndər Məmmədov ilə Şamil müəllimin Jak Şiraka dediyi ifadəni dəfələrlə xatırlayırıq. Xatırlayırıq ki, Şamil müəllim bu gün sağ olsaydı, elə o sözləri Makron haqqında deyərdi. Allah ona qəniqəni rəhmət eləsin, yeri cənnət olsun! Şamil müəllim yoxdu, ancaq onun minlərlə tələbələri var. O tələbələrdən biri də mənəm. Mən də deyirəm ki, Makron qudurub! Özü də elə qudurub ki, onun ağzına möhkəm bir zərbə dəyməlidi. O zərbəni də cənab Prezidentimiz İlham Əliyev bugünlərdə olan çıxışında vurdu və Makronu bir daha yerində oturtdu. Çünki bizim Prezident ölkəmiz balaca olmasına baxmayaraq, dünyanın ən güclü və savadlı Prezidentlərindən biridir. Dəfələrlə görüşlərdə görmüşük ki, o, içəri daxil olanda digər Prezidentlər özlərini yığışdırır. Eləcə də İlham Əliyevi görəndə Makron da özünü yığışdırır. Və daha doğrusu, özünü adam kimi aparır!**

**Biz heç kimin nazı ilə oynamayacağıq. Nə Ermənistanın, nə də onların havadarlarının! Əgər hansı ölkənin prezidenti qudurub bizə ağız atırsa, onun da ağzını cırıb qoyacayıq qulağının dibində. Tezliklə Makronun da ağzı cırılacaq və qulağının dibinə qədər uzanacaq. Ona görə də nə qədər gec deyil, ağzına yiyəlik eləsin!**

## Türkiyənin bu addımı tarazlığı dəyişdi



**Ukraynada müharibə tam sürətlə davam edərkən, Rusiya qazından asılı olan Avropa enerji böhranı məngənəsindədir.**

Adalet.az xəbər verir ki, bir çox Avropa ölkəsinin fövqəladə tədbirləri müzakirə etdiyi, Putinin Türkiyə ilə bağlı təklifinin əks-sədasının davam etdiyi bir vaxtda Rusiyadan yeni iddia gəlib. Bu inkişaf tezliklə Yunanıstanda gündəm olub.

Rusiya prezidenti Putinin göstərişi ilə fevralın 24-də başlayan müharibə bütün sürəti ilə davam edir.

Qərb, xüsusilə ABŞ Ukraynaya silah verməkdə davam edərkən, Rusiya qazından asılı olan Avropa ən sərt qışa hazırlaşır.

Bir çox Avropa ölkəsinin təcili tədbirləri müzakirə etdiyi bir vaxtda Rusiya liderindən diqqətçəkən Türkiyə təklifi gəlib.

**Rusiyanın Türkiyə üzərindən Avropaya qaz satmağa hazır olduğunu vurğulayan Putin, "Türkiyədə Avropa üçün böyük bir Təbii Qaz mərkəzi yaradıla bilər"- deyib.**

**Əntiqə Kərimzadə**

# Atatürkün 95 yaşlı Nitqi haqqında bilmədikləriniz

**"1919-cu il mayın 19-da Samsuna getdim..." (Atatürk, Nitq-1927)**

**Türkiyə Qurtuluş Döyüşünün Baş Komandanı və Türkiyə Respublikasının qurucu prezidenti Qazi Mustafa Kamal Atatürk 95 il əvvəl bu gün Nitq oxudu.**

**Əvvəl tarix yaradan, sonra tarix yazan adam.**

**Yaxşı, amma Nitq nədir? Niyə və necə yazılıb, necə oxunub?**

Ankara çox fəal idi. 15 oktyabr 1927-ci il şənbə günü saat 10.00-da Türkiyə Böyük Millət Məclisində CHP-nin II Böyük Qurultayı toplanmalı idi.

Prezident Atatürk düz saat 10:00-da salona daxil oldu. Zalda olan bütün qonaqlar, diplomatik korpus, tamaşaçılar, məruzəçilər və mətbuat nümayəndələri ayağa qalxdılar. Atatürk sürəkli alqışlarla ləng addımlarla prezident kürsüsünə çıxdı; "Cənablar! Cümhuriyyət Xalq Partiyasının böyük qurultayını mən açıram", - deyə o, qurultayı açdı. O, qısa nitq söylədi.

Atatürk gündəmdəki bəzi maddələrin əvvəlcə qərara alınmasını istədi. Sonra yerini sədr müavini İsmət Paşaya buraxdı. İsmət Paşa başçılıq kürsüsünə gəldi. Əsasnamə və proqramla bağlı məsələlər müzakirə edildi, zəruri qərarlar qəbul edildi. Daha sonra Atatürk hər kəsin maraqlı baxışları arasında kürsüdə dayanaraq Nitq oxumağa başladı. Saat 19.30 göstərirdi.

O, lazımi sənədləri Prezident Şurasının üzvü Ruşen Eşref bəyə verirdi, o isəoxuyurdu. Beləliklə, Atatürk Nitqində hər hadisəni, hər vəziyyəti, hər bir qiymətləndirməni sənədləşdirmişdi.

Mətbuat yazırdı ki, əyalət Atatürkün nitqini radio-telefon sistemi ilə xalqa çatdırmaq üçün radio avadanlıqları almışdı. Cihazların Fatih, Bayezid, Topkapı, Ədirnekapı kimi yerlərdə yerləşdirilməsi planlaşdırılırdı.

Atatürk Nitqi oxuyarkən Qurtuluş Müharibəsi zamanı ona göndərilən pulların Böyük Hücum fəslini bitirdikdən sonra necə xərcləndiyindən danışırdı. O, yaşadığı Çankayadakı evi və Bursa, Trabzon, Ərzurum, Antalya, Konya və İzmirdə ona verilən evləri partiyaya bağışladığını da açıqlayırdı.

Çıxışının sonunda Atatürk "Ey Türk Gəncliyi" deyərək birbaşa gənclərə müraciət etdi.

O, "Sizin birinci vəzifəniz Türkiyənin istiqlalını və Türkiyə Cümhuriyyətini əbədi olaraq qoruyub saxlamaq və müdafiə etməkdir" deyərək "Gəncliyə müraciət"i oxumağa başladı.

Gənclərə Müraciət başa çatanda bəzi deputatların gözləri yaşla doldu. Müraciətin sonlarına doğru Atatürkün də gözləri yaşla dolmuşdu...

Çıxış 20 oktyabr 1927-ci ildə saat 18:15-də oxundu. Hamı ayağa qalxdı. Atatürk hamını başı ilə salamlayaraq kürsüdən endi. Alqış sədaları altında zaldan çıxıb yuxarıdakı otağına keçdi.



Atatürk 15 oktyabr 1927-ci il şənbə günü başladığı Nitqini 20 oktyabr 1927-ci il cümə axşamı günü bitirdi. O, hər gün 6 saat, cəmi 36 saat 31 dəqiqə, 6 gün ərzində Nitq oxuyub. Ona görə də əcnəbilər bu çıxışı "Altı günlük nitq" və ya "Marafon nitqi" adlandırıblar.

Atatürk Nitqi 1927-ci ildə Ankarada yazmağa başlayıb. Gecə-gündüz, bəzən yuxusuz işləyirdi. Çox yorğun. Hətta gərgin tempin sonunda infarkt keçirdi. Sağaldıqdan sonra 1927-ci il iyulun 1-də İstanbula getdi. O, İstanbuldakı Dolmabahçe sarayında Köhnə Köşkün yuxarı mərtəbəsindəki kiçik kabinetdə üç aydan çox gecə-gündüz çalışaraq 1927-ci il sentyabrın 30-da Nitqi tamamladı.

Şahidlərin dediyinə görə, Atatürk Nitqi yazmamışdan əvvəl bir tarixçi kimi araşdırmalar aparıbmış. O, əvvəllər təqdim etdiyi sənədlərin əslindən və müxtəlif qeydlərdən, müvafiq nazirliklərin 1920-1926-cı illərdəki işlərinin xülasəsini əks etdirən hesabatlardan istifadə edibmiş. Atatürk Nitqi daha çox özü yazsa da, bəzən o deyir, katiblər də yazırmış. Şahidlərin dediklərinə görə, bəzən çap prosesi o qədər uzun və yorucu olurmuş ki, bəzi katiblər huşunu itiribmişlər. Atatürk Nitqi yazarkən ətrafındakı insanlarla da fikir mübadiləsi aparırmış.

Nutukun yazı prosesinin şahidlərindən olan Afət İnanı dinləyək:

"Hər gecə Dolmabahçe Sarayının böyük salonlarından birində dost izdihamı arasında bu möhtəşəm Nitqdən hissələr oxunur və mübahisəli çıxışlar edilir. Atatürk özü oxuyur, bəzən oxutdurur, yazdığı mövzularda izahat verməklə çox fəal çıxışlar edirdi. Lozannadakı təhsilimdən təzə qayıtmışdım. Mən bu məclislərdə olanda tarixə tarixi yaradanlardan qulaq asırdım. Atatürk yazdıqlarını oxuyarkən o günləri yenidən yaşayırmış kimi həyəcanlanır, həmişə ucadan xitab edirdi. Nutukun yazı prosesinin şahidlərindən Falih Rıfkı Atayın müşahidələri belədir:

"Çıxış Atatürkün iş gücünün bəzən insan gücünün nə qədər çox olduğunu göstərir. Köhnə Köşkün yuxarı mərtəbəsindəki kiçik kabinetdə yüzlərlə, minlərlə sənədi bir-birindən ayırır, Nitqini daha çox gəzərək diktə edirdi. Uzun saatlar diktədən sonra katiblər 8-10 saat yuxuya gedəndə Atatürk yuyunur, geyinir, axşam isə qonaqlarına həmin gün yazdıqlarını oxumaq üçün masaya enirdi. Mütaliə və o günün yazıları ilə bağlı söhbətlər də saatlarla davam edərdi. Bu dəfə dinləməkdən, danışmaqdan yorulanlar uzun müddət dincəlmək üçün evlərinə dönər, Atatürk tez-tez qısa bir yuxudan sonra bir gün əvvəlki işinə başlayardı. Bu çox ağır iş həftələr çəkdi. Cümlələrə, sözlərə, məqamlara diqqətli olduğunu unutmaq olmaz".

Atatürk Nitqi bitirdikdə 506 səhifəlik qaralama mətn ortaya çıxdı. Atatürk bu mətn üzərində uzun müddət işləyib. Bəyənmədiyi hissələri düzəldib və ya yenidən yazıb.

Atatürkün 1927-ci ildə yazıb oxuduğu "Nitq" 1928-ci ildə Ankaradakı Türk Təyyarə Cəmiyyəti tərəfindən Osmanlı türkcəsində nəşr edilmişdir. İki hissədən ibarət olan Nitqin mətni 543 səhifə idi. Nitqin sonuna rəngli xəritələr də daxil edilmişdir. Nitqin 2-ci nəşri elə həmin ildə 50.000 nüsxə ilə hazırlanmışdır. Sənədlər hissəsi 1929-cu ildə nəşr edilmişdir. Atatürk Nitqin qonorarını Türk Təyyarə Cəmiyyətinə bağışlamışdı. Nitq müxtəlif ölçülərdə xüsusiburaxılışları da hazırlanmış, başqa dillərə tərcümə edilmişdi.

**Nitq ilk dəfə 1934-cü ildə İstanbul Dövlət Mətbəəsində yeni türk hərfləri ilə 3 cilddə nəşr edilmişdir. Birinci cilddə 1919-1920-ci il hadisələri, ikinci cilddə 1920-1927-ci illər hadisələri, üçüncü cilddə sənədlər yer alıb. 3 cilddə ümumi səhifələrin sayı 1010 idi. Nitqin 4-cü nəşri 1938-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən Cümhuriyyətin 15-ci ildönümünə hədiyyə olaraq İstanbul mətbəəsində hazırlanmışdır. Bu dəfə ilk iki cild bir cilddə toplanıb. Bu nəşrin səhifə sayı 658 idi. Çıxışın 5-ci nəşri 1950-1952-ci illərdə Milli Maarif Nazirliyinə bağlı İnqilab Tarixi İnstitutu tərəfindən hazırlanmışdır.**

**Nitqin yazılmaq səbəbləri ilə bağlı sabahkı yazımızada oxuyacaqsınız.**

**Dilimizə uyğunlaşdırdı:
Eminquey**

# Başqasının çıxardığı yerdən düşə bilməzsən, yıxılarsan



*Doğan Cüceloğlu,*
*Türk psixoloqu və akademiki*

**Düşündürücü....**

**Uşaq idim. Anama " Ağaca çıxacam, kömək et " - dedim.**

**-Başqasının çıxardığı yerdən düşə bilməzsən, yıxılarsan - dedi.**

**Bunu heç vaxt unutmadım. Nə qədər doğru olduğunu böyüyəndə anladım.**

**Ali Şeraiti**

**26 yaşındaydım. Amerikaya təzə getmişdim və universitetlərin birində araşdırma komandasında köməkçi kimi işləyirdim. Mənimlə bərabər eyni otaqda Con və Qari adında daha iki köməkçi fəaliyyət göstərirdi. Bir şənbə günü işə gedəndə yerdə, xalçanın üstündə iməkləyən uşaq gördüm. Qarinin uşağı idi, özü ilə işə gətirmişdi. Uşaq xalçada iməkləyir, Qari öz işini görürdü. Mən də yerimdə oturdum və işimi görməyə başladım. Otaqda kiçik və meşin bir kreslo vardı. Bir də baxdım ki, Qarinin oğlu o kresloya çıxmağa çalışır. Bir ayağını kreslonun üzərinə qoyur, digərini də qaldırmağa çalışır, amma heç cür kresloya dırmana bilmirdi. 4-5 cəhddən sonra Qariyə baxdım. O, uşağı sakitcə izləyir və öz işinə davam edirdi. Con isə ümumiyyətlə işinə qapılmışdı və baş verənləri izləmirdi. Uşağın növbəti cəhdi alınmayanda dözə bilmədim və yerimdən qalxaraq uşağı qucağıma aldım və kresloya qoydum. Uşaq bunu gözləmirdi deyə çox təəccübləndi və kreslonun üstündə təəccüblü gözləri ilə mənə baxmağa başladı. O zaman bilmirdim, amma sonralar fərqinə vardım ki, o uşaq mənim gözümdə "qardaşoglu" idi, mən onu elə görürdüm. Böyüdüyüm mühit, ailə, qəsəbə məni belə formalaşdırmışdı. Qardaşımın oğlu kresloya çıxmağa çalışırdı və mən ona kömək etmişdim, çünki atası və otaqda olan digərləri ona kömək etməyə həvəsli deyildilər. Mənim düşüncəm situasiyaya yalnız belə baxırdı.**

**Vəzifəsini icra edən bir böyük rahatlığı ilə gülümsəyərək Qariyə baxdım.**

**- Niyə belə etdin?- deyə o, mənə sual verdi.**

**Mən də çox rahat şəkildə, doğrusunu etdiyimə inanaraq ona cavab verdim:**

**- Çıxmağa çalışırdı və mən də kömək etdim.**

**Qari bir də israrla eyni dualı təkrarladı:**

**- Mən bilirəm o çıxmağa çalışırdı, sən bunu niyə etdin?**

**Təəccübləndim və hirsləndim. İçimdə "Bu amerikalılara yaxşılıq yoxdu"- deyə düşünməyə başladım.**

**Qari bir daha soruşdu:**

**- Sən heç nə etdiyinin fərqindəsənmi?**

**Yenə əsəbiləşməyə başladım. İstanbulda Psixologiya fakültəsini bitirmiş və 2 il də assisent kimi işləmişdim. Nə etdiyinin fərqində olmayacaq insan deyildim.**

**Qari səbrlə sözə başladı:**

**- Bax, uşaq kresloya çıxacağına inanırdı, yarım saat, bəlkə də bir saat sonra cəhdi alınacaq və kresloya çıxacaqdı. Fikir verdinsə o, eləcə kreslodan tutmuş kimi görünmürdü, o, kresloya çıxmağa niyyətli idi və bunun üçün əmək sərf edirdi. Ora çıxdıqdan sonra mənə dönüb baxacaqdı. Mən də ona "Çıxmağı bacardın" deyəcəkdim. Sonra yenə enəcəkdi, yenə cəhd edəcəkdi. Bəlkə də bu dəfə daha tez çıxmağı bacaracaqdi. Bu, onun bu günkü zəfəri olacaqdı. Sən onun zəfərini oğurladın.**

**Deyilənlər qarşısında şokda idim. Bu, həyatım boyu unutmayacağim bir dərs olmuşdu mənə.**

**İki həftə sonra yenidən bu söhbətin üstünə qayıtdım və Qaridən soruşdum:**

**- Niyə sadəcə çıxmağı bacardın deyəcəkdin? Niyə "afərin sənə"- deyib, alqışlamayacaqdın?**

**Qarinin verdiyi cavab hələ də qulağımdadir:**

**- Mən onun zəfərinə sadəcə şahid oluram. O, məndən afərin almaq üçün zəfər əldə etmək istəmir, özü istədiyi üçün zəfəri qazanır və mənim də onun zəfərinə şahidlik etdiyimi və sevindiyimi bilir.**

# Baydendən tənqid, xalqdan istefa və "Conson" tələbi: Trassın təlatümlü 45 günü...

**Xəbər verdiyimiz kimi, Böyük Britaniyanın baş naziri Boris Conson onun iştirakı ilə baş verən qalmaqallar fonunda iyulun 8-i Mühafizəkarlar partiyasının lideri və Baş nazir vəzifəsindən istefa verməyə razı olduğunu bildirdi. O, Mühafizəkarlar partiyasına yeni lider və Baş nazir seçilənə qədər səlahiyyətlərini icra edəcəyini açıqlamışdı.**

Böyük Britaniya kraliçası II Yelizavetanın Balmoral qəsrində qəbulunda olan ölkənin xarici işlər naziri Liz Trass sentyabrın 5-i sözügedən partiyanın yeni lideri və ölkənin Baş naziri seçildi.

Kraliçanın təyin etdiyi 15-ci Baş nazir olan Trass Marqaret Tetçer və Tereza Meydən sonra bu postu tutan üçüncü qadın idi.

### *Trassın tənqid edilən iqtisadi siyasəti*

Trassın başçılıq etdiyi Britaniya hökuməti iqtisadiyyatı dəstəkləmək üçün yeni planla bağlı tənqidlərlə üzləşdi.

Planı parlamentdə maliyyə naziri Kvazi Kvarteng təqdim edib və vergilərin geniş şəkildə azaldılmasına çağırdı. Bundan sonra Britaniyanın beşillik dövlət istiqrazlarının gəlirliliyi 2008-ci ildən bəri maksimum 4,6% səviyyəsinə yüksəlib ki, bu da qiymətli borc kağızlarına tələbin azalması deməkdir.



Bununla əlaqədar olaraq funt-sterlinq kəskin ucuzlaşıb və bir funt 1,054 dollarla tarixi minimuma düşüb. Cümə günü Kvartenq Trassın tələbi ilə istefa verdi.

Məsələyə hakim Mühafizəkarlar Partiyası da qarışdı . Partiyanın bir sıra deputatları Baş naziri istefa verməyə çağırdılar. Trassa etiraz olaraq , daxili işlər naziri Suella Braverman da hökumətin iqtisadi siyasəti ilə razılaşmaması səbəbindən istefa verdi.

Hətta ABŞ Prezidenti Co Bayden Trassın rəhbərlik etdiyi hökumətinin iqtisadiyyata dəstək planını yanlış adlandırdı:"Bunu səhv hesab edən tək mən deyildim".

Ölkənin nüfuzlu "Conservative Post" nəşri isə yazdı ki, Böyük Britaniyada keçmiş baş nazir Boris Consonun vəzifəyə geri qaytarılması üçün petisiya yaradılıb.

Etirazların bu həddə çatmasına əvvəl laqeyd qalıb, vəzifəsindən getməyəcəyini elan edən Baş nazir 2 gün sonra - 20 oktyabrda istefa verdiyini dedi: "Mən ölkəmdə böyük iqtisadi və beynəlxalq qeyri-sabitlik dövründə vəzifəyə gəlmişəm. Britaniyada aşağı iqtisadi artım var. Partiyam tərəfindən bunu dəyişdirmək mandatı ilə seçilmişəm. Vəziyyəti nəzərə alsaq, Mühafizəkarlar partiyası tərəfindən seçildiyim mandatı yerinə yetirə bilməyəcəyimi etiraf edirəm", - deyə o xalqa müraciətində vurğulayıb.

**Qeyd edək ki, Britaniya tarixində ən qısa müddət (45 gün) hakimiyyətdə olanTrass vəzifəsini Baş nazir seçkilərinin tarixi məlum olana qədər icra edəcək.**

**Əntiqə Rəşid**

Emin Piri

# Torpaq adam - 50



***Müharibədən təxminən 20 gün keçmişdi. Bizim batalyon Şuşa istiqamətindəki mövqelərindən( yüksəkliklərdən) toplanış yerinə- Cəbrayıl rayonunun Daşkəsən kəndinə göndərilmişdi. Bizdən öncə də bu kənddə ermənilərin briqadası yerləşirdi. Müharibə dövründə əksər texnikalarını da avtomobil parkında qoyub güclə qaça bilmişdilər. Bunlar öz yerində, müharibədən sonra da demək olar ki, bir korpusun mərkəzinə, toplanış yerinə çevrilmişdi. Elə müharibə dövründə də həmin kazarmalar, Daşkəsən kəndi müəyyən məqsədlər üçün istifadə olunurdu.***

***Hə, müqaviləyə əsasən yenidən hazırlıq görülür, bizim hərbi hissənin batalyonları Laçın boşaldılandan sonra xidmət üçün göndəriləcəkdi. Buna görə də ardıcıl sıra baxışları, əşyaların, silahların yoxlanılması və.s əsas işə çevrilmişdi. Belə zabit düzüləşlərinin birində sıradan səs eşitdim:***

***-Şair, sağsan?***

***Düzü, öncə tanıya bilmədim. Xocalı və Şuşa istiqamətindəki yüksəkliklərdə müəyyən soyuq, donvurmalarım olmuşdu ki,***



***gözlərimdə yaranan spazmadan nə gözlərimi düzəməlli aça bilir, nə də görüb tanıya bilirdim.***

***Bir anlıq düşündüm ki, kimdisə tanıyır, şair şöhrətim döyüş yollarına qədər uzanıb. Şəxsi eqo tatminliyi zirvəyə qaldırdı məni.***

***Sıra düzülüşündən sonra tanıdım...***

***Yaşı 50-ə yaxın idi. Axı, onun müharibədə nə işi var? Öz övladı belə hərbi xidmətdən yeni qayıdıb.***

***Birinci Qarabağ müharibəsində tələbəliyindən imtina edərək könüllü əsgər kimi xidmət etmişdi.***

***Universiteti bitirəndən sonrasa yenə cəbhə bölgəsinin ən çətin yerlərində zabit kimi illərlə xidmət aparmışdı.***

***Bu onun üçüncü savaşı idi...***

***Bu müharibədə olmasa belə kimsə ona nəsə deməz, elə keçmiş illərdə-istər birinci Qarabağ savaşında, istərsə atəşkəs dövründə etdiyi xidmətlər ağızdolusu danışmağa bəs edirdi.***

***Amma o, danışmadı, üçüncü dəfə xidmətə gəldi-Vətən müharibəsinə.***

***O, müharibədən öncə də mənimçün "torpaq adamlar"dan idi...Bu müharibədən sonrasa daha da müqəddəsləşdi.***

***Onunla fəxr edirdim. Kimsə narazılıq edəndə nədənsə onu nümunə göstərirdim. Qələmini süngüyə çevirən adamı. Kimsə yaşı deyəndə onun yaşını deyirdim.***

***Kimsə öncəki xidmətindən danışanda onun bundan öncəki iki xidmətini deyirdim...***

***Deyirdim və deyirdim...***

***Yavaş-yavaş mənim əsgərlərimin də sevimlisinə çevrildi. Onun yanında gedərdim, hər dəfə şeirlə qarşılayıb, şeirlə yola salardı. Şeir kimi adam idi, sevgi dolu. Həyatı poeziya.***

***Əsgərim Nicat Məmmədli şeir sevdalısı olduğundan onu da apardım.***

***Bir şeiri sevdirdi bizə. İlk dəfə məni görəndə dediyi şeiri. Təsəvvür edin, müharibədən sağ çıxmış dostunu görürsən və ilk sözlərin şeirlə başlayır.***

***Sevgi dolu adamdı. Şeir kimi adam. Şeir demişkən məni görərkən ilk bu şeiri demişdi;***

***Səni niyə belə sevdim,
Belə istədim,niyə?
Canımdakı min tikana,
Gülə istədim,niyə?***

***Eşqdə gizlətdim bu canı,
Görəmməyən varmı, hanı?
Həm gizlətdim,həm də hamı,
Bilə istədim niyə?***

***Min illərçün də Allahdan,
Gecə gündüz,hər an,hər an,
Səni qəlbimə həm sultan,
Həm də... Həm də kölə istədim Niyə?***

***Mənə elə gəlir bu şeir bir qıza deyil, elə vətənə deyilən şeirdir. O vaxtdna bu şeir dilimin əzbərinə çevrildi.***

***Bu gün doğum günüdür. Məncə ən gözəl doğum gününü elə oktayabrda, Cəbrayılda müharibədə olarkən keçirdi. Doğum gününü işğalda olan,doğulduğu torpaqları azad etməklə.***

***O, müharibədən öncə də mənimçün "torpaq adamlar"dan idi...Bu müharibədən sonrasa daha da müqəddəsləşdi.***

***Nə yaxşı varsan, İlham Tumas. Nə yaxşı qələm səni tanıdı,nə yaxşı bu vətənin oğlusan!***

***P.S.** Foto müharibədən sonra onunla ilk rastlaşdığımız gündə, Cəbrayılın Daşkəsən kəndində, keçmiş erməni kazarmasında çəkilib.*

***Solda mən, sağda İlham Tumas, mərkəzdəsə zabit və əsgərlərimiz...***

## *Növbəti epidemiya buzlaqların altındadırmı?*



**Kanadada aparılan araşdırmalara görə, qlobal istiləşmə yaxın illərdə yeni pandemiyalara səbəb ola bilər.**

Adalet.az xeber verir ki, alimlər bildiriblər ki, buzlaqlarda donmuş viruslar qlobal istiləşmə ilə təbiətə daha çox daxil olur.

Kanadanın Toronto və Ottava universitetlərindən olan tədqiqatçılar qlobal istiləşmənin davam edəcəyi təqdirdə dünyanı yeni virus epidemiyaları ilə üzləşə biləcəyini açıqlayıblar.

Arktika bölgəsindəki Hazel gölünün ətrafından götürülmüş torpaq və su nümunələrini araşdıran tədqiqatçılar, buzlaqlarda donmuş bakteriya və virusların qlobal istiləşmənin təsirləri ilə təbiətə daha çox daxil olduğunu aşkar ediblər. Tədqiqatçılar bildiriblər ki, buzlaq sularının əriməsi torpaqda daha çox çöküntü əmələ gətirir, virusların torpaq səthində qalaraq yeni hostlar tapma ehtimalını artırır.

**Əntiqə Kərimzadə**

# SADƏCƏ, TOĞRUL NƏRİMANBƏYOV



***ETİBAR ƏBİLOV***

***Hörmətli redaksiya.***

***Mən bu yazını Xalq rəssamı Togrul Nərimanbəyovun vəfat etmə xəbərini eşitdiyim günün səhərisi yazmışdım. Amma o vaxt çap etdirməmişdim.İndi o acı xəbəri eşitdiyim vaxtdan 9 ildən də artıq vaxt keçəndən sonra,unudulmaz Toğrul Nərimanbəyovun şəxsiyyətinə və sənətinə böyük sayğımın ifadəsi olan bu yazını doğma "Ədalət" qəzetinə göndərmək qərarına gəldim.***

***

Toğrul Nərimanbəyov Parisdə dünyasını dəyişdi.Biz böyük bir Azərbaycanlını itirdik.Bu böyük bir itkidir. Axı bir də ikinci Toğrulumuz olmayacaq.Necə ki,ikinci Nizamimiz,ikinci Fizulimiz,Üzeyir bəyimiz, Səttarımız, Qaramız, Rəşidimiz... yoxdur. O,anasının doğulduğu Fransada haqq dünyasına qovuşdu.Və biz bu ağır xəbəri çox gec- altı gündən sonra bildik.Çox qəribədir,xalqımızın ən məşhur,ən görkəmli sənətkarının ölümü bizə bu qədər gec gəlib çatdı.Bu da dünyanın qəribəliklərindən biridir.

O,ətrafına işıq paylayan adam idi.Bir yerdə görünəndə,küçədə gedəndə,istər- istəməz ətrafdakı adamlar dayanıb,bütün varlığı ilə qeyri-adi olan,bizlərdən biri olmadığı ilk baxışdaca aydın sezilən,kübarlığı ilə tanımayanları belə heyrətdə qoyan bu maraqlı insana tamaşa edirdilər.Onda bir sehr var idi və bu sehrlə o bizim hamımızı sehrləyə bilirdi...

O böyük bir insan idi.Dünyada heç kəsə bənzəməyən rəssamlardan sayılırdı.O bütöv günəşi tablolarına gətirə bilirdi,onun tablolarındakı günəş,göylərdəki günəş qədər parlaq idi,tablolardakı günəş ətrafa işıq saçır,insanların qəlbinə bir hərarət,istilik gətirirdi.Dünyada yeddi rəng var deyirlər,qalan bütün rənglər həmin yeddi rəngdən alınır.Toğrulun tablolarındakı rənglərin sayını güman edirəm ki,kimsə bilmir.O bir rəng sehrkarı idi,onun rəngləri-göy, qırmızı, sarı, narıncı,ağ,cəhrayı,mavi,yaşıl...insanın qəlbinə rahatlıq gətirir.Hər rəngin neçə çaları var?- bilmirəm.Toğrulun tablolarına baxın,göy rəngin,qırmızı rəngin, sarı rəngin...müxtəlif çalarlarını seyr edin- insan bu rənglərə valeh olur.Bu rəngləri sevməmək,bu rənglərə valeh olmamaq,bu rənglərin sehrinə düşməmək sadəcə olaraq mümkün deyil.Toğrulun müxtəlif tablolarındakı narlara tamaşa edin.İstər qış ayları olsun,istər payız,istər yaz,istərsə də yay,istər nar mövsümü olsun,ya olmasın,dəxli yoxdur,Toğrulun tablolarındakı narlara baxanda insan gülöyşə,mələs,şirin,turş,sulu narların dadını damağında hiss edir.Onun "Muğam" tablosundakı "Segah"ın zərif,kövrək melodiyalarını, "Rast"ın müdrik ahəngini,"Cəngi"nin üsyankar ruhunu, "Mənsuriyyə"nin qələbəyə səsləyən səslərini eşidirsən,o tabloya baxarkən xalq mahnılarımızın ecazkar sehrinə düşürsən.Doğma Bakımıza həsr etdiyi tablolarda əzəmətli şəhərimizlə bağlı qürur hissi yaşayırsan.Toğrulun çəkdiyi əzəmətli Qız Qalası rəsmləri- gerçək Qız Qalası qədər möhtəşəmdir.Şirvanşahlar sarayı da,Abşeron,Naxçıvan mənzərələri,dağlarımız,çəmənlərimiz də... həmçinin...Çəkdiyi natnümortlarda meyvələrin dadını,çiçəklərin ətrini hiss edirsən.Onun çəkdiyi ağacların gözəlliyi göz oxşayır.Həmin ağacların sərinliyi bütün ruhuna hakim kəsilir.O bir rəng ixtiraçsıdır.Bu vaxta qədər görmədiyimiz,təsəvvür etmədiyimiz rəngləri onun tablolarında görmək mümkündür.

Onun misilsiz istedadı,ilhamı,dünya görüşü,mövzu-maraq dairəsi,tablolarında istifadə



etdiyi rəng çalarları qədər sonsuzdur.O,Dədə Qorqudu da,Kral Liri də tamam fərqli anlamda,yalnız ona- Toğrula xas olan bir üslubda çəkir (Kral Lir- başına müsibətlər gəlmiş bu keçmiş Kral həm ingilisə,həm almana,həm hindliyə...həm də azərbaycanlıya oxşayır (əslində bu tabloda Toğrul özünü-öz avtoportretini çəkib).Yəni insan hissləri hər yerdə eynidir.Dərd hər yerdə dərddir,sevinc hər yerdə sevincdir.Yəni dərdin də,sevincin də vətəni yoxdur.Kral Lir kimi adamlar dünyanın hər tərəfində var,ona görə də onun təsvir etdiyi Lir həm də azərbaycanlıya oxşayır,ingilislər onu ingilisə,fransızlar fransıza,hindlilər də hindliyə oxşada bilər).O bir tabloya bütöv bir nağılı,bütöv dastanı sığışdıra bilirdi.Əslində sığışdırmaq sözü burada yerinə düşmür- onun tablolarında heç bir artıq detala rast gələ bilməzsən,eyni zamanda onun tablolarında iynə ucu boyda da olsa nəyinsə çatışmadığını təsəvvür belə etmək olmaz.Onun əsərlərində mükəmməl bir tamlıq,bütövlük var.O.bir tabloda bütöv bir tarixi,bütöv bir epoxanı canlandıra bilir.Təsəvvür edin- bir tabloda bir millətin bütöv bir tarixi! Adət -ənənəsi,mədəniyyəti,düşüncə tərzi, məişəti,məşguliyyəti,əxlaqı,şəhərləri,abidələri,dağları,kəndləri,bulaqları,şəlalələri,insanları...Bir küll halında möcüzəli,sehrli heyrətamiz bir aləm.

O özü də bir nağıl,dastan qəhrəmamına bənzəyirdi,əfsanəvi bir adam idi,elə bil öz nağıl pannolarından birinin qəhrəmanıdır,ona görə də,özü də sağlığında,öz zahiri görkəmi ilə belə bir əfsanəvi təsir bağışlayırdı.O bir məktəb yaratmışdı,Sezann kimi,Van Qoq kimi,Pikasso kimi rəssamlıqda inqilab edən bir rəng və fırça dahisi idi.

Toğrul Nərimanbəyovun tablolarında gerçəkliklə əfsanələr vəhdətdədir.Onun sənəti Şərqin zəngin qaynaqlarından- "Min bir gecə" nağıllarından,bayatılardan,xalçalardan,əsatirlərdən,qədim şərq memarlığından,muğamlardan,minatürlərdən,Yapon xaykularından...qaynaqlanırdı,eyni zamanda Qərb mədəniyyətini də (intibah dövrü rəssamlıgı, impressizmi, modernizmi, Klassik və müasir Avropa ədəbiyyatı və s.) gözəl bilirdi.Onun elə əsərləri var ki, bu tablolarda Şərq mədəniyyəti ilə Qərb mədəniyyəti bir harmoniya təşkil edir.Eyni zamanda nağıl,əfsanə,əsatir və gerçəklik onun fırçasında rənglər ilə birləşir- əsrarəngiz bir tablonu hasilə gətirirdi.

O çox maraqlı bir insan idi.Xarici görkəmindən tutmuş sənətinə qədər maraqlı bir insan.Bu yazını yazarkən,Toğrul Nərimanbəyova xitab edərkən "maraqlı","qeyri-adi" sözləri elə qeyri-ixtiyari olaraq qələmimin ucuna gəlir.Mən həyatımda çox maraqlı insanlar gördüm,amma Toğrul Nərimanbəyov kimi qeyri-adi,maraqlı bir insan görmədim.O özü bir incəsənət əsəri,nadir təbiət hadisəsi idi.Allah ona həm cismən,həm də ruhən bütün gözəllikləri vermişdi.O sənətlə nəfəs alırdı.Buna rəğmən deyərdim ki,O,həm də böyük bir müğənni idi-klassik Avropa bəstəkarlarından oxuduğu ariyalardan aldığım zövqü heç bir ifaçıdan,hətta Luçano Povarratti kima azman bir ifaçının ifasından da ala bilmədim.Xalq mahnılarımızı onun qədər həzin,şirin oxuyan barmaqla sayılası xanəndələrimiz var.Ölməz Üzeyir bəyin əsərlərinin Bülbüldən və Rəşid Behbudovdan sonra ən böyük ifaçısı da mənim üçün Toğrul Nərimanbəyov idi.

***

Tale bizə bəzən böyük xöşbəxtliklər nəsib edir.Müasirimiz olan dahilərlə görüşmək,ünsiyyətdə olmaq,ya da sadəcə olaraq onları görmək xöşbəxliyi.Axı,ömür insana yalnız bir dəfə verilir,ömrüm möhlətini isə Allahdan başqa kimsə bilmir.Rəşid Behbudovu,Müslüm Moqamayevi,Toğrul Nərimanbəyovu...görən,onlala bir iki kəlməlik də olsa söhbət edən- müasirim olan insanları mən xöşbəxt insanlar adlandırardım.Və nə yaxşı ki,tale məni Toğrul Nərimanbəyovla görüşməyi nəsib edib.Bu görüşlərin bi-



rincisi ötərgi olub.Keçən əsrin 70-ci illərinin axırları idi.Bakıya qar yağmışdı.Azneft adlanan meydandan- Bulvara tərəf gedən yolda onu tələsik addımlarla harasa gedən gördüm.İndiki kimi yadımdadır; əyninə qəhvəyi rəngli,uzun dəri plaş geyinmişdi.Başında dama-dama kepka.Sol əlini ona xüsusi görkəm verən saqqallı çənəsində düyünləmişdi.Tələsik addımlarla,fikirli halda harasa tələsirdi.O qədər fikirli idi ki,ətrafda dayanıb maraqla onu izləyən insanları belə sanki görmürdü.O cümlədən üç addımlığında olan məni də...

İkinci dəfə onu 1986-cı ilin payızında,böyük şairimiz Bəxtiyar Vahabzadənin- Azərbaycan Dövlət Dram Teatrında keçirilən 60 illik yubileyində görmüşəm,həmin yubiley gecəsində mən də iştirak edirdim.Toğrul Nərimanbəyov birinci cərgədə,Rəşid Behbudovla yanaşı əyləşmişdi.Sonralar,Lüksemburqda yaşayarkən dostlaşdığı mütəfəkkir yazıçı Çingiz Aytmatov da həmin təntənəli gecədə iştirak edirdi...Təəssüf ki,həmin unudulmaz gündə də Toğrul Nərimanbıyovla görüşmək,sadəcə olaraq bu böyük rəssamın heç olmzsa əlini sıxmaq imkanim olmadı...

Üçüncü dəfə isə...1987-ci ilin iyun ayı idi.İşimlə əlaqədar olaraq məni Bakıya,10 günlük seminara çağırmışdılar.Bakıya gəldiyimin 3-cü,ya da 4-cü günü idi.Həmin gün atam da Bakıya gəlmişdi.Atamla birlikdə Xaqani küçəsində yerləşən Yazıçılar İttifaqına gəldik.Atam Yazıçılar İttifaqına getdi.Mən isə o vaxtki 26-lar bağında dayanıb atamı gözləyirdim.Bu zaman "Azərbaycan" mehmanxanası tərəfdən Toğrul Nərimanbəyovun gəldiyini gördüm.O zaman da,indi də Toğrul Nərimanbəyovu mən təkcə Azərbaycanın yox,dünyanın ən maraqlı şəxslərindən biri hesab etmişəm...Mən onunla hökmən görüşməli,söhbət etməli idim.Həm də ondan avtoqraf almaq istəyirdim.Amma üstümdə nə qələm var idi,nə albom.Toğrul Nərimanbəyov da məni görmüşdü,iti fəhmi ilə,deyəsən keçirdiyim hissləri də başa düşmüşdü...Tələsik yaxınlıqdakı köşkə tərəf qaçdım; köşk yolun əks tərəfində yerləşirdi,maşınlar belədən belə şütüyürdü və onların hərəkətinə mane olduğum üçün məni siqnal atəşinə tutmuşdular.Hətta sürücülərdən deyinənlər də vardı.Köşkün qarşısında bir neçə adam var idi.Tələsik onlardan üzr istəyib bir diyircəkli qara qələm və qəhvəyi meşin cildli bir blaknot aldım.Bütün bu müddətdə bir gözüm Toğrul Nərimanbəyovda da idi.O da mənim qəribə hərəkətlərimə baxa-baxa yoluna davam edirdi və azca geciksəydim o,əks istiqamətdəki yolu keçib o vaxtki 26-lar metrosunun qarşısındakı qələbəlikdə gözümdən itə bilərdi...Aldıqlarımın pulunu verib tələsik geri döndüm.Yenə də maşın siqnallarının səsi,mənim təhlükəli hərəkətimdən deyinən sürücülər...Yolun əks tərəfinə adladım...Və artıq Togrul Nərimanbəyovla üz-üzə idim:

***-Salam Toğrul müəllim- dedim.***

***Toğrul Nərimanbəyov gülümsəyərək:***

***-Salam- dedi.***

***-Toğrul müəllim,mən Sizin sənətinizin pərəstişkarıyam.***

***Toğrul Nərimanbıyovun üzündə həmin ifadə:***

***-Gördüm-dedi.***

***-Lap uşaqlıqdan haqqınızda yazılan bütün kitabları,məqalələri oxumuşam,evimizdə Sizin albomlarınız var.Tez-tez Sizin albomlara baxı-***



***ram- Həyəcanlı idim.Sözləri tələsik,birnəfəsə deyirdim.***

***-Çox sağ olun,təşəkkür edirəm.***

Bu vaxt bir nəfər bizə yaxınlaşdı.Toğrul Nərimanbəyovla,sonra da mənimlə görüşdü.Bu məşhur jurnalist Nurəddin Babayev idi.Nurəddin müəllim Toğrul Nərimanbəyova bir neçə xoş,isti sözlər dedi.Nurəddin müəllim çox səmimi insan idi.Bu səmimiyyət onun şirin danışığında xüsusi ilə nəzərə çarpırdı.Nurəddin müəllimin dediyi bütün sözlərin ürəkdən gəldiyi şübhəsiz idi.

***-Xalq Sizi çox sevir Toğrul müəllim- Nurəddin müəllim sanki bütün dediklərinə yekun vururmuş kimi dilləndi.***

***-Təşəkkür edirəm- Toğrul Nərimanbəyov Nurəddin Babayevə təşəkkür edib yenidən mənə döndü:***

***-Harada yaşayırsınız?- deyə məndən soruşdu.***

***-Neftçalada.***

***-Adınız nədir?***

***Adımı dedim.Yenədə də Toğrul Nərimanbəyov haqqında bir neçə xoş söz deyib bayaq köşkdən aldığım blaknotu,qələmlə birlikdə ona uzatdım.***

***-Xahiş edirəm bura yadigar nəsə çəkin- dedim.***

Togrul Nərimanbəyov qəribə bir şəkildə -Oy- deyib gülümsədi və blaknotla qələmi məndən aldı.

Elə bil Nurəddin Babayev mənim şəxsimdə bir az əvvəl dediklərinin təsdiqini tapmışdı:

***-Görürsünüzmü Toğrul müəllim,bir az əvvəl -Sizi xalq sevir- deyəndə belə insanları nəzərdə tuturdum- dedi.***

***-Narla aran necədir? -deyə Toğrul Nərimanbəyov məndən soruşdu.***

Mən o dəqiqə başa düşdüm.Nar onun tablolarında bir simvolik məna daşıyırdi.

***-Əla -dedim.***

Qələmi vərəqin aşağı tərəfinə gətirdi və vərəqin aşağı tərəfindən çəkməyə başladı.Elə maraqla çəkirdi ki...Mən heyranlıqla onun qələm tutan əlinin "rəqsinə" baxırdım.Heyrətamiz idi.Nar rəsmini çəkib bitirəndən sonra:

***-Bəs dağla aran necədir?- deyə soruşdu və cavab gözləmədən dağ şəkli çəkdi..***

***-Buludsuz dağ olar?..***

Bu dəfə öz sualına özü cavab verərək:

***-Əlbəttə yox- dedi. Və buludları da çəkəndən sonra:***

***-Demək adın Etibardır - deyib vərəqin uc tərəfinə "Gxtibara" sözünü yazdı (Qəribədir,Vaxilə Rəşid Behbudov da mənə avtoqraf verəndə adımı Etibar yox,Gxtibar yazmışdı).Toğrul Nərimanbəyov sonra da öz imzasını yazdı.***

Şəkil (avtoqraf) hazır idi.

***-Bilirsən,bu narla buludlu dağlar (çəkdiyi şəklə işarə etdi) mənim vizit kartımdır.Elə hesab elə ki,mən Sənə həm də öz vizit kartımı verirəm- dedi.***

***-Çox sağ olun- dedim- Amma Toğrul müəllim,mən elə bilirdim Sizin vizit kartınız təkcə nardır.***

Yenə də bayaqki kimi -Oy- deyib bu dəfə qəhqəhə çəkib güldü:

***-Elə isə qoy sənin üçün ayrıca bir nar şəkli də çəkim- deyərək vərəqi qatladı,növbəti səhifəyə bütün vərəq boyunca bir nar şəkli çəkdi,tarixi yazdı və imza qoydu.***

Mən blaknotu alıb bir daha:

***-Təşəkkür edirəm,sağ olun- dedim.***

O,əlini mənə uzatdı:

***-Əgər istərsən emalatxanama gəl- dedi.***

Sonra Nurəddin müəllimlə görüşüb yoluna davam etdi.

Mən ondan sonra Toğrul Nərimanbəyovu görmədim.Xaricə köçdü.Hər Bakıya gələndə və mən bundan xəbər tutanda onunla görüşmək istədim.Amma qismət olmadı.

**...Dünən isə,yəni 2013-cü ilin 8 iyununda,televiziyada onun ölüm xəbərini eşitdim.**

**Heyf...Çox heyf...**

**NEFTÇALA.**
**9 iyun 2013**

# Əmir Teymurun Qarabağ sevgisi

## *(Beyləqan şəhərinin yenidən bərpasının 620 illiyinə)*



***Akif Azalp***
***Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan-Özbəkistan Dostluq Cəmiyyətinin İdarə Heyətinin sədri***

***"Güc - ədalətdədir!"***

***"Biz kim, məliki-Turan, əmiri Türküstan, millətlərin ən uluğu bolğan türknün baş boğunumuz!"***

***Əmir Teymur Korağan***

**Son illərdə türkdilli dövlətlər rəhbərlərinin, xüsusən, Türkiyə, Azərbaycan və Özbəkistan Prezidentlərinin ikitərəfli və çoxtərəfli görüşlərdəki çıxışlarında diqqəti yaxından cəlb edən türk birliyi ideyası və böyük Turan idealı mədəniyyətimiz tarixinin ortaq maraqlarla bağlı bir sıra məsələlərinə yeni və çağdaş baxışı gündəmə gətirməkdə.**

Bu mənada və bu müstəvidə dünya tarixinin ən böyük şəxsiyyətlərindən biri olan Əmir Teymurun (1336-1405) fəaliyyətini obyektiv və hərtərəfli qiymətləndirmək üçün "Əmir Teymur və ümumtürk İntibahı", "Əmir Teymur və Turan mədəniyyəti", "Dünya ədəbiyyatı və incəsənətində Əmir Teymur obrazı", "Dünya tarixində Əmir Teymurun yeri və mütərəqqi rolu" kimi mövzuları yenidən və dərindən işıqlandırmaq çağdaş elmimizin və dövrümüzün qarşısında duran ən mühüm və aktual vəzifələrdən biri sayılmaqda. Yeri gəlmişkən, Özbəkistan Prezidentinin aşağıdakı siqlətli tezisi bu sahədəki yeni yanaşmalar üçün artıq bir məşəl rolunu oynamaqda:

"On beşinci əsrdə Sahibqiran Əmir Teymur babamız əsasını qoyan və onun layiqli varisləri davam etdirən möhtəşəm səltənət yurdumuzda İkinci İntibah, yəni İkinci Renessans dövrünü başladı". (Baxılsın: Rəfiqov Q. Mənim Prezidentim! - Daşkənd," Akademnəşr", 2021, s.254)

Əsrlər ərzində Əmir Teymurun nüfuzuna ləkə vurmaq məqsədi ilə Foma Metsopski başda olmaqla, bədnam erməni "tarixçi"lərinin və onların dəyirmanına su tökən Qərb tədqiqatçılarının qərəzli niyyətlərinə gəlsək, onların böyük cahangiri "zalımlıqda və qəddarlıqda" suçlamalarına ən tutarlı cavabı elə görkəmli Qərb alimlərinin özləri veriblər. Belə ki, A.Vamberi, V.Bartold, L.Keren kimi elmi nüfuz sahiblərinin və başqa tanınmış şərqşünasların fikrinə görə hər cür qondarma miflərlə və uydurma dəlillərlə dünyanın müxtəlif yerlərində dağıdılması Əmir Teymurun adına çıxılan bir sıra memarlıq abidələri və erməni-yunan kitabxanaları böyük cahangirin özündən bir neçə əsr sonra da heç bir xəsarət almadan öz mövcudluğunu davam etdirir (Baxılsın: Vamberi A.Puteşestviye po Sredney Azii, Moskva, "Vostoçnaya literatura", 2003, s.153; Ataev T.Fenomen Amira Timura (Vzqlyad iz dnya seqodnyaşneqo), Taşkent, "Bilim və intellektual səlahiyyət" 2019, s.91-94 və s. və i.a.)

O başqa məsələdir ki, Əmir Teymur, hər şeydən öncə, mərkəzləşmiş türk dövlətini və Turan səltənətini yenidən bərpa etmək (Alp Ər Tüngədən - Əfrasiyabdan sonra) uğrunda mübarizə aparırdı və bu böyük amal yolunda əsasən türk mənşəli xalqlar yaşayan bölgələrdə, qismən təhlükə törədən başqa yerlərdə qarşısına çıxan hər hansı maniəni, yaxud müqavimət göstərən və onun təklifləri ilə razılaşmayan hər hansı qüvvəni öz dövrünü tələbləri və şərtlərinə uyğun olaraq, ən sərt şəkildə olsa belə, aradan qaldırmağa məcbur idi. Əsas mövzumuzdan uzaqlaşmamaq üçün burada yalnız bir misalla kifayətlənməməli olacağıq. Məsələn 1386-cı ildə Əmir Teymur öz ordusu ilə Təbrizdə olarkən gürcü qoşunlarının artıq cahangirin himayəsində olan Naxçıvana hücum etdiklərini eşidib qəzəblənir və Kaxetiyaya qoşun yeridib, gürcü qüvvələrini darmadağın etməli olur (Baxılsın: Ataev T. Göstərilən əsəri, s.85-87). Bir sözlə, sonuncu cahangirin ömürboyu hansı amal uğrunda çarpışdığına və fəth etdiyi yerlərdə dinc əhali ilə necə rəftar etdiyinə əmin olmaq üçün uzağa getmədən onun öz diktəsi ilə yazılan "Teymur tüzüyü" (Tüziki-Timur) traktatını diqqətlə nəzərdən keçirmək yetərlidir (Ulojenie Timura, predislovie k izdaniyu faksimile" Ulojenie Timura" akad.İ.Muminova, Taşkent, izdatelstvo "Fan", 1986, 144 str.)

Xoşbəxtlikdən, bir özbək deyimində söyləndiyi kimi," ayı ətək altında gizlətmək olmaz", yəni həqiqəti tamamilə itbata salmaq mümkün deyil. Belə ki, Əmir Teymurun fəth etdiyi bir çox yerlərdə, o cümlədən, Azərbaycanda ciddi quruculuq və abadlıq işləri ilə məşğul olması bir sıra mötəbər tarixi mənbələrdə silinməz izlər buraxmışdır. Bu diqqətəlayiq xeyirxah addımlardan biri də Azərbaycan mədəniyyətinə Beyləqani təxəllüslü neçə-neçə şair və mütəfəkkirlər bəxş etmiş, arxeoloji tapıntılarının qədimliyi və zənginliyi ilə yurdumuzun ən qədim yaşayış məskənlərindən sayılan və 1221-ci ildə monqol istilaçıları tərəfindən yerlə yeksan olunmuş məşhur Beyləqan şəhərinin (Baxılsın: Bartold V.V.Soçineniya, tom VII, Moskva," Nauka", 1971, s.214) Əmir Teymur tərəfindən yenidən bərpa edilməsi ilə bağlıdır.

Ən kütləvi elmi nəşrlərdə belə öz əksini tapan bu danılmaz faktı (Azərbaycan Sovet və Azərbaycan Milli Ensiklopediyalarının "Beyləqan" məqalələrinə baxılsın) sovet dönəmində ilk dəfə geniş şəkildə elmi dövriyyəyə gətirən tanınmış Azərbaycan arxeoloqu Q.M.Əhmədov olmuşdur. Alim "Sovetskaya arxeologiya" jurnalının 1964-cü il, 1-ci sayının 272-281-ci səhifələrində yer alan "Beyləqan şəhərinin "Teymur divarı" haqqında" adlı məşhur məqaləsində qədim Beyləqanın (başqa adı-Örən-qala) hər iki hissəsi (Böyük şəhər, Kiçik şəhər) və hər iki divarı barədə ətraflı məlumat verdikdən sonra Əmir Teymurun saray tarixçisi Şərəfəddin Yəzdinin fikirləri əsasında 1403-cü ildə Əmir Teymur qışı Mil düzündə keçirərkən onun Beyləqan şəhərini yenidən bərpa etmək qərarına gəldiyini bildirir və bir ay içində Əmir Teymur ordusu tərəfindən ucaldılan qala divarının uzunluğu, eni və hündürlüyünün dəqiq ölçülərini göstərir.

Ancaq biz sözügedən məsələdə diqqəti Əmir Teymurun Qərbdəki bədxahları üçün daha obyektiv və daha bitərəf sayılan və demək olar ki,indiyə qədər diqqətdən kənarda qalan başqa bir mötəbər tarixi mənbəyə - 1403-1406-cı illərdə Kastiliya krallığının Əmir Teymur sarayındakı elçisi, məşhur ispan diplomatı Rui Qonsales de Klavixonun səyahət gündəliyinə yönəltmək istəyirik (Baxılsın: Klavixo R.Q.Dnevnik puteşestviya v Samarkand ko dvoru Timura (1403-1406), Moskva," Nauka", 1990)

Ümumən Əmir Teymur şəxsiyyəti və fəaliyyəti ilə bağlı zəngin material verən bu qiymətli əsərdə böyük cahangirin Qarabağın təbiətinə və iqliminə heyranlığı dəfələrlə vurğulanır (s.25, 62, 67, 149 və s.) Ancaq bizi maraqlandıran əsas məsələ nöqteyi-nəzərindən ispan diplomatının aşağıdakı sözləri ayrıca əhəmiyyət kəsb edir:

"...Teymurbek hər il (! - nida işarəsi bizimdir - A. A.) Qarabağın bu yerlərində qışlamağa gəldiyi üçün burada şəhər salmağı buyurdu,həmin şəhərdə indi iyirmi mindən artıq ev var (Klavixo R.Q. Göstərilən əsəri, s.151)".

Ad çəkilmədiyi üçün ilk baxışda söhbətin hansı şəhər haqqında getdiyi qaranlıq qalır. Amma əsərin orijinaldan tərcüməçisi, ön söz və izahlar müəllifi İ.S.Mirokova akad. V. V. Bartolda istinadən gündəliyin sonundakı 508-ci izahda bu mətləbə aydınlıq gətirir:

"Monqollar tərəfindən 1221-ci ildə dağıdılmış və Teymur tərəfindən 1403-cü ildə bərpa olunmuş Arandakı Beyləqan şəhəri nəzərdə tutulur. Şərəfəddin Yəzdiyə görə (IV, 118), o, Kür çayı ilə kanalla birləşdirilmişdir (Klavixo R.Q.Göstərilən əsəri, s. 196)".

Son illərdə Əmir Teymur şəxsiyyəti və fəaliyyətinə yeni və çağdaş baxış sərgiləyən nəşrlər arasında istedadlı soydaşımız Teymur Ataevin Daşkənddə (2019) rus dilində çapdan çıxan" Əmir Teymur fenomeni (Bu günümüzdən baxış, ön söz müəllifi - Ş.Salamov) kitabı diqqəti yaxından cəlb edir. Amma, çox təəssüf ki, bir mənbə kimi yuxarıda bizim də istinad etdiyimiz bu maraqlı kitabın bəzi səhifələrində publisist həvəskarlığı alim peşəkarlığını açıq-aşkar üstələyir. Tədqiqatımızın mövzusuna birbaşa əlaqədar olduğu üçün belə məqamlardan ikisinin üstündən sükutla keçmək çətindir.

Birincisi, müəllif əsas mənbələrlə yetərincə tanış olmadığından, yaxud onlara yetərincə diqqət yetirmədiyindən Beyləqanı Balakənlə qarışıq salır və arxeoloq Q. Əhmədovun Örən-qala (Beyləqan) ilə bağlı arxeoloji təhlillərini Balakənə aid edir (Ataev T. Göstərilən əsəri, s. 110-111).

İkincisi, görünür, etibarlı mənbə kimi kitablardan daha çox internet resurslarına istinad etdiyi üçün müəllif öz kitabının bir səhifəsində hakimiyyət uğrunda mübarizədə Əmir Teymurun ən böyük rəqiblərindən olan Əmir Hüseynin gələcək cahangirlə döyüşdə öldüyünü bildirirsə (s.16), növbəti səhifəsindəcə onun "qan davası"nın qurbanı kimi başqaları tərəfindən öldürüldüyünü vurğulayır (s.17) və s. və i.a.

**Bütün bunlar bir daha onu göstərir ki, Əmir Teymur haqqında var həqiqəti üzə çıxarmaq və məqaləmizin əvvəlində vurğulanan mövzuları hərtərəfli və dolğun şəkildə işıqlandırmaq hər kəsdən öncə peşəkar tarixçilərin, filoloqların və kulturoloqların üzərindəki vəzifədir.**

# Yaxşı əməl mükafatını almasa...

**Ömrümün 85-ci payızını yaşayıram. Payız mənim üçün başqa bir fəsildir. Həm rəngi, əlvanlığı, həm də təbiətin müxtəlif çöhrəli ahəngi, ritmilə... Payız həm də bar-bərəkət fəslidir. Elə bu barı, bərəkəti insan ömrünün özünə də aid etmək olar. 85 il heç də az sənə deyil - böyük bir ömür təcrübəsidir. Hər zaman Allahdan möhlət istəmişdim ki, zəfər günlərinə qədər dözüm, yurduma qovuşum. 30 ilin həsrətini, nisgilli yaralarının ağrısını canımdan çıxarım. Nəhayət zaman yetişdi, zəfər günlərini də gördüm.**

Fədakar ordumuzun, qəhrəman qazi və şəhidlərimizin, ali baş komandanımız, təcrübəli sərkərdə İlham Əliyevin və bütövlükdə xalqımızın möhtəşəm birliyi sayəsində Azərbaycanın qəti qələbəsinin şahidi oldum. Gedib doğulduğum Ağdam torpağını da ziyarət etmək nəsibim oldu.

Bu nə qədər xoşbəxt anlar idisə, mənim üçün bir o qədər də gərgin və ağrılı anlar idi.

Quzanlıdan Şahbulağa qədər olan əraziləri avtobusla qət etdik. Avtobusun pəncərəsindən doğulduğum torpağın xarabalıqlarını gördükcə göz yaşlarımı saxlaya bilmir, içimə hönkürürdüm. Böyük bir şəhər tarimar edilmiş, bu şəhərin qədim kəndləri də barbarlıqla yer üzündən silinmişdir.

Dünyanın möcüzəli yerlərindən biri olan Ağdam şəhərimdən də bir iz, bir nişanə qalmamışdı.Ərazilərdəki bütün yaşıllıqlar məhv edilmiş, nəhəng tarixi olan ağaclar da kökündən doğranılıb daşınmışdır.

Mədəni irsimiz talan edilmiş, abidələr, məscidlərimiz, məktəblərimiz, mədəniyyət, səhiyyə ocaqları, muzeylər sanki heç əzəldən yerli-dibli yoxmuş. Düşmənin nə qədər amansız və vəhşi olduğunu bir daha bu səyahət zamanı gözümlə gördüm. Lakin onu da deməliyəm ki, qəlbimin bir tərəfi sızlasa da, digər bir tərəfi fərəh hissiylə dolurdu. Biz torpaqlarımızı azad etmiş, düşməni qovub yurdumuzdan çıxarmışdıq. İndi Qarabağ böyük bir tikinti meydanına çevrilməkdədir. Yeni abadlıq işləri Şuşada, Kəlbəcərdə, Laçında, Zəngilanda olduğu kimi Ağdamda da böyük vüsət alıb.

Bu işlərin ləyaqətlə icra olunmasında Ağdam rayon İcra Hakimiyyətinnin başçısı Vaqif Həsənovun da xidmətləri danılmazdır. Mətbuatı mütəmadi izləyən adamam. Bir çox hallarda dövlət məmurlarının haqlı tənqidi ilə qarşılaşıram. Lakin düşünürəm ki, hamı pis ola bilməz. Bu pislərin içərisində olan yaxşıları da o pislərə qurban vermək olmaz. Gördüyün yaxşı işə, yaxşı əmələ, yaxşılığa görə sadə şəkildə heç olmasa təşəkkür etməyi gərək unutmayasan. Yaxşılıq cəmiyyətdən öz mükafatını almasa, daim seyrələr, budanmış, yarpağı tökülmüş ağaca bənzər. Ona görə də bu yazımda rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənova təşəkkürümü bildirmək istəyirəm.

Artıq bir neçə ildir - 28 avqust 2018-ci ildən Vaqif müəllim rayon rəhbərliyində çalışır - təkcə dövlət məmuru kimi yox, həm də yurudmuzun, elimizin-obamızın ağsaqqalı kimi hamımız onu çox istəyirik. başqa icra məmurlarının qəbuluna gedəndə olduğu kimi saatlarla gözləyib növbə tutmuruq. Bu qapı hər kəsin üzünə açıqdır - şəhid ailələrinə, qazilərə, aztəminatlı ailələrin hər birinə xüsusi, fərdi diqqət, qayğı göstərilir, onların həyat, məişət problemləri mümkün qədər tez bir zamanda həll olunur.

Mən özüm də şəhid atasıyam. Oğlum Bəhruz I Qarabağ Savaşında mərdliklə döyüşərək şəhadətə yüksəlib. Bir şəhid atası kimi Vaqif müəllimdən çox razıyam.

Təkcə mənə göstərdiyi diqqət və qayğıya görə yox, bütövlükdə Ağdam rayonuna etdiyi rəhbərlikdən, gördüyü işlərindən razıyam. Yolum tez-tez Quzanlı qəsəbəsinə düşür, hər dəfə gedəndə bu qəsəbəni daha abad, daha yaşıl görürəm.

Çünki rayon rəhbərliyinin tapşırığına əsasən qəsəbədəki yararsız vəziyyətdə olan evlər bərpa olunur, aztəminatlı ailələrə daim yardım edilir, şəhid və qazi ailələri evlə təmin olunur.

44 günlük Vətən savaşında da Vaqif müəllim xalqın yanında idi. O zaman da əhalinin ən zəruri ehtiyaclarını ödəməyə çalışırdı. Ərzaq təminatı, fasiləsiz işıq-qaz, çörək, dərman və s-lə təmin olunmasının şahidiyəm. O, tez-tez vacib təsərrüfat sahələrinə baş çəkir, rayon ərazisində heç nəyi nəzarətdən, diqqətdən kənarda saxlamırdı.

Vətən savaşı zamanı gələn şəhidlərimiz də onun rəhbərliyi altında böyük ehtiramla qarşılanır, torpağa tapşırılırdı.

Bir neçə dəfə Vaqif müəllimin qəbulunda olmuşam. Hər dəfə də köməyini əsirgəməyib. İnanıram ki, o, bütün rayon əhalisinin qayğılarına şərikdir və hər zaman dövlətimiz və millətimiz naminə fədakarlıqla çalışır. İnanıram ki, bu səliqə-sahman, bu qayğıkeşlik gələcəkdə də uğurla davam etdiriləcək. Mənfur düşmənin altını üstünə çevirdiyi




torpaqlarımızın üzü yenidən güləcək.

İndi məmləkətimizin hər yerində olduğu kimi Ağdam bölgəsi də payız çağındadır. Ağdamın baharı isə qarşıdadır. Növbəti bahara qədər bu ərazilərdə təməli qoyulmuş bir çox sənaye və tikinti obyektlərinin - muzeylər, məktəblər, xəstəxana, atçılıq zavodu və digər mədəni-maarif ocaqlarının tikintisi uğurla başa çatacaq.

Xalqımızın qəlbi Vətən savaşında olduğu kimi yenə də Ali baş Komandanımızla birgə döyünür. Harda birlik varsa, orda dirilik var deyiblər. İşğaldan azad olunmuş bütün ərazilərimiz dirçəliş dövrünə qədəm qoyub.

Çox sevinirəm ki, 30 illik həsrətdən sonra böyük zəfərimizi və yurdumuzun dirçəliş dövrünü öz gözümlə görə bildim.

Bunun üçün yeri gələndə bir yumruq kimi birləşməyi bacaran xalqımıza, müzəffər ordumuza, Ali Baş Komandanımız cənab İlham Əliyevə, ölkənin birinci xanımı Mehriban xanım Əliyevaya və ölkə prezidentinin tapşırıqlarını ləyaqətlə yerinə yetirən, ona göstərilən etimadı doğruldan Vaqif Həsənov kimi icra başçılarına hədsiz təşəkkür və minnətdarlığımı bildirirəm.

**İnsanı, cəmiyyəti yaşadan inamdır. Xalqın başında duran, cəmiyyəti idarə edən adamlara inamımız olmasa, heç biz də yaşaya, fayda verə bilmərik.**

**Xuduş Ağdamlı,**
**şəhid atası**



Əbülfət MƏDƏTOĞLU

# Səyavuş Sərxanlı ilə səsdən danışdıq

## Dədə Süleymanın səsindən...

*Sizi deyə bilmərəm, mənə görə SƏS özü İlahi bir möcüzədi və bu möcüzə də hər kəsin bəxtinə düşmür, yazılmır. Doğrudu, indi özünü hər cür səslərlə epitetləşdirən, guya qızıl, nəbilim gümüş, brilyant səslərə sahib olduqlarını bəyan edənlər get-gedə çoxalır. Amma Allahın verdiyi ilahi səs yalnız xalqın sevdiyi, xalqın təşnəsi olduğu səslərdi. Belə səslər zaman-zaman dinləyicini özünə çəkib və o səs də dinləyici ömrü qazanıbdı. Bu mənada Azərbaycanın musiqi tarixində qeyri-adi səsləri ilə seçilən Cabbar Qaryağdı, Segah İslam, Seyid Şuşinski, Xan Şuşinski, Bülbül, Müslüm, Rəşid Behbudov, Yaqub Məmmədov, Arif Babayev, Qədir Rüstəmov, İslam Rzayev... Və bu gün də bu silsilə davam edir. Mənim üçün bu səslər xəzinəsində özəl yeri olan və xalq tərəfindən də "Dədə" titulu qazanmış Süleyman Abdullayevdir. Mən Dədə Süleymanın səsinin təkcə pərəstişkarı yox, həm də dəlisiyəm. Onunla olan söhbətlərim, yazdığım müsahibələr, birlikdə iştirakçısı olduğum tədbirlər... günlərlə ediləcək söhbətin mövzusudur. Dəlisi olduğum Dədə Süleymana yazdığım şeirlərim də var.*

*Son günlər Dədə Süleymanın səhhəti ilə bağlı eşitdiklərim, oxuduqlarım məni onun əmin olmuşam ki, Allahın verdiyi bu möcüzə səsi bir orta boylu, o qədər də diqqətçəkən fiziki bədən quruluşu olmayan KİŞİNİN daxilində yaşayır və Allah da o möcüzəni bu bədəndə yaşatmaqla bərabər , Dədəyə onu bizlərə çatdırmaq istedadını da hədiyyə edib. Deməli, səsin möcüzəsini yalnız canı, qanı, ruhu, ürəyi, bütün varlığı musiqi olan adamlar yarada bilirlər. Onlardan biri də Dədə Süleymandır. Elə Səyavuş Sərxanlı da bunun bütün çalarlarını bildiyindən öz ürəyinə meydan açıb. O ürək o səslə bir döyünübdü və:*

*Zümrüd qanadını seçdi vətəndən,*
*Bir atlı qoşuntək keçdi vətəndən.*
*Səni səndən aldı, məni də məndən,*
*Sellərin yönünü tellərə saldı.*

*Doğrudu, o səs mənim də içimdən gəlib keçir və inanıram ki, mən də tək deyiləm. Dədənin səsini içindən, köynəyindən keçirən minlərlə, on minlərlə dinləyicisi var. O dinləyicilər o səsi yaşadanlardı. O səsi yaşadanlar da Dədənin özünə Allahdan ömür diləyənlərdi. Bax, bu bir-birinə bağlı məqamlar səsin möcüzəsindən qidalanır. Səsin sehrini dinləyicilərə, bizlərə təsirindən mayalanıb. Mən də*





*səsinə kökləmişdi. Elə o səsin müşayiəti ilə də kitab rəfimin qarşısında dayanıb layihəm üçün şair dostumun, yəni mərhum Səyavuş Sərxanlının "Məni soruşan olsa..." kitabını vərəqləyirdim. Birdən diqqətimi onun Süleyman Abdullayevə həsr etdiyi "Süleyman "SEGAH"I" çəkdi. İnanın ki, bunu bir xoş təsadüf yox, həm də möcüzə saydım. Elə bil ki, Dədənin səsi məni bu şeirə çəkib gətirmişdi. Yeri gəlmişkən, qeyd edim ki, rəhmətlik Səyavuş Sərxanlı ilə ara-sıra görüşürdük, zəngləşirdik, dərdləşirdik və onun vaxtsız ölümü doğmaları, dostları kimi mənim üçün də ağır itki olmuşdur. Özünəməxsus təbiəti olan Səyavuş Sərxanlı çox az-az hallarda öz yaradıcılığından, şeirlərindən danışardı mənə. Daha çox oxuduqlarını, mütaliələrini xatırladırdı və bir də publisist yazılarının müəyyən qismini mənə göndərərdi ki, "Ədalət"də çap olunsun. Ona görə də onun Dədə Süleymana şeir yazdığını öncədən bilməmişdim. Onun kitabında bu şeirə rast gələndə ruhuna sonsuz dualarımla və bir də böyük maraq və sevgi ilə oxudum. Gördüm ki, Səyavuş Sərxanlının şair ruhu məni də özünə yol-yoldaşı edir. Və birlikdə Dədə Süleymanın "Segah"ına qulaq asırıq:*

*Yarəb! Bu nə səsdi, yandı ağız, dil,*
*Həsrətin yolunu ilərə saldı!*
*Sökülən bir sinə, tikilən bir el*
*Adımı-sanımı dillərə saldı!*

*Həqiqətən Tanrıma, Rəbbimə müraciətlə yazılan bu misralar adamın içini sirkələyir, ürəyini səksəndirir və bütün diqqətini Dədənin səsinə, onun "Segah"-ına yönəldir. Özündən asılı olmadan düşürsən "Segahın" toruna və bir də görürsən ki, səs səni alıb aparıb göyün üzünə. Bax, o məqamın içində də mən Dədə Süleymana yazdığım şeirlərdən birini xatırlayıram. Az qala Səyavuş Sərxanlının ruhunun pıçıltısının əks-sədası kimi deyirəm:*

*yenə avazının toruna düşdüm*
*üşüdü sümüyüm, üşüdü canım*
*bilmədim dünyadan heç, necə köçdüm -*
*qaldı ortalıqda nəfəssiz canım!*

*Bəli, bu, bir gerçəkdi, bu, həm də bir möcüzədi. Onu, o gerçəkliyi, o möcüzəni də bizə yaşadan, bizə hopduran Dədənin səsidi, onun "Segah"ıdı, onun "Çahargah"ıdı. Elə bil ki, təkcə ruh, ürək yox, bütün bədən o səsi yaşayır, hiss edir və adam xəyalən özünün doğum günündən bu səsi eşitdiyi ana qədər bir yol gəlir. İndi təsəvvür edin ki, həmin yol boyu sizi həm Dədənin səsi, həm də Səyavuşun misraları müşayiət edir:*

*Arazın yolunu daşdan eylədi,*
*O tayı, bu tayı huşdan eylədi,*
*Durna qatarını köçdən eylədi,*
*Yolundan ayırıb göllərə saldı.*

*Görün, nə qədər düşündürücü, nə qədər həssas və nə qədər də səmimi duyğulardı, hislərdi, yaşamdı. Burda söhbət təkcə Arazın həsrət qınağı olmağı, durna qatarının köçü obrazlaşdırılmayıb. Burda həm də həmin o hisləri Dədənin səsində, avazında görmək qabiliyyəti də önə çıxıbdı. Deməli, səsin möcüzəsi budur və bu möcüzənin assosiasiyası da mənim misralarımda boy göstərməyə çalışıb:*

*yerdən də, göydən də xəbərsiz oldum*
*eləcə o avaz apardı məni*
*elə hərəkətsiz, təpərsiz oldum -*
*o avaz kökümdən qopardı məni!..*

*Bilmirəm, siz belə məqamlar yaşamısız, yoxsa yox, amma həqiqətən səsin qüdrəti danılmazdı, səsin gücü ölçüsüzdü, səsin surətinin dinləyiciyə və Tanrıya yetişmək imkanı bilinməzdi. Bunu mən öz həyatımda Dədənin səsinin timsalında yaşamışam, görmüşəm və Səyavuş kimi elə həmin ovqatda da şeirimi davam etdirirəm:*

*uçdum o avazın qanadlarında*
*dünyanın bəxtəvər bəndəsi kimi...*
*mənim inancım da, inadlarım da*
*göyərdi son ümid zərrəsi kimi...*

*Həqiqətən, möcüzə səsin ümid olduğunu da Dədəni dinləyəndə özüm üçün kəşf etdim. Onda bir daha inandım ki, bu səs Qarabağsız, Şuşasız, Füzulisiz, Qoçəhmədlisiz, Tuğsuz qala bilməz.*

*Bu səs mütləq bütün Azərbaycanın hər yerini gəzib dolaşıb, bütün dünya türklərinin, musiqisevərlərinin könlündən keçib yenə doğulduğu ünvana - Qoçəhmədliyə gələcək. Gələcək ki, yeni-yeni möcüzə səslərin yaranmasına ümid olsun, təkan olsun. Bu yerdə də sözün Səyavuş Sərxanlısı elə bil ki, mənim düşüncələrimi, fikirlərimi davam etdirir və yazır ki:*

*Bir səməndər kimi girdi odlara,*
*Yandı tariximə, yandı adlara,*
*Zəngulə oxunu atdı yadlara,*
*Sarı sim mehrini ellərə saldı.*

*İndi bir gerçəyi də diqqətə təqdim etmək istəyirəm. Yəni Səyavuş Sərxanlının Dədənin səsinin timsalında dediyi, daha doğrusu yazdığı bir məqamı da özüm bildiyim kimi şərh etmək istəyirəm. Bəllidir ki, düşmənlərimiz Azərbaycan mədəniyyətinə də göz dikib, bizim tariximizin incilərini özününküləşdirdikləri kimi, musiqimizə də əl uzadıblar. Bax, bu mənada Səyavuş Sərxanlı Dədənin səsini düşmənə - erməniyə tuşlanan ox adlandırır! Mən də elə onun dediklərinin davamı olaraq bu səsin əlindən, ətəyindən öpə-öpə onun qalib olduğuna həmişəki inamımı təzələyirəm və yazıram ki:*

*öpdüm çiçək-çiçək, öpdüm durmadan*
*budağı, ağacı, daşı, torpağı...*
*öpdüm gözlərimlə mən əl vurmadan -*
*çəməni, bulağı, qopan yarpağı...*

*Bax, beləcə Dədə səsi, Dədə "Segah"ı Səyavuş Sərxanlı ilə məni təkcə yol-yoldaşı yox, ruh doğması yox, həm də o səsin pərvanəsi kimi səslə səs-səsə verməyə köklədi. Biz artıq təkcə sarı simdə deyil, ürəyin bütün tellərində o səslə həmahəng olduq. Sevincimizi, kədərimizi, ümumiyyətlə ürəyimizi və ruhumuzu o səslə bölüşdük, o səslə tamamladıq. Necə ki, Səyavuş Sərxanlı yazdı:*

*Gözümü yaş boğdu, dağları duman,*
*Durma, ömür getdi, ay dad, ay aman!*
*Şahin Səyavuşu qartal Süleyman*
*Göylərdən endirib çöllərə saldı!...*

*Görürsünüzmü, Səyavuşun ürəyini!.. Görürsünüzmü Səyavuşun etirafını!.. Eşidirsinizmi Səyavuşun "Ya rəbb" deyərək etdiyi duanı, çağırışı və bir də görürsünüzmü o səsin Səyavuşu dəli etdiyini. Eləcə də mən həmin duanı da, o çağırışı da, o dəliliyi də öz bildiyim kimi yaşayıram. Onu da öz içimdən, öz dünyamdan məhz özüm bildiyim kimi keçirirəm və paklığa, halallığa söykənən bu səsə diz çökürəm:*

*ilahi, hər şeyi unudub, təkcə*
*sənin hikmətini tapdım o səsdə!*
*yer üzün dolaşıb ziyarət etdim*
*o doğma avazda, o pak nəfəsdə!..*

*Bəli, mən mərhum və dəyərli şairimiz, publisistimiz, gözəl ürək adamı olan Səyavuş Sərxanlı ilə Dədə Süleymanın səsinin işığında sizə üz tutdum. Necə deyərlər, əslində ikimiz də sizlə danışdıq. Mövzumuz da Dədə Süleymanın səsi idi. Yəqin ki, bu mövzu sizin üçün də əzizdi. Allah Səyavuş Sərxanlıya rəhmət, Dədəyə ömür versin!*

# Ali Baş Komandanın və Zəfərimizin poetik tərənnümü



Ramiz Göylər,
AYB üzvü

**...30 il həsrət qalmışdıq Qarabağa. İçimizdə bir Qarabağ nisgili, dilimizdə bir Qarabağ ağısı, qəlbimizdə bir Qarabağ dərdi yuva salmışdı. Bu otuz ildə Qarabağ adına şeirlər qoşuldu, nəğmələr oxundu. Cümləmizin "əzəl mübtədası"(S.Vurğun) Qarabağ oldu. Ümidlərimizin ünvanı oldu Qarabağ. Toy-düyünlərin, yubileylərin, görüşlərin ilk sözü Qarabağ oldu. Nə niyyət tutduqsa onun bir ucunu Qarabağla bağladıq. Hamımız Qarabağlı olduq. Nəhayət, 2020-ci il noyabın 10-da bu uzun və ağır həsrətin sonu bitdi. Cənab Ali Baş Komandan İlham Əliyevin dərin düşüncəsi, bacarığı, siyasi istedadı, qətiyyəti, cəsarəti, iradəsi və Müzəffər Azərbaycan Ordusunun rəşadəti sayəsində Şuşa vüsalına qovuşduq.**

Bu Zəfərlə Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev və Azərbaycan Əsgəri ədəbiyyatımızın ovqatını və miqyasını dəyişdi. Qarabağın taleyi, Şuşanın fəthi, Azərbaycan Əsgərinin misilsiz qəhrəmanlığı, şəhidlik ülviyyəti Azərbaycanın yaradıcı insanlarına bir coşqu, yeni bir ruh və enerji verdi. Sənət adamları bu Zəfərdən ruhlanaraq yeni-yeni əsərlər yaratmaqdadır. Bu kontekstdə Xalq şairi Nəriman Həsənzadənin yaratdığı əsərləri xüsusi qeyd olunmalıdır. Nəriman müəllimin qələminin qüdrətindən yaranmış iki poeması - "İlhamın Zəfər yolu" və "Qarabağnaməm İlhamdır" poemaları bu mövzuda yaranmış ən gözəl əsərlərdəndir. Mən bu poemalardan biri -"Qarabağnaməm İlhamdır" poeması haqqında fikirlərimi və təəssüratlarımı bölüşmək istədim. Yeri gəlmişkən poema AzTV-də (quruluşçu rejissoru Elnur Məmmədov, ssenari müəllifi Bəxtiyar Qaraca, quruluşçu operatoru isə Cavid Əliyev) uğurlu ekran həllini tapmış və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

Nəriman Həsənzadə poeziyasına özünəməxsus yüksək lirik səmimiyyət xasdır. Sadəlik, təvazökarlıq, mərdlik, obyektivlik, nəciblik onun şəxsiyyətini və poetik yaradıcılığını səciyyələndirən xüsusiyyətlərdir.

Vətəninə böyük sevgi, dövlətinə və dövlətçiliyinə sədaqət və bağlılıq, örnək tarixi şəxsiyyətlərimizə dərin hörmət və onların tərənnümü Nəriman Həsənzadənin yaradıcılığının əsasə qayesini, ana xəttini təşkil edir. Yaşının və yaradıcılığının müxtəlif vaxtlarında onun müraciət etdiyi mövzular və bu mövzuda yaratdığı əsərlər- "Zümrüd quşu", "Nəriman", "Atabəylər", "Pompeyin Qafqaz yürüşü", "Midiya sarayı", "Qafqaz", "Qaçaq Kərəm", "Azadlıq himni", "Cavid", "Nuru Paşa" və digər əsrlərinin hər biri dediklərimə misal ola bilər.

Yaradıcılığının və omrünün ixtiyar və müdrik çağını yaşayan Nəriman müəllim, sözün əsl manasında gənclik ehtirası və şövqü ilə ölkəmizin taleyüklü məsələlərinə, tarixi keçmişimizin faciəli və qürurlu səhfələrinə aid bir-birindən gözəl əsərlər yaratmaqda davam edir.

Nəriman Həsənzadənin həm də bir şair kimi xoşbəxtliyi ondadır ki, Böyük Yaradanın lütfü ilə ömrünün ixtiyar çağında Qarabağın, Şuşanın azad olmasının sevincini yaşadı. "Bir az möhlət istəyirəm ömürdən"- deyəndə yəqin şair bu tarixi anları nəzədə tuturmuş... Tarixdən məlumdur ki, Qarabağ özünün son 275 illik keşməkeşli tarixində çox müharibə və mübarizələrdən, oddan-alovdan keçmişdir.

Qarabağ xanlığının tarixi həm də təriximizin bir hissəsi olmaqla, qəhrəmanlıq səhfələridir. Nəriman Həsənzadənin bu əsəri əslində növbəti bir Qarabağnamədir. Poema yüksək peçəkarlıq və ustalıqla yazılmış tarixi-bədii bir əsər olmaqla, tarixilik baxımından da maraqlıdır.

Sənətkarın qüdrəti ondadır ki, O, sözün, dilimizin imkanlarından istifadə etməklə bütöv bir prosesi bir neçə bəndə sığışdıraraq onun mahiyyətini poetik formada ifadə edə bilsin. Nəriman müəllim əsərin baş qəhrəmanı- Ali Baş Komandanın bu möhtəşəm qələbədə rolunu, miqyasını lakonik şəkildə, çox dolğun formada tərənnüm edib.

Hamı bilir ki, Azərbaycan 30 il münaqişənin sülh yolu ilə həll variantına sadiq qaldı, səbr etdi. Bu illər ərzində Ermənistan hər dəfə danışıqların həlledici məqamında bir bəhanə gətirərək və ya bir təxribat törədərək danışıqları dalana dirədi. Bu illər ərzində İlham Əliyev erməni dığalarının oyunlarına, xəyanətlərinə səbrlə dözdü. "Sapı özümüzdən" olan baltaların sayıqlamalarını eşitdi.

Lakin xalq inanırdı ki, Prezident "nəyi, necə və nə vaxt eləməyi" hamıdan yaxşı bilir və həm də problemin həlli üçün ciddi işlər görür. İlham Əliyev hakimiyyətdə olduğu 17 il ərzində Qarabağ probleminin həllinə doğru hər gün bir addım atdı, qüdrətli ordu qurdu. Və budur vaxt yetişdi. Ali Baş Komandan İlham

Əliyevin əmri ilə Azərbaycan Əsgəri bütün cəbhə boyu hücuma keçdi. Həmin günlərdə bütün xalq ayaqda idi. Şair bu tarixi hadisəni dastan ritmi ilə, mənəvi intonasiyalarla belə təsvir edir:

*Ordu kənardan yeridi, bilmədik hardan yeridi.*
*Yüz min silahlı can, yüz min qəhrəman yeridi.*
*Top yeridi, tank yeridi, tankların üstə Üçrəngli Bayraq yeridi.*
*Dağlıq Qarabağ üstünə Aran Qarabağ yeridi.*
*Sıralandı nəsil-nəsil, düz on milyon xalq yeridi.*
*Yuxulu-oyaq yeridi...*
*... Dedilər, otuz il keçir, daha gecdir, vaxt yeridi.*

Komandanı Ali Baş Komandan İlham Əliyev şəxsən özü verir, döyüşü özü idarə edir, qələbə müjdəsini xaqla özü çatdırırdı. Müxtəlif dövlət başçıları ilə apardığı danışıqları və dünyanın aparıcı KİV-lərinə verdiyi müsahibələri ilə nəinki, onu sevənləri, bütöv Azərbaycan xalqını, hətta rəqiblərini və siyasi opponentlərini, öz biliyi, güclü analitik təfəkkürü, diplomatik gedişləri və sərkərdəlik bacarığı ilə heyran və mat qoyurdu. Ona görə də şair onu Sərkərdə və Qəhrəman kimi vəsf edir:

*Qoşunların qabağında Sən yeridin Bayraq kimi.*
*Əsən küləklər yaydılar bir səs kimi, soraq kimi.*
*Özün də bir silah kimi, sözün də bir silah kimi.*
*Neçə dildə hər tarixi müsahibən səngəriydi,*
*Yanında xalq, bir də Vətən.*

44 günlük Vətən Müharibəsinin gedişində, problemin həlli ilə əlaqədar beynəlxalq ictimaiyyətin mövqeyi, riyakar, satqın, xəyanətkar Ermənistan dövlətinin əsl mahiyyəti cənab İlham Əliyevin verdiyi müsahibələr nəticəsində hətta onlara rəğbət göstərən dövlətlər tərəfindən anlaşıqlıqla qarşılanırdı. Və bütün bu hadisələr əsərdə xronoji ardıcıllıqla sadə, səmimi ifadələrlə öz əksini tapır. Əsərin dili o qədər axıcı və rəvandır ki, dastan kimi oxunur, "Bəhri-təvil havası"nda misralar bir-birinə ilmə kimi bağlanır.

*Öz yazdığı Bəyanatı, nə Millətlər Təşkilatı,*
*Nə başqa bir diplomatı, bizcə açıb-ağartmadı,*
*Gündəliyə çıxartmadı, qoşun-filan yeritmədi.*
*Zaman -zaman sınamışdın Sən onları.*
*Geyib hərbi paqonları "Yox deyəndə", Sən "Hə" dedin,*
*Hökmünü hökmlə dedin uçan mərmilər dilində,*
*Səngərdə səngər dilində.*

Vətən müharibəsi günlərində on milyon xalqın qəlbi bir döyündü, sözlə-əməli bir oldu. Hər gün Ali Baş Komandanın dilindən növbəti qələbə xəbərini eşitdikcə hamının qəlbi dağa dönür, sevinci aşıb daşırdı. Həmin günlər hamının dilində bir şüar səslənirdi, "Qarabağ Azərbaycandır". Bu ifadəni Preziden İlham Əliyev 2019-cu ilin oktyabrında Soçi şəhərində Valday Disskusiya Klubunun Konfransında Ermənistanın baş naziri Paşinyana cavab olaraq tribunadan səsləndirmişdi. Bu ifadə sonradan qələbəmizin şüarlarından birinə çevrildi. Müəllif əsərdə Prezidentin nidasını ustalıqla mətnə daxil edir, tarix elminin atası Plutarxın adını çəkib, bu tarixin qələmə alınmasına işarə edir.

*Plutarxı çağırıram, qədim dünyaya üz tutub.*
*"Qarabağ - Azərbaycandır!" deyin, məni bu söz tutub.*
*O, əvəzsiz vəsf elədi ötən hərbi yürüşləri.*
*Azərbaycan, İlham olsun qoy sonuncu şah əsəri.*

Müzəffər Ali Baş Komandanın "Qarabağ Azərbaycandır" deməsi, sözün əmələ keçirilməsi, şair demişkən "kişidən-əsl kişilik" idi.

Əsərdə müəllif Alı Baş Komandanla Azərbaycan Əsgərini vəhdətdə təqdim edir. Azərbaycan və İlham Əliyev -"vəhdəti vücuddur." Bu Zəfər dastanının baş qəhrəmanları İlham Əliyevlə Azərbaycan Əsgəridir. Ali Baş Komandan İlham Əliyev və Azərbaycan Ordusunun ümumiləşmiş obrazı-Azərbaycan Əsgəri.

Azərbaycan əsgərinin hər biri, himnimizdə deyildiyi kimi, "...hərə bir qəhrəman oldu." Qəhrəman Azərbaycan əsgəri Sərkərdənin bir çağırışı ilə "Can verməyə hazır, qan tökməyə qadir" olduğunu misilsiz bir rəşadətlə sübut etdi.

*...Bir yəhudi jurnalisti tamam başqa bir söz dedi:*
*"Azərbaycan əsgərinə, fikir verin,*
*Çatmaz ona heç ilahi qəhrəmanı Şekspirin"*
*Cənab Ali Baş Komandan,*
*Sən dedin ki, dahi xalqdır Azərbaycan!*
*Varaqladın varaq-varaq bu tarixi,*
*Sən yaz daim biz oxuyaq bu tarixi!*

Tarixdən məlumdur ki, döyüşlərdə ordu başçıları, sərkərdələr sillahları, atları, geyimləri ilə digər dəstə başçılarından, döyüşçülərdən fərqlənmişlər. Döyüşlərin tarixini, səlnaməsini yazan tarixçilər, səlnaməçilər, eləcə də onları tərənnüm edən yazarlar da bir qayda olaraq srəkərdələri ağ atın belində, pələng dərisində, gümüş qınlı qılıncla, daş-qaşla bəzədilmiş taclarda təsvir və tərənnüm etmişlər .

Ağır və çətin bir savaşda möhtəşəm bir qələbə qazanan Ali Baş Komandan İlham Əliyevi isə biz tarixi qəhrəmanlardan fərqli olaraq sadə hərbi formada görürdük. Bu hal Nəriman müəllimin diqqətindən kənarda qalmamış və onu sadə bir əsgər libasında, necə varsa elə də tərənnüm edir:

*Əynində əsgər paltarı, geyinmədin hər paltarı.*
*Ürəyində məhəbbətin, haqq yolunda qətiyyətin.*
*Nə pələng paltarı geydin, nə qılınc-qalxan gəzdirdin.*
*Nə tac qoydun, hər yanı daş-qaş içində.*

İndi müharibədən iki il keçəndən sonra düşmən tərəfi ilə, vasitəçilərlə, böyük dövlətlərin rəhbərləri ilə aparılan danışıqların sirləri, detalları açıldıqca, aydınlaşdıqca, müxtəlif informasiya mənbələrinin Qarabağ problemi ilə bağlı məlumatları ilə tanış olduqca İlham Əliyevin bir vətəndaş kimi, bir azərbaycanlı kimi, Ümumilli liderimiz "Heydər Əliyev məktəbi"nin yetirməsi, silahdaşı kimi, bir sərkərdə, bir siyasətçi və bir dövlət başçısı kimi müdrikliyi, üzaqgörənliyi, səbri, dönməzliy, əzmkarlığı, qətiyyəti qarşısında heyrətə gəlirsən. Onun xarakterinin bu çalarları qarşısında təzim etməli olursan. Düşünürəm ki, elə böyük şairimiz də bu əsəri yaratmağa ilhamlandıran Cənab Prezidentin bu əxlaqi keyfiyyətləri, hünər və əməlləri idi. Və bunu əsərdə müəllif olduğu kimi tərənnüm edir:

***..."Ulu Öndər məktəbidi" -***
***bunu burda biz deyirik,***
***Elə biz də düz deyirik.***
***Qızıl Arslan Atabəyin varisidi.***
***Hələ yolun yarısıdı.***
***Dünya özü bir az səbir,***
***Bir az möhlət dünyasıdı.***
***"Əshabi-Kəf" möcüzəsi!***
***Bir eşq içib, ülfət içib,***
***İlahi bir qüvvət içib,***
***Bu da - bir Tanrı töhfəsi!***

Qarabağ uğrunda mübarizəni özünün məfkurə mübarizəsi hesab edən cənab Ali Baş Komandan Vətən savaşında qələbə çalacağına əmin idi. Onun ən böyük xidmətlərindən biri cəmiyyətin bütün zümrələrini, bütöv xalqı bir müəddəs amal uğrunda, məfkurə ətrafına birləşdirməsi idi. Təkcə özünün Prezidentlik fəaliyyəti dövründə Cənab İlham Əliyev Azərbaycanımız üçün, onun tərəqqisi, inkişafı, beynəlxalq nüfuzu, xalqımızın həyat səviyyəsinin yaxşılaşması üçün böyük işlər görüb. Lakin bu işlərin içində ən möhtəşəmi Qarabağı qaytarmasıdır. Qarabağın qaytarılması, Cənab Prezidentin təbiri ilə desək, xalqımızın ləyaqətinin qaytarılmasıdır.

Nəriman müəllim haqlı olaraq qeyd edir ki, qara, qorxunc, şər qüvvələrin bağladığı qara tilsimi məhz xeyir təmsilçisi - Prezident İlham Əliyev qırdı.

***...Tilsim qırdı, düyün açdı, sirli düyün.***
***O nə bir eşitdiyim, nə sənin bir yol gördüyün!***
***O Sərkərdə! O Qəhrəman!***
***Şahidmi? Biz: Tarix, Zaman.***
***Oğul deyib yollar-izlər öpdü onun ayağını,***
***O da öpdü, Ana deyib,***
***Qarabağda Azərbaycan torpağını.***

İlham Əliyev Azərbaycan xalqının və dövlətçiliyinin tarixinə qızıl səhifələr yazdı, Qalib Sərkərdə və Dövlət Başçısı kimi daxil oldu və bu misilsiz Qələbə ilə əbədiyyət qazandı. Nəriman müəllimin poemaları göstərir ki, Azərbaycan şeiri (ədəbiyyatı) Azərbaycan Əsgəri və Qəhrəman Sərkərdə İlham Əliyev qarşısında borcunu ödəməlidir. Bu həm də qeyrət və vətəndaşlıq məsləsidir.

***Bu gün mənim şeirim,***
***sözüm, hecam, qafiyəm İlhamdı.***
***"Qarabağ - Azərbaycandır!",***
***Qarabağnaməm İlhamdır.***

# Neftin «gizləndiyi» yeri görən adam

## O, bu gün də öz sahəsinin peşəkarı kimi xatırlanır

**Azərbaycanın sənət dünyasında, mədəniyyət məkanında elə imzalar var ki, onlar artıq bu sahədə öz abidələrini ucaldıblar. Özlərini bir növ təkcə sənətin özünə yox, həm də xalqın yaddaşına möhürləyiblər. Ona görə də mədəniyyət tariximizi vərəqləyəndə, teatr sənətimizi, opera salnaməmizi gözdən keçirəndə mütləq o böyük şəxsiyyətlərin, o böyük istedadların ziyarətini etmiş olursan və bir də anlayırsan ki, bu insanlar ömürlərini riskə ataraq mədəniyyət fədailəri olaraq xalq üçün sənət ortaya qoyublar. Elə bir sənət ki, o tarixləşib, o böyük və bugünə gəlib çatan bir silsilənin özülü olubdur. Bax, bu sahədə əvəzsiz xidmətləri olan hər bir sənət adamının anılması, xatırlanması təbii ki, onun ruhuna ehtiramla yanaşı, həm də sənətinə sevginin ifadəsidir.**

Belə sənət fədailərimizdən biri də ötən əsrin əvvəllərində, daha dəqiq desəm, 1884-cü ilin yanvar ayının 5-də Ağdamda dünyaya gələn Əhməd Bədəlbəyli - Ağdamskidir. Bu, tarixi şəxsiyyət özünün dünyaya gəlişi ilə birmənalı şəkildə bugünkü opera sənətimizin fədailərindən birinə çevrildi. Məhz onun böyük Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında oynadığı rol ötən əsrin qaranlıq dövründə həm səhnəmizə, həm milli şüurumuza, həm də səhnə sənətimizə işıq kimi saçıldı. Elə bil ki, qaranlıqda bir ulduz parladı. Təbii ki, həmin zamanlarda Azərbaycan mühiti elə idi ki, qadının teatrda hansısa bir rol oynaması, ümumiyyətlə səhnəyə çıxması ağıla sığan deyildi. Dini xürafat və dövrün ab-havası, qanunları qadının səhnədə hansısa bir rolunun oynamasına heç cür imkan vermirdi. Belə bir dövrdə böyük Üzeyir Hacıbəylinin qələmə aldığı "Leyli və Məcnun" operasında Leylinin obrazını yaratmaq həqiqətən ciddi bir problemə çevrilmişdi. Dövrün ziyalıları bu operanı səhnələşdirmək üçün hər şeyə hazır idilər. Təkcə Leyli rolunun ifaçısını tapmaq onların qarşısını kəsirdi. Bax, belə bir məqamda Məcnun rolunun ilk ifaçısı Hüseynqulu Sarabski, Leyli rolunun ilk ifaçısı Əbdülrəhim Fərəcov bu işin qulpundan yapışdılar. Lakin ətrafın basqıları, qınaqları, təzyiqləri Əbdülrəhim Fərəcova güc gəldi və o da bu rolu ifa etməkdə geri çəkildi. Necə deyərlər, böyük bir iş yarımçıq qalmaq üzrə idi. Bax, belə bir məqamda, yəni 1908-ci ilin yanvar ayının 12-nə təyin olunmuş tamaşada Leyli rolunun ifasını Üzeyir Hacıbəyovun realnı məktəbdə oxuyan xalası oğlu Əhməd öz üzərinə götürdü və beləcə gələcəyin Əhməd Ağdamskisi teatr səhnəmizə ilk qədəmlərini qoydu. Burda bir məqamı xatırlayaq ki, Əhməd bəy Leyli rolunu oynamağa razılıq verəndə bir şərt kəsdi. Xahiş etdi ki, teatrın afişasında onun adını "Miri" kimi yazsınlar. Təbii ki, tamaşanı hazırlayanlar buna məmnuniyyətlə razılıq verdilər və beləcə səhnəmizin Lelyisi - Əhməd Ağdamskisi Hüseynqulu Sarabski ilə birlikdə Üzeyir Hacıbəyovun operasına həyat verdi. İllər ötdükcə Əhməd Ağdamskisinin oynadığı qadın rollarının sayı da artdı. Və onun opera və teatr sənətimizdəki yeri səhnəyə qadın ifaçılarımız gələnə qədər də-







yişməz oldu. Onun həyatında isə ikinci mərhələ başladı. Bu da Əhməd Ağdamskisinin yaşadığı ünvanı dəyişməsi ilə bağlı oldu. O, Ağdamdan Ağdaşa köçdü. Burada musiqi məktəbində tar müəllimi kimi çalışmağa başladı. Böyük ürək sahibi, böyük istedad olan Əhməd Ağdamskisi həm də gözəl bir ailənin başçısı idi. Allah ona iki oğul, iki qız nəsib etmişdi. Övladlarının dördü də ali təhsil almış müəllim, həkim, mühəndis kimi fəaliyyət göstərmişdi. Bu gün də ailənin oğul övladlarından biri elmimizin böyük cəfakeşlərindən olan 1936-cı ilin avqust ayının 6-da Ağdaşda doğulmuş kimyaçı professor, əməkdar müəllim Telman Bədəlbəyli Ağdamski ötən illəri xatırlayaraq vurğulayır ki, qardaşım Məmməd geoloq olanda, daha doğrusu, mühəndislik sənətini seçəndə atam çox sevindi. Çünki o, bu peşəyə ruhən bağlı idi. Bunun səbəbini özündən soruşdum və atam dedi ki, onun dayısı Ağalar bəy Əliverdibəyov Varşavada mühəndislik təhsili almışdı. Ona görə də Məmmədin bu yolu seçməsi onun könlünü şad etmişdi. Evin böyük oğlu olan və 1934-cü ilin oktyabr ayının 20-də Ağdaşda doğulan Məmməd Əhməd oğlu Bədəlbəyli Ağdamski bütün həyatını Azərbaycanda neft sahəsinə həsr etmişdi. Onun Sovet dönəmində bitirdiyi Azərbaycan Sənaye İnstitutunun geoloji kəşfiyyat fakültəsində öyrəndikləri həyat təcrübəsində daha da möhkəmlənmişdi. Həm fitri istedadı, necə deyərlər, torpağın alt qatını görmək qabiliyyəti, həm də mütaliə və təcrübəsi Məmməd müəllimə imkan vermişdi ki, o, çalışdığı neft sahəsində öz sözünü deyə bilsin.

Gələcəyin böyük neft geoloqu əmək fəaliyyətinə o vaxtkı "Leninneft" Mədənləri İdarəsinin Balaxanı sahəsindəki 2 nömrəli mədənində quyuların təhqiqatı üzrə operator kimi başlamışdır. Tezliklə özünü müsbət tərəfdən göstərən Məmməd mədəndə neft çıxarma ustası, sahə rəisi, geoloji şöbədə geoloq, böyük geoloq, geoloji şöbənin rəisi və nəhayət, ömrünün sonuna qədər geologiya üzrə baş geoloq - rəis müavini vəzifəsində işləmişdir. Məhz onun gərgin əməyinin sahəsində neft quyularında tətbiq edilən yeni istismar üsulları öz müsbət nəticəsini verməyə başlamışdır. Yəni, Məmməd müəllimin təklif etdiyi və elmi əsaslarla sübut edərək inandırdığı üsullarla hətta fəaliyyətini dayandırmış quyuları da təkrar istehsala qaytarmaq mümkün olmuşdu. Bu da imkan vermişdi ki, yatağın işlənmə səmərəsi artsın, qalıq neft ehtiyatlarından tam istifadə edilsin.

Məmməd Bədəlbəyli Ağdamski Balaxanı-Sabunçu-Ramana neft yataqlarının tətbiqində, onların istismara verilməsində yorulmadan çalışmış və təbii ki, hər qazılan yeni quyu ilə o da öz uğuruna uğur əlavə etmişdi. Təkcə qazıntı işləri ilə deyil, həm də neft axtarışları və neft sahəsinin inkişaf etdirilməsi üçün Məmməd müəllim öz təcrübəsinə söykənərək əsaslandırılmış elmi məqalələrlə çıxışlar etməklə də bu sahədə öz imzasını hər kəsə tanıtdırmışdı. Ona görə də onun təcrübəsi Sovet dönəmində, təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da böyük maraqla öyrənilir və sənaye sahəsində tətbiq edilirdi. Burada vurğulamaq yerinə düşər ki, Məmməd müəllimin bütün ömrünü həsr etdiyi neft sahəsində göstərdiyi xidmətlərə görə fəxri adlara, medallara, fəxri fərmanlara, mükafatlara layiq görülmüşdü. Bu da maraqlıdır ki, Məmməd müəllimlə yanaşı, Telman müəllim də fəxri ad olaraq ölkə rəhbərliyi tərəfindən "Əməkdar" adına layiq görülmüşdü. Yəni o, Azərbaycanın ilk əməkdar geoloqu, Telman müəllim isə əməkdar müəllim adına layiq görülübdü. Ümumiyyətlə, bu ailədə "Əməkdar" fəxri adına üç nəfər layiq görülüb. Yəni, Əhməd Ağdamskisinin özü Əməkdar incəsənət xadimi və hər iki öğul övladı da bu fəxri ada layiq görülübdür.

Bəli, bu gün tanrı dərgahında olan Məmməd Bədəlbəyli Ağdamskinin ruhu qarşısında xəyala dalarkən öncə yadıma əvvəldə barəsində bəhs etdiyim Əhməd Ağdamski düşür. Yaxşı atanın yaxşı oğulu olan Məmməd müəllim bir ziyalı, bir alim, bir neftçi olaraq imzasını elmimizdə, neft sənayemizdə möhürləyə bilibdir. İllər ötsə də, onun həyatdan qaynaqlanan və neft sahəsində bu gün də tətbiq edilən iş üsulu ,təklifləri, təcrübəsi unudulmayacaq, yaşayacaqdır. Elə professor, əməkdar müəllim Telman Ağdamskinin qardaşı barəsində dediyi fikirlərə diqqət yetirəndə buna bir daha əmin olursan. Telman müəllim mənimlə söhbətdə vurğuladı ki, həmişə Məmmədə deyirdim ki, qardaş, kaş mən də sənin kimi yaxşı bir geoloq olardım. Sən yerin altını yerin üstündən daha yaxşı görürsən.

**Bəli, bütün əmək fəaliyyətini yalnız bir əmək kitabçası ilə başlayan, dəqiq ifadə etsəm, Balaxanı Neft və Qaz Çıxarma İdarəsində ən kiçik vəzifədən ən böyük vəzifəyə qədər yol gələn və bütün ömrünü də sevdiyi peşəyə həsr edən bioloji kəşfiyyatda yanılmayan, necə deyərlər, neftin gizləndiyi yeri dəqiq bilən Məmməd Əhməd oğlu Bədəlbəyli Ağdamski həqiqətən öz işinin əsl bilicisi idi. O, bildiyi işin qulpundan yapışıb onu daha da şöhrətləndirmişdi. Bax, bu gün onun dostlarının, doğmalarının, həmkarlarının çalışdığı sahənin adamlarının yadına salan səbəblərdən bəlkə də ən birincisi Məmməd müəllimin əsl neftçi-geoloq olmasıdır. Ruhu şad, məkanı cənnət olsun!**

**Əbülfət MƏDƏTOĞLU**

# Otuziki eli

(əvvəli qəzetin 8 oktyabr sayında)

**Otuzikilər haqqında bir neçə toponimik rəvayətlər də yaşamaqdadır. Onlardan ikisini təqdim edirik:**

**I mətn.** Rəvayətə görə monqollar Azərbaycana gələnə qədər qarşılarına çıxan yaşayış məntəqələrini asanlıqla tutur və əhalini çapıb-talayırdılar. Heç bir şəhər və yaxud kənd əhalisi təpədən dırnağa kimi silahlanmış monqol ordusuna müqavimət göstərə bilmir, yaxud müqavimət göstərməyin yersiz olduğunu düşünərək könüllü surətdə onlara təslim olurdular.

Dişlərində şirə yeri qalan monqol ordusu Azərbaycanın Mil-Muğan əyalətinə hücum edərkən gözləmədikləri dirənişə rast gəlirlər. Monqol hökmdarı döyüşü dayandırır və öz kəşfiyyatçılarına əmr verir ki, öyrənib görsünlər onlara müqavimət göstərən qüvvələrin sayı nə qədərdir. Kəşfiyyatçılar qısa müddətdə əmri yerinə yetirib xanın hüzuruna gəlir və bildirirlər ki, bəs qarşı tərəfdəkilər cəmi-cümlətani 32 nəfərdir. Xan qəzəblənir, ordubaşına deyir: "Yüz atlı götür, o kəndi yerlə-yeksan edin, o yaramazları isə mənim hüzuruma gətirin!"

Atlılar irəliyə şığıyırlar. Çox gərgin və qanlı vuruş başlayır. Bir neçə saatlıq döyüşdən sonra yerli sakinlərin döyüşçülərinin hamısı öldürülür. Düşmənlərdən isə beş-altı yaralı halda sağ qalır. Bu xəbəri eşidən xan heyrətini gizlədə bilmir: "32 nəfərin cəsarətinə bax! Bir də mən belə qələbə qazansam, çöxlu əsgərlərimi itirməli olacağam!"

O vaxtdan da bu yaşayış məntəqəsinin adı Otuzikilər adlanır.

**II mətn.** Monqolların Azərbaycana hücum edəcəyini eşidən Mil-Muğan əyalətinin hökmdarı tabeliyində olan yaşayış məntəqələrinin ərlərini-ərənlərini bir yerə yığıb məşvərət keçirir. Deyir: -Düşmənlər ətraf əraziləri işğal edərək irəliləyirlər.

Onlar gələnə kimi biz tədbir görməliyik! Biz düşmənləri Aran ağzında qarşılamalıyıq. Biz onlarla kişi kimi vuruşmalıyıq. Əgər düşmənlərin qabağında qətiyyətsizlik göstərib geri çəkilsək, bizim üçün ayıb olar. Ona görə ki, arxamışdakı bizlərə güvənən ana-bacılarımız, colma-cocuqlarımızdır. Biz geri çəkilsək, qız-gəlinlərimiz düşmən əlinə keçəcəkdir. Namərdlərin əməllərini görüb əsir götürülənlərdən xəcalət çəkməli olarıq. Yaxşısı budur ki, biz ölənə kimi vuruşaq. Əgər biz ölsək, ana-baçılarımız qarşısında xəcalətli olmarıq. Ölünün nəyi utanar axı! Hökmdar sözünü tamamlayaraq üz tutur məşvərət iştirakçılarına:

-Bu döyüş könüllüdür, məcburiyyət yoxdur. Məcbur edilənlər və qorxaqlar bizi də yarı yolda qoyub qaçarlar. Vuruşmağa hazır olanlar sabah sübh tezdən buraya toplaşsınlar".

Səhərisi günü əyalətin 32 kəndindən onlarla yaraqlı igid vəd verilən yerdə hazır olur. Deyirlər ki, həmin vaxtdan da məşvərətin keçirildiyi və igidlərin toplaşdığı yer 32 kəndin şərəfinə Otuzikilər adlanır.



...Otuziki elinin yaranmasında iştirak edən oymaqlar tarixin qəhrəmanlıq səlnamələrinə qızıl hərflərlə imza atmış, tarixin ayrı-ayrı kəsimlərində bəylik, xanlıq, hətta dövlət qurmuşlar. Qaraqoyunlu oymağının babaları öncə tayfa ittifaqı olmuşdular. 1406-1468-ci illərdə mövcud olan Qaraqoyunlu dövlətini yaradanlar da Otuzikilər idi. Qaraqoyunlu dövlətinə Otuziki elinin Barani oymağı başçılıq etmişdilər. Barani boyundan xeyli dövlət və mədəniyyət xadimləri çıxmışdır. Otuziki mahalı sürgündə: Nadir xan 1736-cı ilin fevral ayında Muğanda böyük bir qurultay çağırdı. Bu ali məclis bir aydan artıq davam etdi. Buraya Səfəvi imperatorluğuna daxil olan bütün bölgələrdən nümayəndələr dəvət edilmiş və onlara Səfəvilər sülaləsinin gələcək taleyi ilə bağlı öz fikirlərini açıq şəkildə bildirmək imkanı verilmişdi. Əslində isə bu "imkan" formal xarakter daşıyır, gözdən pərdə asmaq idi. Guya hər şey demokratikcəsinə həll edilir, insanlar öz iradələrini ortalığa qoyurlar. Bu belə deyildi. Ona görə ki, Nadir xan hakimiyyətin bir addımlığında idi. Onun üçün çox əlverişli fürsət yaranmışdı və təbii ki, kimin nə danışmasından, yürütdüyü fikirdən və verdikləri təklifdən asılı olmayaraq o, bu fürsəti əldən verməyəcəkdi. Qurultayın gedişində də Nadir xan yalnız özünü, özünün hökmdar olması üçün "demokratik" yollar haqqında düşünürdü. Qurultaya ən çox Nadir xanın yaxınları və onun mənsub olduğu əfşar tayfasının sözükeçən, seçkin adamları dəvət olunmuşdu ki, bu da çox mühüm əhəmiyyət kəsb edirdi. Bu əhəmiyyətin nəticəsi səsvermədə özünü açıq şəkildə göstərdi. Belə ki, 1736-cı il fevral ayının 26-da Nadir xan Əfşarın tərəfdarlarının üstünlüyü ilə sonunclanan qurultayda İİİ Şah Abbasın taxtdan salınması (İİİ Şah Abbasın öldürülməsi də güman edilirdi) və Nadir xanın şah elan edilməsi haqqında qərar verildi. Beləliklə, Səfəvilər sülaləsinin 235 ildən artöq hökmranlığına son qoyuldu və Azərbaycan dövlətində Əfşarlar sülaləsinin hakimiyyətinə start verildi. Xatırladırıq ki, Nadir xan (əsl adı Nadirquludur) 1726-cı ildə şah İİ Təhmasibin sərkərdəsi olmuş, Səfəvi dövlətinin bir çox torpaqlarını zəbt etmiş osmanlı və əfqanlara qarşı müharibələr aparmışdır. 1732-ci ildə İİ Təhmasibi taxtdan salmış, onun oğlu azyaşlı İİİ Abbası şah elan etmiş, özü isə qəyyum kimi dövləti idarə etmişdir. Nadir şah taxtda yerini bərkidəndən sonra Səfəvilərin dövründə mövcud olan inzibati, iqtisadi, siyasi məsələlərdə dəyişikliklər etməyə başladı. Məlumdur ki, Səfəvilərin hakimiyyəti zamanı Azərbaycanda bəylərbəyliklər mövcud idi. Nadir şah bu bəylərbəylikləri-Şirvan, Qarabağ, Təbriz və Çuxur-Səədi bir inzibati vahiddə birləşdirdi və bütün Azərbaycanı, eləcə də Gürcüstanı və Dağıstanı qardaşı İbrahim xanın idarəçiliyinə verdi.

Xatırladırıq ki, bu illərdə Azərbaycanın ən iri bəylərbəyliklərindən biri Gəncə-Qarabağ bəylərbəyliyi idi ki, onu da Qacar soyundan olan Ziyadoğlu idarə edirdi. Nadir xanın şah seçilməsi məsələsində Ziyadoğlu Nadir xanı yox, Səfəviləri qanuni şah kimi tanıdığı üçün Nadir şah əvvəlcə bu bəylərbəyliyin hüquq və səlahiyyətlərini azaltdı. Ziyadoğluların əsas dayağı olan Cavanşir, Otuziki, Kəbirli mahalları da seçki zamanı Nadir xanın əleyhinə gedərək onu dəstəkləmədilər. Bu isə onlara baha başa gəldi. XİX əsrin Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəy yazır: "Beləliklə, Gəncə xanları tamamilə öz hüquq və səlahiyyətlərindən məhrum oldular. Hakimiyyətin cilovu onların əlindən düşdü və onlar qanadı sınmış quş vəziyyətində qaldılar". ("Qarabağnamələr", (2-ci kitab), Bakı, Yazıçı, 1991. səh.423)




Nadir şah bu mahalların əhalisinndən yaxşıca intiqam aldı. Əsasən Qarabağda yaşayan Otuzikilər Nadirin şah seçilməsi əleyhinə çıxan Gəncə bəylərbəyləri Ziyadoğlularının qohumu olan digər tayfalarla birlikdə Xorasanın Sərxəs vilayətinə köçürüldü.

**"Qarabağnamələr"də yazılır ki, Nadir şah iki əsrdən artıq mövcud olmuş Qarabağ bəylərbəyliyinə divan tutdu.**

**Buna görə də qarabağlıların bir qismi öz torpaqlarından Əfqanıstan sərhədlərinə köçürüldü. Bu qanlı cinayətə səbəb erməni xəmsə məliklərinin təşəbbüsü və Nadir şahın Qarabağda ağılsız hərəkəti idi. ("Qarabağnamələr", (2-ci kitab), Bakı, Yazıçı, 1991. səh.423)**

**(ardı var)**

**Faiq Şükürbəyli,**
**tədqiqatçı-etnoqraf**


AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN
MALİYYƏ YARDIMI İLƏ


# Pencəyin nağılı



*Əhməd Qəşəmoğlu*

**Halay, halay içində,
Xəlbir saman içində
Bəzən də acı tarix
Olur nağıl biçimdə...
Neçəki dəllək dəvə
Hələ hamam içində...**

**Hamamçının tası yox,
Baltaçının baltası yox
Tazı qalstuk taxıb,
Bir deyil, xaltası çox...**

**Hə....**

**Biri azdı, biri çoxdu, dünyada,
Yer üzü şahiddi neçə fəryada,
Yurdumuz üstündə tarixlər boyu,
Bu son iki əsrin hər ili ayı,
Bəlalar uçuşur yarasa kimi,
Bir dəli dövrandır, yoxdur hakimi.
Titrədi insanlıq taxtı bir vədə,
Hər yandan yağış tək yağdı min hədə...
İtirdi özünü, dövran karıxdı,
Çaylar məcrasından kənara çıxdı...**

**Sizə kimdən deyim, nə vaxtdan deyim?
Çox-cox yaxın olan uzaqdan deyim...**

**Eyni yol gedirdi bir neçə nəfər,
Hamı bir-birinə qardaş deyirdi,
Biri də başçıydı, ədalət sözün
Elə hey ağzında gəvələyirdi.
Getdikləri yollar çox nahamvardı,
Yolun daş-kəsəyi, yarğanı vardı...
Kömək edirdilər bir-birlərinə,
Belə davam etdi iki qərinə...**

**Biri də var idi, cəlimsiz, gücsüz
Dildə bir pəhləvan, qəlbdəsə cılız.
Hamıya dil töküb iş aşırırdı,
Imkan düşən kimi aranı qatıb
Xəlvətcə aləmi qarışdırırdı.**

**Çətinə düşdümü, imdad edərdi,
Özündən güclüdən kömək dilərdi,
Elə ki, özünə gəldi bir qədər,
Quyruq bulayardı bir tazı kimi,
Olmayıb bir varlıq, o özü kimi.**

**Düşərdi güclünün ayaqlarına,
Gəlməzdi alçalmaq onun arına...**

**Həmən güclü bir az zəiflədimi,
Bu idbarın gözü başqa məkanda,
Başqa aləmlərdə güclü gəzərdi,
Xəlvəti yol tapıb o güclü ilə,
-Gəl mənim ağamı öldür, deyərdi.
Mən sənin qulunam, əmrini göndər,
Sənin istəyin nə? Eyləyim onu,
Ağlayan üzümü güldür, deyərdi.
Kim ona havadar olmuşdu bir vaxt,
Görərdi laxlayır oturduğu taxt,
Görərdi bu cılız əlində mişar,
Taxtı mişarlayır, eyləmədən ar.**

**Düşmənin sədası olanda yaxın,
Cılız cıxarardı xain xəcərin,
Əvvəllər havadar olan o kəsin,
Dərməyə qoymazdı bir an nəfəsin,
Arxadan vurardı ağır zərbələr,
Deyərdi, sənmidin məndən çox güclü?
Indi ayağımın altında gəbər.
Nə olsun ayağa qaldırdın məni,
Sən məndən güclüydün, sevməzdim səni.
Girib qılığına yeni gələnin,
Bir az da hiyləylə artım, güclənim.
Sonra ayrı güclü axtaracağam...**

**... Bəli, yol gedirdi bir neçə nəfər,
Deyirdilər bizi gözləyir zəfər.
Cılız da onların biriydi əfsus...
Başçıyam deyənin yanında tula,
İnsanlıq adından geriydi, əfsus...**

**Elə ki, çatdılar bir dağ döşünə,
Başçıya xoş gəlmək istəyən çılız,
Kabab arzusuyla xəlvətdə, gecə
Bir ocaq yandırdı tüstüsü qəvi.**

**Qəfil bir partlayış qalxdı ocaqdan
Dağıtdı onların yatdığı evi.
Sonra tufan qopdu, zəlzələ oldu
Hərəsi bir yana qaçdı, səpildi
Arada əlaqə itdi, kəsildi.**

**Həmin bu dəstədə bir mərdi var idi,
Ürəyi təmizdi, hiyləsi yoxdu
Üzünə güləni dostu bilərdi.
O cılız, o mərdin var dövlətini
Hey talar, yenə də girəv gəzərdi.**

**O gün ocağı da, cılız hiyləylə
Mərdin tərəfində çatmışdı, gizli
Aləm qarışanda yanar kösövü
Onun kürəyinə atmışdı, gizli.
Arzusu o idi, yıxılanda mərd
Gedib üst-başını axtarsın tamam,
Əlinə keçirsin var dövlətini.**

**Qarışanda aləm, hərə bir yana
Dağılıb düşdülər min bir oyuna
Mərdin başı lovlu dərədə təkcə
Alovlar içində çırpınan zaman
Baxıb yol gəzirdi, bir yana çıxsın,
Düşdüyü bəladan canın qurtarsın.**

**Dərənin başında başçını gördü,
Sandı kömək edər, üzünə güldü.
Gördü ki, başçının sifəti başqa -
Bir vaxt dost deyənin gözündə nifrət.
Gördü ki, cılızı qısqırdır ona,
Gördü ki, düşübdü murdar oyuna.**

**Başçı əl qolunu bağladı onun,
Cılız tez tullanıb hay sala-sala,
Mərdin pencəyini çıxardı həmən.
Başçı üz çevirdi, guya görmədi...**

**Pencək sehrliydi, adi deyildi,
Kim geysə, müqəddəs dua eyləsə
Boy verər, güclənər, qüdrətlənərdi,
Cənnətə dönərdi dörd bir tərəfi,
Sular sevda ilə, ümidlə çağlar,
Baş alıb gedərdi, meyvəli bağlar,
Bərəkət gələrdi əkin-biçinə,
Dağlarda, aranda elin köçünə.
Insanlar fərəhlə, toylu-düyünlü,
Ömür sürərdilər, haqqa yönümlü...**

**Mərd haray saldı ki, pencəyimi ver!
Cılız bir fahişə hay küyü saldı,
Dedi:- yox verməræm, pencək mənimdi,
Mənə elə gəlir, babam tikibdi!
Pencəyin sapının pambıqlarını
Nağıl edən var ki, nənəm əkibdi!**

**Qaldırdı təpiyi mərd min qəzəblə
Dedi:- sərsəm qarğa çərənləmə gəl!
Qaytar tez pencəyi, axmaq başına
Sarsaq kəlmələrin olacaq əngəl!
İstədi cılızı bərk kötəkləsin,
-Oğru, hayçı-küyçü, qatilsən, desin.
Alıb pencəyini cılızı həmən
Rədd ol ta gözümdən, itil sən, desin.**

**Nərildədi başçı, min haray saldı
Cılızın əlini əlinə aldı.
Çımxırdı mərdə ki, tələsmə hələ,
Danışdı hiyləylə o gülə-gülə:
-Bəlkə də düz deyir, bunun nənəsi
Bəlkə pambıq əkib öz həyatində?....
Heç kim bilmirsə də, bəlkə babası
Dərzi dükanında fəhlə işləyib?
İsbat edəmməzsən, bəlkə bu cılız
On dəfə pencəyi yuxuda görüb?**

**Sən dayan, biz hələ bir araşdıraq,
Hər sözün yanına söz yaraşdıraq.
Özün görürsən ki, qəliz bir işdi,
Səs salma, bu işlər xeyli qarışdı.**

**Mərdin əl-ayağı yanmışdı tamam,
Arxasız, köməksiz qalmışdı tamam.
Diz çökdü, oturdu, gözündə kədər
Bildi ki, bir kömək gözləmək hədər.**

**Ancaq bu təpədən qarşı tərəfdə
Bir qardaşı vardı, dizində təpər.
Ümidi onaydı, o da aralı
Mərd burda inlədi, düşdü yaralı.**

**Başçı da, çılız da qorxmasaydılar
Uzaqlarda olan igid qardaşdan
Mərdi parça-parça eyləyərdilər,
Özlərinə əhsən söyləyərdilər.**

**Mərd özünə gəldi, qardaş da gəldi
Yanığı sağaldı, xeyli dikəldi.
Pencəyi istədi yenə cılızdan,
Əlindən qan süzən oğru, xırsızdan.**

**Bu vaxt yan yörədən çıxdı neçəsi,
Biri dərhal dedi, pencəyi qaytar!
Dedi dəfələrlə təkrar elədi.
Kimsə eşitmədi, söz oldu hədər.**

**Çılızın bir gözü yan yörəsində
Gözləri qan, yaş tökdü, aman dilədi:
Pencəkdən babamın qoxusu gəlir!
Bu dərd ürəyimi dağıdır, dəlir.**

**Bir birinə baxdı ətrafdakılar,
Astaca, xəlvətcə, göz eylədilər.
Dedilər çılızın öz hikməti var,
Bu hikmət bizə də verər xeyli kar.**

**Sonra gizli-gizli plan qurdular,
Planda - hap goplar, hiylə, ordular.
Mərdə dedilər ki, gözlə hələ sən
Hər şeyə çox baxma açıq gözlə, sən
Bir az uyu, başını qat hay-küyə,
Istəyin nə? söylə yalnız sözlə sən.**

**Ədalətlə həll edərik bu işi,
Haray salma, həddini bil, ay kişi!
Xətrinə sən dəymə bizim cılızın,
Görək nələr olur? Hələ yol uzun.**

*******

**Əyninə geyindi pencəyi çılız,
Sonra ha calışdı oxusun dua
Dili pəltək vurdu, əlləri əsdi,
Cıxardı pencəyi, geydi bir daha
Faydası olmadı, tökdüyü qanlar
Şikayət edirdi uca Allaha.**

**Hirs ilə torpağa çırpdı pencəyi,
Tapdadı hər yandan nifrətlə baxan,
Gözü yaşla dolu gülü, çiçəyi.**

**Dağıtdı, yox etdi abad yerləri,
Kin, həsəd, qan ilə doldu gözləri.
Xərabəyə döndü nə qədər gülzar,
Göydə mələkələr ağladı zar-zar.
İblis heyrət etdi belə vəhşətə,
Olan qəddarlıqdan gəldi dəhşətə.
Susdu dörd tərəfdə havadarları,
Cılıza köməyə yol axtardılar,
Allahı unudub, arı unudub
Nəhsin bitirdiyi gül axtardılar...**

**Bütün kainatın var öz nizamı,
Bunu milyon ildi görsə də hamı,
Dərs alan, anlayan heyif ki, azdı,
Tamah olan yerdə idrak dayazdı.
Nizam Allahdandı, heç vaxt dəyişməz,
O haqqı nahaqqa təslim eyləməz.
Tez-tez at oynatdı tarixdə nahaq,
Sonunda qələbə çaldı hər bir haq...**

**...Nəhayət vaxt gəldi, yetişdi zaman
Dövranın xəlviri tərpəndi rəvan,**

**Seçildi dən ilə, daş, kəsək, saman.
Dünya ləngər verdi, aləm titrədi,
Dindi kainatın əzəl fitrəti
Yeni nizam gəldi bu yer üzünə,
Güc, qüvvət toplandı mərdin dizinə,
Boy verib, yüksəldi doğma qardaşı,
Yağının başına yağdırdı daşı.**

**Əl-ələ verdi o mərd qardaşıyla,
Hər vaxt bir-birindən qüdrət aldılar,
Qulağından tutub həmən cılızı
Qazdığı quyuya tulazladılar...
Nəhsdən xilas oldu müqəddəs pencək,
Ağladı sevinclə o mərdi görcək.**

**Əyninə geyindi mərd pencəyini,
Dua özü gəldi dilinə onun,
Qırıldı yağının beli, tilsimi
Gördü əməlinin görk olan sonun.**

**Cağladı bulaqlar , caylar sevindi,
Hər ovuc torpaq da arzuyla dindi,
Bağlar bar həvəsli, sevda nəfəsli,
Düzlər şövq içində, gənclik həvəsli,
Dağlar əzəmətlə alqış eylədi,
Qayalar qədimdən tarix söylədi...**

**Bir vaxt xərabəyə qalan yurd yeri
Silkindi kədərdən, dərddən, ümidlə
Baxdı qalib olan övladlarına,
Fəxr etdi, ayrıca hər bir igidlə.**

**Mərd fərəh içində çırmadı qolun,
Hər yanda başladı yeni yüksəliş,
Vətənin sabahı yolunda hər vaxt
Hər kəsin önündə müqəddəs bir iş.**

**SON**

## *Ağalıda bazar fəaliyyətə başlayıb*

**Zəngilanın Ağalı kəndində yaşayan sakinlərin gündəlik tələbat mallarına olan ehtiyacının ödənilməsi məqsədilə bazar fəaliyyətə başlayıb.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) Trend-ə verilən məlumata görə, KOBİA-nın, Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin (TÜİB) və Türkiyənin "Kolin" şirkətinin dəstəyi ilə açılan bazarda 40-a yaxın sahibkarın məhsullarının satışı həyata keçiriləcək.

Türkiyə-Azərbaycan Qardaşlıq küçəsində yerləşən bazarın ümumi sahəsi 240 m2-dir. Burada Ağalıda istehsal olunan məhsullarla yanaşı, ətraf rayonlarda yetişdirilən kənd təsərrüfatı məhsulları, gündəlik tələbat malları, suvenir, xalça, toxuculuq məmulatları, əl işləri və s. məhsullar satılacaq.

Bazar Ağalı sakinlərinin gündəlik tələbat mallarına olan ehtiyacını ödəməklə yanaşı, əhalinin məşğulluğunu da təmin edəcəkdir.

## *Qazla bağlı çətinliklər yaşayan Avropa Türkiyədən kömür istəyir*

Rusiyanın Avropaya təbii qaz nəqlinə məhdudiyyət qoyması ilə Avropada təbii qazın qiyməti 30 faizə qədər artıb.

Rusiyanın təbii qaza qoyduğu məhdudiyyətdən narahat olan Avropa ölkələri Türkiyədən 25 kiloqramlıq paketlərdə kömür istəyirlər. Lakin kömür istehsalçıları çatışmazlıq səbəbindən mallarını daxili bazara çıxarmağa üstünlük verirlər. Digər tərəfdən, Rusiya və Ukraynadan Türkiyəyə kömür daşınmalarında fasilələr yaranıb. Nəticədə bir il ərzində kömürün qiyməti iki dəfə artıb. Keçən ilin oktyabrında kisəsi 80 lirəyə (7.312 manat) satılan kömür 190 lirəyə (17.366 manat) yüksəlib.



*Səxavət Məmməd*

# Strateji güc Azərbaycandadır

***Ermənistanla Azərbaycan arasındakı münasibət kövrək olduğu qədər iddialar da müxtəlifdir. Bir gün qısa zamanda sülh müqaviləsinin imzalanacağı deyilsə də, sabah sülh müqaviləsi imzalanmayacağı təqdirdə, qısa zamanda müharibə ehtimalı da iddia olunur.***

***Erməni tərəfinin informasiya maşını artıq hər iki istiqamətdə də işlər aparır. Yəni dünya və cəmiyyətlər hər iki versiyaya da hazırlanırlar. Məsələ ondadır ki, Azərbaycan tərəfi bu məsələdə son dərəcə geridə qalır. Yaxud elə qeyri-ciddi, cəmiyyətdə zərrə qədər də hörməti olmayanların dili ilə dedirdir ki, bunu nəinki beynəlxalq aləm, heç öz ictimaiyyəti də ciddiyə almır.***

***Erməni tərəfi elan edilməmiş səfərbərlik edir, ehtiyatda olanları, qadınları belə hərbi təlimlərə cəlb edir. Erməni tərəfi bu dəfə arxasına Fransanı alaraq addımlar atmaq niyyətindədir. Rusiyanın başının Ukraynaya qarışdığı bir məqamda Fransa özünü meydan sahibi kimi aparmaq istəyir. Makronun dili ilə bunu gizlətmir də.***

***Azərbaycan tərəfi sahədə işini görməkdədir. Artıq yeni götürülmüş mövqelərdə gücləndirmə işləri aparılır, təminat və təxliyə yolları çəkilir, mühəndis istehkam işləri görülür. Sərt qışın gələcəyini nəzərə alsaq, Azərbaycan tərəfi bu işi sürətlə həyata keçirir. Görülən işlərin həcmi və sürətinə baxdıqda noyabr ayı üçün tamamlanmanın olacağını düşünürəm.***

***Əgər Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün yox, həm də Rusiya və digər ölkələr üçün əhəmiyyəti olmasaydı, rahat şəkildə demək olardı ki, ikinci dəfə ardıcıl olaraq Azərbaycanın qalib gəlməsinə icazə verməyəcəklər. Azərbaycan ordusu məğlub olacaqdı demirəm, böyük güclər proyektlərini ikinci dəfə məğlub olmağa qoymayacaqdılar. İndiki məqamda ən kiçik hərbi əməliyyat belə yeni münaqişə ocağına gətirib çıxara bilər. Çünki Azərbaycan ordusu elə mövqelərdə yerləşib ki, qarşı tərəfin hücumunu dəf edib əks-hücuma keçsə, mütləq şəkildə erməni yaşayış məntəqələri tapdaq altında qalmış olacaq. Bu da o demək olur ki, yeni münaqişə ocağı yaradılır və bu dəfə ocaq Ermənistan ərazisi olur.***

***Erməni tərəfi də, Ermənistanı Rusiyanın for-postluğundan çıxarıb Fransanın çömçəsinə çevirmək istəyənlər də bunun fərqindədir. Azərbaycan tərəfini sıxışdırıb yeni mövqelərdən çıxarmaq imkanları, demək olar ki, yoxdur. Lap hesab edək ki, bu baş verdi. Azərbaycan tərəfi heç cür bununla barışmayacaq. Birincisi - əslində, bu, sonuncusudur çünki ictimaiyyətin fikrini nəzərə almaq ənənəsi yoxdur - ona görə də ikincisi, Azərbaycanın qalib ədası var və o ədanın zədələnməməsi üçün geri addım atmayacaq. Əksinə, ərazidə olan bütün korpuslarını, bütün hazırlıqlı bölmələrini hərəkətə keçirəcək. Bu isə genişmiqyaslı müharibə anlamı verəcək. İctimaiyyətə gəldikdə isə Azərbaycan toplumi son sərhəd toqquşmasında verilən şəhid sayına görə ələ keçirilən mövqelərin həcmini həzm edə bilmir. Ona görə də Azərbaycan tərəfinin başqa şansı qalmır.***

***Sual oluna bilər ki, münaqişə Ermənistan ərazisinə keçərsə, Rusiyanın, KTMT-nin mövqeyi nə olacaq? Hesab edirəm ki, buna ən çox sevinən ölkə elə Rusiya olacaq. KTMT-dəki dövlətlərə gəldikdə isə türk dövlətləri arasındakı xüsusi yaxınlaşma, hətta dünya çoxqütblü istiqamətə gedəcəyi təqdirdə, qütblərdən biri halına gələcək qrupun nümayəndələri heç vaxt Ermənistana görə bu qrupun formalaşması üçün əsas vasitəçilərdən olan ölkəyə hər hansısa zidd addım atmaz.***

***Fransanın Azərbaycana edə biləcəyi xüsusi bir təsir gücü olmayacaq. Hərbi gücə gəldikdə Fransa bu coğrfiyaya ordu gətirə bilməz. Ən azı Ermənistanda Rusiya hərbi bazaları var. Silah məsələsinə gəldikdə isə bu da mümkün görünümür. Təkcə NATO-nun Baş katibinin son toplantıda silah və sursat anbarlarının boşaldığını və bunu doldurmağın yollarını düşündüklərini deməsi kifayət edir ki, yalnız Rusiya tükənmir, həm də Qərbin silahı tükənir. Fransa yalnız öz təsir dairəsində olan terror qruplarını əraziyə cəlb edə bilər.***

***Ona görə də erməni tərəfinin istər sülh, sülh olmasa da, müharibə ritorikası inandırıcı deyil. Ancaq hər iki ehtimala da dünyanı və cəmiyyətlərini hazırlayırlar. İndi top Azərbaycan tərəfdədir...***

## Benzema: "Heç vaxt Zidan və Ronaldonun səviyyəsinə çatmayacağam"



**"Real"ın futbolçusu Kərim Benzema klubun rəsmi saytına açıqlama verib.**

Qol.az xəbər verir ki, fransalı hücumçu həmyerlisi Zinəddin Zidan və braziliyalı Ronaldo ilə müqayisə olunmasına münasibət bildirib. O, sözügedən futbolçuların səviyyəsinə çatmağın çətin olduğunu deyib: "Mən Zizu və Ronaldonu ötməmişəm. Biz fərqliyik. Onlar mənim kumirlərimdir. Onların etdiklərini meydanda edə bilmərəm. Mən heç vaxt onların səviyyəsinə çatmayacağam. Onlar da "Qızıl top"u qazanıblar, mən də bunu bacardım. Amma onların səviyyəsinə çatmaq çətindir. Mənim oyun tərzim bir az fərqlidir. Böyük futbolçularla oynamışam. Daha sürətli hərəkət etmək, daha kəskin zərbələr vurmaq lazım idi. İndi isə tək toxunuşlu oyun gedir. Topu alanda nə edəcəyimi bilirəm".

Xatırladaq ki, Benzema bir neçə gün əvvəl "Qızıl top" mükafatına layiq görülüb.

## Cerrard istefaya göndərildi



**"Aston Villa" baş məşqçisi Stiven Cerrardla yollarını ayırıb.**

Qol.az xəbər verir ki, buna səbəb komandanın uğursuz çıxışları olub. "Aston Villa" 42 yaşlı mütəxəssisin baş məşqçiliyi altında son matçında - Premyer Liqanın 12-ci turunda "Fulhem"ə uduzub - 0:3.

Cerrard ötən ilin noyabr ayında "Aston Villa"ya baş məşqçi təyin olunmuşdu. Tərəflər 2,5 illik müqavilə imzalamışdılar.

Qeyd edək ki, "Aston Villa" hazırda turnir cədvəlində 9 xalla 17-cidir.

# "Şuşa ili" nə töhfə

**Artıq 2022-ci ilin bitməsinə sayılı günlər qalıb. Nə xoş ki, bu il Azərbaycan xalqının yaddaşında Cənab Prezident İlham Əliyevin verdiyi Sərəncama əsasən, "Şuşa ili " kimi qalacaq. Yola salmaqda olduğumuz ilin əvvəlində imzalanmış bu sərəncam hamımızın ürəyincə oldu. Sərəncam Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq verilmiş və Nazirlər Kabinetinə "Şuşa İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılmışdır.**

2022-ci ilin "Şuşa İli" elan olunması barədə Sərəncam həm də ötən ilin may ayında Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi barədə qəbul olunmuş qərarın məntiqi davamı idi.

Hər iki Sərəncam Şuşa şəhərinin Azərbaycan xalqı üçün müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayan mühüm tarixi sənədlər olub ölkəmizdə milli-mədəni və tarixi irsimizin qorunması və təbliğ olunmasına hər zaman dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərildiyini nümayiş etdirir.

Qeyd etmək lazımdır ki, Şuşa şəhərinin hələ ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. 1977-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

Cənab İlham Əliyev tərəfindən imzalanmış Sərəncamda qeyd olunduğu kimi, Şuşa şəhəri xalqımız üçün son dərəcə əziz, müqəddəs bir məkandır və bu şəhərə olan sevgi, bağlılıq hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır. Şuşa milli mədəniyyətimizin, incəsənətimizin beşiyidir. Bu şəhərin işğal altında olmağı mədəni irsimiz tarixində qara bir səhifə idi. Erməni qəsbkarları 1992-ci il mayın 8-də işğal etdikləri Şuşanı uzun illər bütün dünyaya erməni şəhəri kimi tanıtmağa çalışsalar da buna nail ola bilmədilər. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında igid əsgər və zabitlərimiz 2020-ci il noyabrın 8-də Şuşanı işğaldan azad etməklə Vətən müharibəsini tarixi Qələbə ilə başa vurdular.

Vətən müharibəsinin hər günü Azərbaycan tarixinə şərəfli bir gün kimi yazılırdı, igid oğullarımız dayanmadan irəliyə gedirdi. Qarış-qarış azad edilmiş doğma torpaqlarımızda müqəddəs üçrəngli Azərbaycan bayrağı dalğalanırdı.

2020-ci il noyabrın 8-də hər bir azərbaycanlının yaddaşından silinməyəcək tarixi bir hadisə yaşandı. Otuz illik torpaq həsrətinə son qoyan Vətən müharibəsinin 43-cü gündə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Şəhidlər xiyabanından xalqa müraciəti zamanı Şuşa şəhərinin işğalçılardan azad edilməsi xəbərini verdi:

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Bu, adi bir xəbər yox, əslində azərbaycanlılara verilən ən böyük müjdə idi. Qarabağın tacı olan Şuşanın azad edilməsi tarixi Qələbəmizin zirvəsi idi, illərin həsrətinin




sona yetməsi demək idi. O gün hamının ürəyi Şuşada döyünürdü, o gün hamı şuşalı idi. Alınmaz qala hesab edilən və sərt relyefə malik olan Şuşanın işğaldan azad edilməsi dünya hərb tarixinə ən mükəmməl taktiki döyüşlərdən biri kimi düşdü. Qəhrəman Azərbaycan oğulları heç nədən qorxmadılar, çətinliklərə baxmayaraq, geri çəkilmədilər və cəsurluq nümayiş etdirdilər. Onlar sıldırım qayalara dırmaşaraq əlbəyaxa döyüşlə şəhəri PUA-larsız, tanksız, artilleriyasız düşməndən azad etdilər. Strateji əhəmiyyətli Şuşanın işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə həlledici təsir göstərərək Zəfər Günü kimi tarixə yazıldı. Bu müqəddəs yolda canından keçən şəhidlərimiz heç zaman unudulmayacaq. Çünki məhz onlar Azərbaycan xalqının tarixində heç zaman unudulmayacaq əbədi qəhrəmanlıq dastanı yazdılar.

Bu qəhrəmanlıq dastanını yazanlar haqqında hələ bundan sonra çox kitablar yazılacaq, onların şəninə mahnılar qoşulacaq, abidələr ucalacaqdır. Milli Kitabxananın öhdəsinə düşən missiya isə həmişə olduğu kimi, bu mövzuda ərsəyə gələn bütün sənəd kütləsini nizamla bir araya toplamaq və gələcək nəsillərə çatdırmaqdır. Belə ki, Sərəncam verildiyi gündən respublikamızda fəaliyyət göstərən bir çox müəssisə və təşkilatlar kimi, Azərbaycan Milli Kitabxanası da "Şuşa ili"nə layiqincə qoşuldu. Bundan öncə Azərbaycan Mədəniyyət Nazirliyinin və Milli Kitabxananın direktoru Kərim Tahirovun təşəbbüsü ilə "Qarabağa kitabla gedək " kampaniyasına start verilməsi işğaldan azad olunmuş bölgələrdə mədəni irsin dirçəlməsinə doğru atılmış ilk addım idi. Kitabxananın zəhmətkeş və təcrübəli əməkdaşı, bütün kollektivin rəğbət bəslədiyi Mədinə xanım Vəliyevanın rəhbərlik etdiyi diyarşünaslıq biblioqrafik resursların yaradılması şöbəsi də bu istiqamətdə gərgin əməli işə başladı.

Xatırladım ki, Şuşa erməni işğalından azad olunduqdan sonra Azərbaycan Milli Kitabxanasının ötən il hazırladığı "Şuşa - Azərbaycanın mədəniyyət paytaxtı" adlı biblioqrafiya Şuşaya həsr olunmuş ilk fundamental biblioqrafiyadır. Kitabın tərtibatı Xeyransa Abbasovaya, elmi redaktəsi professor Kərim Tahirova məxsusdur. Şuşanın işğaldan azad edilməsinin bir illiyi münasibətilə tərtib olunmuş biblioqrafiyada şəhərin tarixi, mədəniyyəti, musiqisi və ədəbi mühiti, tarixi və memarlıq abidələri, ictimai-siyasi həyatı haqqında kitablar, dövrü mətbuatda, məcmuələrdə çap olunmuş zəngin materiallar öz əksini tapmışdır. Kitabda Şuşa haqqında digər xarici dillərdə dərc olunan materiallar, habelə dünya milli və universitet kitabxanalarında mühafizə olunan ədəbiyyatlar ayrıca bölmələrdə verilmişdir.

Bu il həm də Şuşa şəhərinin 270 illiyi qeyd olunur. Bu münasibətlə Azərbaycan Milli Kitabxanası daha bir fundamental biblioqrafiyanı ictimaiyyətə təqdim etmişdir. "Şuşa-tarixi mənbələrdə" adlanan biblioqrafiyanın elmi redaktoru professor Kərim Tahirov, tərtibçisi Xeyransa Abbasovadır. Biblioqrafiyada Şuşanın tarixi, ictimai-siyasi həyatı, tarixi və memarlıq abidələri haqqında kitablar, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş zəngin materiallar öz əksini tapmışdır. Şuşa haqqında xarici dillərdə olan materiallar, eləcə də milli və universitet kitabxanalarında mühafizə olunan ədəbiyyat xüsusi bölmələrdə əks olunmuşdur. Biblioqrafiyadakı materiallar 1830-2022-ci illəri əhatə edir.

Materiallar Azərbaycan, rus və başqa dillər üzrə xronoloji qaydada qruplaşdırılmış və daxildə əlifba sırası ilə düzülmüşdür. Oxuculara istifadəni asanlaşdırmaq üçün biblioqrafiyanın sonunda kitabların, məqalələrin adlar göstəricisi və müəlliflərin əlifba göstəriciləri tərtib olunmuşdur.

"Əlavələr" bölməsində Şuşanın tarixinə dair qiymətli arxiv sənədləri öz əksini tapmışdır. Əminliklə demək olar ki, tarixçilər, politoloqlar, elmi tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu vəsait çox qiymətli məlumat mənbəyi kimi dəyərlidir.

Şuşadan söz düşəndə az qala onun zərif simvoluna çevrilən Xurşidbanu Natəvanın adını anmamaq mümkün deyil. Çünki Natəvan da Şuşa kimi əsrarəngiz gözəlliyin, məğlubedilməz ruhun daşıyıcısı idi. Şuşanın təməl daşını qoyan qəhrəman Pənahəli xanın nəvəsi Natəvan xalq arasında "Xan qızı" kimi sevilirdi. Bu il Azərbaycan lirik şeirinin anası, ədəbiyyatımızın görkəmli xanım-xatun nümayəndəsi Xurşidbanu Natəvanın anadan olmasının 190 illiyi ilə də əlamətdardır. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sərəncamına əsasən, bu münasibətlə ölkəmizdə silsilə tədbirlər həyata keçirilir.

2022-ci ildə Milli Kitabxananın hazırladığı "Xurşidbanu Natəvan" biblioqrafiyası da bu qəbildəndir. "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası ilə nəşr olunan biblioqrafiyada Xan qızının əsərləri, həyat və yaradıcılığı , ictimai fəaliyyəti haqqında, habelə onun dünyanın ən zəngin kitabxanalarında qorunan nəşrləri öz əksini tapmışdır. Xurşidbanu Natəvan haqqında olan bu ilk fundamental bibliqrafik vəsaitin tərtibatçıları Mədinə Vəliyeva və Gülanə Quliyeva, elmi redaktoru əməkdar mədəniyyət işçisi Kərim Tahirovdur.

Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün - vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir."

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması, tarixi, dini və mədəniyyət abidələrinin bərpası, quruculuq işləri, qısa müddətdə Şuşanın Baş planının hazırlanması, Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları hər bir azərbaycanlını sevindirir.

**Cıdır düzündə Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinə həsr olunan "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır. Bu bir həqiqətdir ki, bundan sonra ölməz Müşfiqin dediyi kimi, "Böyük günlər, şanlı günlər, şən günlər, yoluna düşən günlər hələ qarşımızdadır!" Bu günləri bizə canı və qanı bahasına bəxş edən, Şuşanı bizə qaytaran, Şuşa sevincini bizə yaşadan qəhrəman Vətən oğulları- Şuşa fatehlərini, qazilərimizi, şəhidlərimizi Azərbaycan xalqı heç zaman unutmayacaq. Onların yazdığı əbədi qəhrəmanlıq dastanını, uğrunda fəda olduqları gözəl Qarabağımızı, cənnət Şuşamızı təbliğ edib bütün dünyaya tanıtmaq və gələcək nəsillərə çatdırmaq hamımızın borcudur.**

**Bəybala Ələsgərov,**
**tarix elmləri doktoru**
**Tərlanə Əliyeva,**
**Milli Kitabxananın əməkdaşı**

# Jukovun üstünə tapança çəkən general

**Jukovun üstünə tapança çəkən general - Marşalın həddini aşmasına Stalin də, Xruşov da dözməyib.**

Müşavirə başlanandan 15-20 dəqiqə sonra o, ayağa qalxaraq üzünü Georgi Jukova tutub:

- Yoldaş marşal, mən sizdən tələb edirəm, ifadələrinizdən ana söyüşünü və təhqirləri yığışdırın...

General-leytenant Boris Blaqoslavovun gözlənilməyən bu cür sərt müraciəti Jukovun qəzəbinə səbəb olub. Marşal ayağa qalxaraq üstündəki tapançanı çıxarıb və generala tuşlayıb. General da çox soyuqqanlıqla öz silahını çıxarıb:

- Nə durmusuz, atəş açın. Buna cürətiniz çatarmı, Georgi Kanstantinoviç.

Jukov tapançasını stolun üstünə qoyub və səsinin tonunu aşağı salaraq Blaqoslavovn hədələyib:

- Bu sözləri tribunalda təkrar edərsiniz, əgər cürətiniz çatsa. İndi isə müşavirəni tərk edin.

Bu hadisə 1944-cü ildə, general Vatutinin həlak olmasından sonra Jukovun müvəqqəti olaraq Ukrayna cəbhəsinə komandan təyin olduğu ilk gün baş verib. Həmin gün Jukov komandirləri müşavirəyə toplayıb, onlardan cəbhədəki vəziyyətlə bağlı yazılı məruzələr tələb edib. Məruzələr hazır olduqdan sonra Jukov onların üstünə dərkənarlar qoyub: "Tribunala verilsin", "həbs edilsin", "rütbəsi aşağı salınsın" və s. Bununla yanaşı, məruzələrə dərkənar qoya-qoya Jukov komandirlərin ünvanına ana söyüşləri, təhqirlər yağdırıb. Buna dözməyən Ukrayna cəbhəsinin mühəndis qoşunlarının komandanı Boris Blaqoslavov marşalın qarşısında susmayıb.

Jukovun sovet hərb sahəsində, müharibədə, qələbənin təmin edilməsində xidmətləri danılmaz faktdır. Marşalla bağlı çoxsaylı kitablar yazılıb, filmlər çəkilib. Bu əsərlərdə onun yüksək sərkərdəlik bacarığı, peşəkarlığı ən kiçik detallarına qədər açıqlanıb. Əslində bu məsələdə də pafoslardan səxavətlə istifadə edilib. Belə ki, Konstantin Rokossovski, İvan Konyev, Aleksandr Vasilevski və digər marşalların müharibədəki xidmətləri heç də Jukovdan az olmayıb. Xüsusilə də marşal Vasilevskinin alman faşizmi üzərində qələbənin təmin olunmasında xidmətləri bəlkə də Jukovun xidmətlərindən qat-qat çox olub. Amma onlar heç vaxt Jukov kimi özlərini reklam və təbliğ etməyiblər.



Jukova yağdırılan təriflərlə yanaşı, onu istər mətbuatda, istərsə də mötəbər tədbirlərdə sərt tənqid edənlər də olub. Bəzi hərbi araşdırmaçıların və tarixçilərin qənaətinə görə, Jukov son dərəcə kariyerist, şöhrətpərəst, yüksək vəzifələrə iddialı, hətta hərbdən siyasətə transfer etməyi planlaşdıran bir adam olub. O, özünü həmişə "məhdudiyyətsiz səlahiyyətli" şəxs sayıb. "Mənəm-mənəmlik" Jukovda pik həddə çatıb və eqosunu təmin etmək üçün marşal tabeliyində olan zabitlərə əl qaldırmaqdan, döyüş meydanında güllələməkdən də çəkinməyib.

Jukovun hədsiz dərəcədə kobud, qaba olması özünü təkcə tabeliyində olan hərbçilərə münasibətdə göstərməyib. Marşal zaman-zaman öz həmrütbəlilərinə də, marşal İvan Konyevə və marşal Andrey Yeremenkoya da əl qaldırmağa cürət edib.

Jukov siyasi müstəvidə də ötkəmlik nümayiş etdirib. Sözsüz ki, Stalinin hakimiyyəti dövründə bu cür iddialı olmaqla marşal özü özünə quyu qazıb. Stalin marşalı bir ifadə ilə "zərərsizləşdirib":

"Bütün rus sərkərdələrinin xarakterində sadəlik və səmimiyyət olub. Siz isə bundan məhrumsunuz. Bizim Napoleona ehtiyacımız yoxdur..."

Napoleonun qazandığı hərbi qələbələrdən sonra iştahlanıb siyasi hakimiyyəti ələ keçirdiyini nəzərdə tutan Stalinin bu ifadəsi ilə Jukov 1948-ci ildə mərkəzdən kənarlaşdırılıb. Bu hadisə də Jukovun özünə vurğunluğunu məhdudlaşdırmayıb. Xruşovun hakimiyyəti dövründə müdafiə naziri təyin edilən Jukov yenidən böyük iddialarla yaşayıb. 1957-ci il plenumunda Xruşovu devirmək istəyəndə Jukov öz mənəmliyini yenidən və daha sərt biruzə verib. Həmin plenumda o, tribunaya qalxaraq fikirlərini belə bildirib:

- Mənim icazəm olmadan şəhərə heç bir ordu və heç bir tank yeridilə bilməz.

Marşal bunu Xruşovun müdafiəsi üçün deyib. Amma Xruşov da ağılsız adam olmayıb. Jukovun bu ifadəsi ondan xəbər verib ki, marşal istədiyi vaxt ordunu şəhərə yeridərək istədiyi siyasi prosesi həyata keçirə bilər. Amma onu da qeyd edək ki, ordunun şəhərə yeridilməsi, hər hansı bir siyasi prosesə cəlb edilməsi təkcə müdafiə nazirindən asılı deyil və tək onun səlahiyyəti daxilində də deyil. Bu ifadədən sonra Xruşov yaxşı anlayıb ki, Jukovu nazir postunda saxlamaq ən böyük təhlükədir.

Jukovun iddialarını ilhamlandıran bir amil də amerikalı həmkarı Duayt Eyzenhauerin ABŞ prezidenti seçilməsi olub. Jukov yəqin ki, bu faktı da dəfələrlə götür-qoy edib: "Mənim müharibədəki xidmətlərim heç də Eyzenhauerdən az olmayıb. Əgər belədirsə mən niyə dövlət başçısı olmamalıyam?"

Marşal bu düşüncələrdə bir amili unudub, qətiyyətli Stalin, hiyləgər Xruşov amilini.

Bununla da Jukov öz mənəmliyi, iddiaları ilə zaman-zaman müharibədəki xidmətlərinə kölgə salıb. Amma buna baxmayaraq, sovet təbliğatçılarının şişirtdiyi marşal kütlələr tərəfindən seçilib, sevilib və böyük nüfuza sahib olub.

**Marşal 1944-cü ildə onun üstünə tapança çəkən generalı da sonralar bağışlayıb...**

**Aron Hanukaev**

## Yusif Məhəmmədoğlunun "Vətən müharibəsinin memarı" adlı kitabı çap olunub




**Yazıçı - jurnalist Yusif Məhəmmədoğlunun "Vətən müharibəsinin memarı" kitabı 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə "Dəmir yumruq" adlandırılan əməliyyata başlanılan və 44 gün davam edən Vətən müharibəsində otuzillik işğala son qoyulmasının və ərazi bütövlüyümüzün bərpasının qürur dolu anlarına, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Zəfər Savaşında rəşadətli ordumuzun göstərdiyi misilsiz qəhrəmanlıqlara həsr olunur.**

## Ayrılıq

**Çoxdandı vüsala yetişmək həsrətindəydim. Görüşdük, gördüm ki, gözlərin satır səni. Orada yalançı məhəbbət yuva salmışdı. Ürəyin sevirəm desə də, gözlərinin ənginliyində sevgi adlı istəkdən xəbər yox idi. Orada hər şey vardı: "Yalan, saxtakarlıq, vəfasızlıq, biganəlik. Təkcə məhəbbət yox idi. Gözlərin ürəyinin içini göstərirdi:**

***Ürəyində***
***Gizlətmək istədin,***
***Kədərini, sevgini.***
***Ürəyində xəbərsiz***
***Gözlərin***
***Satdı məni...***

**Gözlərin ürəyimin minbir gizli sirrini açdı. Məni ağrıtdı yalandan sevirəm deməyin. Bu kövrək, xəfif, ürək, həzin duyğunun qədrini, qiymətini bilməməyin dözülməzdir axı. Demə ki, mənim ürəyim əsl fağırdır.**

**O, artıq oyanıb qəflət yuxusundan, bezib sənin içinin yalan, fitnə dolu qoxusundan. Onu sevməyəni ürəyim də sevmiyəcək, Onu unudanı, xatırlamayanı ürəyim də birdəfəlik unudacaq.**

**Sevib sevilmək sevəni çox ağrdır. Dərdini təkcə acı həqiqqət dağıdır.**

**Mən içimdə artıq yetər, əlvida dedim sənə, məni sevməyənə. Və sənsizliyin əlini ürəkdən bərk-bərk sıxdım. Qəlbimdə sənli günlərin kürəyini yerə vurdum, yıxdım. Və nə yaxşı ki, yalançı sənlikdən uzaq qaçdım.**

**Səni mənsizliyə buraxdım. Baxma ki, özümü odlara yandırıb, yaxdım. Sənsizlik hər şeydən ağır olsa da, ürəyim qüssə ilə dolsa da, irəliyə nurlu sabaha doğru üz tutdum. Baxma ki, sevgisizliyi mən də unutdum.**

**Ürəyim kədərlə vurdu, ancaq sevgi boşluğuna qürurla sinə gərdi, ayaq üstə möhkəm durdu. Ağır olsa da, sevgim nifrətim saçlarını yolsa da, təsəllim təkcə sənsizlik oldu...**

**Adil Misirli**

## ŞOK OLAY: Türk DJ-nin müəmmalı ölümü



**İngiltərənin məşhur DJ-lərindən olan Koray Alpergin meşəlik ərazidə güllələnərək öldürülüb.**

Adalet.az xəbər verir ki, bu qətllə bağlı artıq 4 nəfər həbsdədir. Keçən cümə axşamından bəri səsi eşidilməyən İngiltərənin məşhur DJ-lərindən biri Koray Alperginin meyiti həftə sonu Esseks şəhəri yaxınlığındakı meşədə tapılıb. Alperginin güllələndiyi açıqlanıb.

Londonda fəaliyyət göstərən "Bizim FM"in qurucusu Alpergin və Türkiyədən gələn sevgilisinin cümə axşamı axşam saatlarında avtomobillə qaçırıldığı bildirilib.

Məşhur DJ-in dostları sosial media hesablarından eşitmədikləri Alpergin və sevgilisinin fotolarını paylaşıblar. Onu görənlərdən polisə müraciət etmələrini istəyiblər.

Alperginin cəsədi şənbə günü Esseks yaxınlığındakı meşədə tapılarkən, şəxsiyyəti təsdiqləmə əvvəlki gün aparılıb.

Qeyd edək ki, cəsəd tapıldıqdan dərhal sonra Kentdə üç nəfər, dünən Tottenhemdə isə 55 yaşlı şübhəli şəxs həbs edilib.

## Əməkdar artist: "İmkanlı olacam, onu alacam"



**Əməkdar artist İlkin Əhmədov "Həmin Zaur " verlişində xalq artisti Məleykə Əsədovanı illər əvvəl sevdiyini , onunla ailə qurmaq istədiyini söyləyib.**

Xanəndə, " O vaxt Məleykə Əsədova "İtkin gəlin"də Əfsanə rolunu oynayırdı. Mən də 5-6- cı sinifdə oxuyurdum. Ona vurulmuşdum. Xəyal qururdum ki, imkanlı olacam, maşınım evim olacaq. Elçi gedəcəm və Məleykə xanımı alacam."- deyə, öz uşaqlıq sevgisində danışıb.

**Əntiqə Kərimzadə**

Aqil Abbas və Faiq Qismətoğlu **Ənvər Seyidova** ezizi
**Oqtay Seyidbəyovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Seyran Səxavət, **Aynur və Faiq Xudanlılara** əzizləri
**Xankişi müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əbülfət Mədətoğlu **Faiq Xudanlıya** əzizi
**Xankişi müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin Aparatı tərəfindən Aparatın əməkdaşı Həsənzadə Tamerlan Akif oğluna verilmiş IX-26/A saylı xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş məsləhətçi: **Aqil ABBAS**

Baş redaktor: **İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 101**
Çapa imzalanmışdır: 21.10.2022